Xalqın qəzeti!

# Xalq qəzeti

№ 189 (30883) 6 sentyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Zəfər strategiyası: Prezident İlham Əliyevin yeni Azərbaycanı



Səhifə ⇨ 5

## Yeni geosiyasi platformanın konturları

*Bakı–Minsk–İslamabad təmasları uğurlu perspektivə yönəlib*



**Şanxay Əməkdaşlıq Təşkilatının Tiencin sammitində Bakının, Minskin və İslamabadın paralel təmasları geosiyasi baxımdan yeni bir xəttin cızıldığını göstərir. Diplomatiyada təsadüflər olmur; Liderlərin bir masa ətrafında söhbəti, birgə kadrda görünməsi bəzən illərlə davam edəcək əməkdaşlığın ilkin işarəsi olur. Azərbaycan, Belarus və Pakistan arasında baş verən yaxınlaşma da məhz bu təəssüratı yaradır.**

*(ardı 3-cü səhifədə)*

## Geosiyasi kompas Aİ-nin "genişlənmə siyasəti"ni göstərir




Səhifə ⇨ 5

**Son saatda**

*İrakli Kobaxidze:*

## Gürcüstanda dövlət öz yerindədir



**"Dövlət öz yerindədir və heç kimə onu hər hansı bir yolla devirməyə imkan verilməyəcək". Bu sözləri Gürcüstanın Baş naziri İrakli Kobaxidze müxalifət siyasətçilərinin "dövlətin dinc yolla devrilməsi" ilə bağlı bəyanatlarını şərh edərkən söyləyib.**

Xatırladaq ki, "Rustaveli prospekti hərəkatı"nın lideri Paata Burçuladze oktyabrın 4-nü - yerli hakimiyyət orqanlarına seçkilər gününü "tarixi qələbə və hökumətin dinc yolla devrilməsi günü" elan edib. Müxalifət Burçuladzenin ideyasını dəstəkləsə də, tarix haqqında danışmağın yersiz olduğunu bəyan edib.

Gürcüstan hökumətinin başçısı isə deyib ki, heç kimə dövləti devirməyə imkan verilməyəcə: "Biz bu illər ərzində cəmiyyətə söz vermişik ki, heç kimə bunu etməyə imkan verməyəcəyik və sözümüzü tutmuşuq, indi də söz veririk və bu sözə mütləq əməl edəcək: "Baş nazirin sözlərinə görə, bu cür açıqlamalar radikal müxalifətin simasını göstərir. Bütün bu illər ərzində onlar davamlı olaraq hökuməti devirməkdən, inqilabdan danışırlar. Onların uğur qazanmaması isə onların sifətindən, ruhundan və münasibətindən xəbər verir. Xarici agentlər belə hərəkət edirlər.

2025-ci il oktyabrın 4-də Gürcüstanın 64 şəhər və rayonunda eyni vaxtda yerli özünüidarəetmə orqanlarına seçkilər keçiriləcək. Seçkilərdə 14 partiya iştirak edəcək.

***XQ***

## Rasputindən Zatulinə

*Rusiyaya siyasi təxribatçılar lazımdırmı?*

**Bəzi şəxslərin hadisə və proseslərə yanaşmasına heyrətlənməyə bilmirsən. Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini, Kremlin əsas ruporlarından olan Konstantin Zatulin isə heyrətləndirmək üzrə çempiondur. Əlbəttə ki, söhbət pis mənada heyrətləndirməkdən gedir.**



Əslində, Zatulin obrazı Rusiyanın ictimai-siyasi düşüncə sisteminin qısırlıq göstəricisidir. Başqa qənaətə gəlməyə əsas yoxdur. O boyda dövlət olasan, söz demək üçün dayaz təfəkkür sahibinin, şovinistin xidmətinə eytiyac duyasan. O təfəkkür sahibi ki, karyera pillələrindəki yüksəlişində müxtəlif iqtisadi maxiyanasiyalar həlledici rol oynayıb. Qeyd edək ki, Zatulin Rusiyada xiffəti çəkilən SSRİ-ni iqtisadi zəmində parçalayaraq varlananlardan olub. Sovetlər Birliyi qalsaydı, o və onun kimilər ömürlük həbs cəzasına məhkum ediləcəkdilər...

*(ardı 3-cü səhifədə)*

## Kremlin təzyiqləri İrəvanın geosiyasi seçiminə maneədir

*"Spayka" olayı Ermənistanı xarici siyasət kursunda alternativ axtarışına məcbur edə bilərmi?*

**Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanmasından sonra Cənubi Qafqazda yeni geosiyasi düzən formalaşıb, regiondakı güc balansı dəyişib. ABŞ-ın dəstəyi ilə reallaşan prosesdən sonra Ermənistan və Rusiya arasında əsən soyuq küləklərin daha da şiddətləndiyi müşahidə olunur. Rəsmi Moskva Ermənistanı cəzalandırmaq üçün siyasi və iqtisadi təzyiq alətlərini işə salır. Bu təzyiq planlı və mərhələli şəkildə həyata keçirilir.** *(ardı 6-cı səhifədə)*



## Qatarı gözləmək, yoxsa ona bilet almaq?




Səhifə ⇨ 4

## Azərbaycan – Türkiyə enerji əməkdaşlığı qlobal nümunəyə çevrilib

Səhifə ⇨ 7

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında tarixi Birgə Bəyannamənin imzalanması münasibətilə "ACWA Power" şirkəti adından Sizə və məğrur Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Sizin uzaqgörən rəhbərliyinizlə Azərbaycan 44 günlük Vətən müharibəsində suverenliyini və ərazi bütövlüyünü bərpa edərək qətiyyətli qələbə qazandı. Bu gün Siz həmin hərbi uğuru regionun gələcəyini formalaşdıracaq, ədalətli və davamlı sülhü təmin edən diplomatik zəfərə çevirdiniz.

Bu nailiyyət Sizin ölkənizin sabitliyinə və firavanlığına qəti sadiqliyinizlə yanaşı, həm də çağırışları davamlı tərəqqi üçün imkanlara çevirərək uzaqgörənliklə və əzmkarlıqla rəhbərlik etmək bacarığınızı göstərir.

Biz "ACWA Power" şirkəti olaraq Azərbaycanın tarixində bu mühüm məqamın şahidi olmaqdan şərəf duyuruq və sülhün, əməkdaşlığın bu yeni dövründə ölkənin dayanıqlı inkişafını dəstəkləməyə sadiq qalırıq.

Sizi bir daha səmimi-qəlbdən təbrik edir, Azərbaycanın daha parlaq gələcəyi ilə bağlı fəaliyyətinizdə davamlı uğurlar diləyir, ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***Məhəmməd ƏBUNƏYYAN,***
***Səudiyyə Ərəbistanı Krallığının***
***"ACWA Power" şirkətinin təsisçisi və***
***Direktorlar Şurasının sədri***

# Göygöl rayonunun Göygöl–Topalhəsənli–Şəhriyar (8 km)–Zurnabad–Gəncə–Mollacəlilli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** İki min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Göygöl–Topalhəsənli–Şəhriyar (8 km) – Zurnabad–Gəncə–Mollacəlilli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"-nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,0 (iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 sentyabr 2025-ci il**

# Azərbaycan və Ermənistan nümayəndə heyətlərinin görüşü



**Sentyabrın 5-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikası Baş nazirinin müavini Mher Qriqoryanın rəhbərliyi ilə iki ölkənin nümayəndə heyətlərinin Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazisinə qarşılıqlı səfərləri olub.**

Bu il avqustun 8-də Vaşinqtonda əldə edilmiş razılaşmalara uyğun olaraq, tərəflər kommunikasiyaların yaradılması sahəsində fəaliyyətlərin sinxronlaşdırılması məqsədilə sərhəd xəttinin müvafiq sahələrinin/hissələrinin delimitasiyası və minalardan təmizlənməsi, həmçinin zəruri infrastrukturun bərpası, tikintisi və onların icra müddətləri ilə bağlı məsələləri müzakirə ediblər.

Nümayəndə heyətlərinin rəhbərləri Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın növbəti görüşünün təşkili ilə bağlı fikir mübadiləsi aparıblar.

***XQ***

# Mərkəzi Bankın İsmayıllıda səyyar görüşü



**Azərbaycan Mərkəzi Bankı (AMB) maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi çərçivəsində İsmayıllı şəhərində növbəti səyyar görüş keçirib.**

Müzakirə İsmayıllı, Ağsu, Qobustan, Şamaxı inzibati rayonlarında yaşayan vətəndaşları əhatə edib. Görüş zamanı vətəndaşların maliyyə xidmətləri ilə bağlı müraciətləri üzrə müvafiq izahatlar verilib, əlavə araşdırma tələb olunan məsələlərlə bağlı ərizələri qeydə alınıb.

Müraciətlərini şifahi şəkildə ünvanlayan vətəndaşlardan araşdırma üçün zəruri məlumatlar əldə olunub.

***XQ***

# Budapeştdə Azərbaycan–Macarıstan hökumətlərarası Birgə Komissiyanın iclası və biznes forumu






**Budapeşt şəhərində Azərbaycan və Macarıstan hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın XI iclası çərçivəsində dövlət və özəl sektor nümayəndələrinin iştirakı ilə biznes forumu keçirilib.**

Birgə Komissiyanın həmsədrləri – Azərbaycan Respublikasının maliyyə naziri Sahil Babayev və Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto biznes forumunda çıxış ediblər. S.Babayev Birgə Komissiyanın XI iclasının nəticələrinin Azərbaycan–Macarıstan münasibətlərinin dostluq və strateji tərəfdaşlıq ruhuna uyğun olaraq əməkdaşlığın gələcək istiqamətlərini müəyyənləşdirdiyini bildirib.

Forum çərçivəsində ikitərəfli ticarətin genişləndirilməsi, investisiyaların təşviqi, kiçik və orta sahibkarlığın dəstəklənməsi, enerji, yaşıl iqtisadiyyat, ərzaq təhlükəsizliyi və nəqliyyat sahələrində əməkdaşlıq imkanları müzakirə edilib. AZPROMO-nun icraçı direktorunun müavini Tural Hacılı, Azərbaycan Turizm Bürosunun baş icraçı direktorunun müşaviri Sevda Əliyeva məclisdə çıxış ediblər. Forum çərçivəsində Azərbaycanın "Hieronica Limited" şirkəti ilə Macarıstanın İxracın Təşviqi Agentliyi (HEPA) arasında Anlaşma Memorandumu imzalanıb.

Biznes forumunda iş adamları arasında görüşlər keçirilib.

*

**Həmin gün Azərbaycan və Macarıstan hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın XI iclası keçirilib.**

Komissiyanın həmsədrləri – Azərbaycan Respublikasının maliyyə naziri Sahil Babayev və Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonun iclasdan əvvəl təkbətək və geniş tərkibdə keçirilən görüşlərində ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti, bu əməkdaşlığın genişləndirilməsi imkanları ətraflı müzakirə edilib, ticarət, iqtisadiyyat, investisiya, enerji və digər sahələri əhatə edən Birgə Komissiyanın növbəti iclasının geniş məzmunlu gündəliyi nəzərdən keçirilib.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən iclasda S.Babayev qeyd edib ki, Azərbaycan–Macarıstan Hökumətlərarası Birgə Komissiyası iqtisadi münasibətlərin möhkəmləndirilməsində həlledici rol oynayır və Budapeştdə keçirilən, gündəliyi olduqca geniş olan 11-ci iclasın nəticələri iki ölkənin ticarət, biznes və investisiya, energetika, əmək, məşğulluq və sosial müdafiə, elm və təhsil, səhiyyə, mədəniyyət, turizm, qida təhlükəsizliyi, şəhərsalma, su ehtiyatlarının idarə edilməsi və digər sahələrdə əməkdaşlığının gücləndirilməsi baxımından məhsuldar olacaq.

P.Siyarto çıxışında Azərbaycanla Macarıstan arasında əməkdaşlığın qarşılıqlı hörmət və fayda üzərində qurulduğunu və bu əməkdaşlığın ən strateji sahələri əhatə etdiyini vurğulayıb.

S.Babayev və P.Siyarto Azərbaycan Hökuməti və Macarıstan Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın XI iclasının nəticələrinə dair protokolu, hər iki tərəfin aidiyyəti qurumlarının səlahiyyətli nümayəndələri isə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Macarıstanın Kənd Təsərrüfatı Nazirliyi arasında 2025-2027-ci illər üçün Fəaliyyət Planını, Azərbaycan Tibb Universiteti, Macarıstanın PECS Universiteti, "Scandens Pharmaceutıcals Industrıes LTD və "Pannonpharma" Anlaşma Memorandumu imzalayıblar.

Daha sonra həmsədrlər mətbuat nümayəndələrinin suallarını cavablandırıblar.

***XQ***

# Bəhreyn parlament heyəti Milli Məclisdə



**Sentyabrın 5-də Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev ölkəmizdə səfərdə olan Bəhreyn Krallığı Nümayəndələr Şurasının Baş katibi Məhəmməd İbrahim Alsisi Albuainayinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Söhbət zamanı Fərid Hacıyev qonaqların səfərinin parlament aparatları səviyyəsində münasibətlərin inkişafına töhfə verəcəyinə inamını bildirib. O, bu gün ölkələrimizin qanunvericilik orqanları arasındakı səmərəli əlaqələrdən söz açıb, Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyətinin əhəmiyyətini vurğulayıb.

Bəhreyn Krallığı Nümayəndələr Şurasının Baş katibi Məhəmməd İbrahim Alsisi Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib. O, iki ölkənin parlament aparatları arasında əməkdaşlığın vacibliyindən danışıb, qarşılıqlı təcrübə mübadiləsinin və mütəmadi səfərlərin əhəmiyyətini qeyd edib.

Söhbətdə parlament aparatları səviyyəsində müxtəlif istiqamətlərdə təcrübə mübadiləsi ilə bağlı fikir mübadiləsi aparılıb.

*

**Həmin gün Milli Məclisdə Azərbaycan–Bəhreyn parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə Bəhreyn Krallığı Nümayəndələr Şurasının Baş katibi Məhəmməd İbrahim Alsisi Albuainayın rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**

İşçi qrupun rəhbəri Sabir Hacıyev bildirib ki, ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli münasibətlərin təməlində dövlət başçılarının qarşılıqlı dostluq əlaqələri dayanır.

Söhbət zamanı Azərbaycan–Bəhreyn parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Məşhur Məmmədov və Ülviyyə Ağayeva çıxış edərək dövlətlərimiz arasında siyasi, iqtisadi, humanitar və mədəni sahələrdə münasibətlərin dinamik inkişaf etdiyini bildiriblər.

*

**Sonra Milli Məclis Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov və parlamentin bir sıra şöbələrinin rəhbərləri ölkəmizdə səfərdə olan Bəhreyn Krallığı Nümayəndələr Şurasının Baş katibi Məhəmməd İbrahim Alsisi Albuainayinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.**

Sonra qonaqları maraqlandıran suallar cavablandırılıb.

***XQ***

# İtaliyada Azərbaycan Mədəniyyəti Həftəsi







**Sentyabrın 1-dən 5-dək İtaliyanın Kassine şəhərində Azərbaycan Mədəniyyəti Həftəsi keçirilib. Mədəni marafonu "Sən1Sən" Beyin Mərkəzi XVII əsrə aid "Palazzo Mandrilli"də təşkil edib. Məqsəd ölkələrimiz arasında mədəni əlaqələrin gücləndirilməsinə və Azərbaycan incəsənətinin dost ölkədə daha geniş tanıdılmasına töhfə verməkdir.**

Mədəniyyət həftəsi ərzində Xalq rəssamı Arif Hüseynovun "Qırmızı rəngin əfsanələri", fotoqraf Aydın Mehdiyevin "Həyatın rəngləri" adlı fərdi sərgiləri, Azərbaycanlı rəssam və fotoqraflarının "Milli ruh", "Fəsillərdə Azərbaycan", Azərbaycan və İtaliya uşaqlarının "Balaca sehr" adlı sərgiləri təşkil edilib. 5 gün ərzində 200-dək rəsm və foto nümayiş etdirilib.

Həftənin tədbirlərində şəhərin meri, Kassine, Genoa, Milan, Turində yaşayan həmyerlilərimiz, incəsənətə maraq göstərən İtaliya vətəndaşları və xarici turistlər iştirak ediblər.

***XQ***

# Yeni geosiyasi platformanın konturları

(əvvəli 1-ci səhifədə)

Mövcud mənzərə fonunda sual ortaya çıxır: Bu üçlük hansı real gündəm əsasında möhkəmlənə bilər? Cavab kifayət qədər aydındır. Enerji və ərzaq təhlükəsizliyi kimi qlobal miqyasda kəskinləşən məsələlər, yeni nəqliyyat və logistika xətləri üzərində qurulacaq əməkdaşlıq, hərbi-texniki əlaqələrin dərinləşdirilməsi və beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək ehtiyacı Bakını, Minski və İslamabadı bir masa ətrafında toplayır. Başqa sözlə, ortada, sadəcə, protokol xarakterli görüntü deyil, real zərurətdən doğan maraqların kəsişməsi dayanır.

Bakı üçün Minsk və İslamabadla yeni dialoq müstəvisinin açılması Azərbaycanın regional siyasətində təbii məntiqin davamı kimi görünür. Azərbaycanın son illər qurduğu xarici siyasət xətti üç əsas dayağa söykənir: Enerji resurslarının ixracı, nəqliyyat qovşağı statusunun möhkəmləndirilməsi və geosiyasi balanslaşdırma. Məhz bu kontekstlərdə Belarus ilə iqtisadi tərəfdaşlıq, Pakistanla isə strateji müttəfiqlik üçtərəfli platforma üzərində öz aktuallığını qazanır.

Belarus Azərbaycanın Avropa ilə iqtisadi inteqrasiya imkanlarını genişləndirən mühüm tərəfdaş ola bilər. Sanksiyalar səbəbindən çıxış kanalları məhdudlaşan Minsk Bakının tranzit imkanlarından istifadə etməyə çalışarkən, Azərbaycan da bunun müqabilində Avropa bazarlarına əlavə giriş əldə edə bilər. Digər tərəfdən, Pakistanın iştirakı Bakı üçün daha geniş strateji dividendlər vəd edir. İslam dünyasında etibarlı mövqeyə malik, nüvə gücünə sahib bir dövlətlə tərəfdaşlıq Azərbaycanın beynəlxalq çəkisini artırır, eyni zamanda, Cənubi Asiyada yeni diplomatik dayaqlar yaradır.

Burada əsas məsələ ondan ibarətdir ki, Azərbaycan üçün bu format yalnız iqtisadi fayda gətirən mexanizm olacaq, yoxsa siyasi çəkisini gücləndirən daha geniş bir alətə çevriləcək? Cavab axtararkən görünür ki, qlobal ərzaq və enerji təhlükəsizliyi məsələlərinin kəskinləşdiyi bir vaxtda üçtərəfli koordinasiya Bakının beynəlxalq səhnədə reputasiyasını daha da gücləndirə bilər. Azərbaycanın həm enerji təchizatında sabitlik, həm də ərzaq təminatında yeni logistik modellər təklif etməsi ona, sadəcə, regional deyil, həm də qlobal oyunçu statusunu qazandırır.

*

Minskin strateji hesablamaları son illərin geosiyasi reallıqları ilə sıx bağlıdır. Qərbin ardıcıl sanksiya təzyiqləri Belarus iqtisadiyyatının ənənəvi çıxış yollarını kəskin məhdudlaşdırıb və Lukaşenko üçün yeni tərəfdaşların axtarışı artıq seçim deyil, zərurətə çevrilib. Belə bir şəraitdə həm siyasi etibarlılıq, həm də iqtisadi fayda gətirə biləcək iki istiqamət ön plana çıxır: Azərbaycanın tranzit imkanları və Pakistanın geniş istehlak bazarı.

Azərbaycanın Xəzər üzərindən formalaşdırdığı logistika kanalları Belarus üçün yalnız ixrac marşrutu deyil, eyni zamanda sanksiyaların yaratdığı blokadanı yarmaq üçün strateji pəncərədir. Digər tərəfdən, Pakistanın sürətlə böyüyən əhalisi və geniş bazarı Minskə istehsal potensialını reallaşdırmaq üçün əlverişli meydan təqdim edir. Burada söhbət yalnız mal mübadiləsindən getmir; Belarus öz texnologiyalarını və sənaye məhsullarını Cənubi Asiya bazarına çıxarmaqla qlobal rəqabətdə mövqeyini qismən də olsa bərpa edə bilər.





Bəs Belarus niyə məhz Bakı və İslamabadla koordinasiyanı önə çıxarır, halbuki başqa bazarlar da mövcuddur. Cavab aydındır: bu iki tərəf həm oxşar geosiyasi riskləri daşıyır, həm də Qərbin dominant təsirindən müəyyən dərəcədə kənarda hərəkət etmək imkanına malikdir. Başqa sözlə, Minsk üçün Bakı və İslamabadla əməkdaşlıq yalnız iqtisadi deyil, həm də siyasi təhlükəsizlik zonası yaradır ki, bu da Belarus diplomatiyasına öz manevr imkanlarını qoruyaraq balanslı şəkildə hərəkət etmək imkanı verir.

*

İslamabadın maraqları xüsusilə çoxşaxəlidir və bu üçtərəfli formatda onun əldə edə biləcəyi dividendlər kifayət qədər aydın görünür. Pakistan üçün Belarus ilk növbədə texnologiya və hərb sənayesi sahəsində tərəfdaş kimi əhəmiyyət daşıyır. Minsk uzun illərdir müdafiə sənayesi üzrə müxtəlif istiqamətlərdə təcrübə toplayıb və bu təcrübə İslamabad üçün silahlanmanın modernləşdirilməsi baxımından əhəmiyyətli mənbədir. Digər tərəfdən, Azərbaycan Pakistanla artıq möhkəm siyasi müttəfiqlik xətti qurub və enerji təminatında etibarlı tərəfdaş rolunda çıxış edir. Belə bir konfiqurasiya İslamabada həm regional güc statusunu möhkəmləndirmək, həm də iqtisadi şaxələnməni daha sürətlə həyata keçirmək imkanı yaradır.

Sual yaranır ki, Pakistan bu dialoqdan hansı konkret üstünlükləri əldə edə bilər? Cavab bir neçə istiqamətdə özünü göstərir. İlk növbədə, Belarusun təcrübəsi sayəsində İslamabad hərbi-texniki modernizasiyanı həyata keçirə bilər ki, bu da ona Hindistanla strateji rəqabətdə əlavə üstünlük qazandırar. Eyni zamanda, Azərbaycanın nəqliyyat və logistika imkanları Pakistanın Avrasiya məkanına çıxışını asanlaşdırır. Xəzər üzərindən keçən marşrutlar və Orta Dəhliz vasitəsilə Pakistan öz məhsullarını daha çevik şəkildə Avropa bazarlarına çıxara bilər. Bundan başqa, üçtərəfli koordinasiya ərzaq və enerji təhlükəsizliyi sahəsində də Pakistan üçün mühüm təminat rolunu oynayır. Azərbaycanın enerji resursları və Belarusun kənd təsərrüfatı potensialı İslamabadın artan daxili tələbatını qarşılamaqda əlavə dayaq nöqtəsi ola bilər. Beləliklə, Pakistan bu formatda təkcə iqtisadi qazanc əldə etmir, həm də özünü regional güc kimi təqdim etməyə yeni siyasi platforma qazanır.

*

İndi isə məsələyə daha geniş aspektdə baxaq. Qlobal kontekstdə Bakı–Minsk–İslamabad oxunun gündəmə gəlməsi, heç şübhəsiz, təsadüfi deyil. Dünyanın ərzaq böhranı, gübrə çatışmazlığı və enerji resursları ilə bağlı yaşadığı təlatümlər fonunda bu üçlüyün formalaşması bir növ təbii prosesin nəticəsi kimi görünür. Azərbaycanın nəqliyyat qovşağı rolunu getdikcə möhkəmləndirməsi, Belarusun kənd təsərrüfatı və sənaye potensialını qoruyaraq yeni bazarlara çıxış yolları axtarması, Pakistanın isə həm geniş istehlak bazarı, həm də hərbi-texniki əməkdaşlıq imkanları ilə bu sistemə qoşulması bir-birini tamamlayan elementlərdir.

Maraqlıdır, Bakı–Minsk–İslamabad üçlüyü qlobal geosiyasi oyun qaydalarına təsir göstərə bilərmi? Cavab birmənalı şəkildə "bəli" olsa da, bu təsirin xarakteri lokal olacaq. Onlar qlobal güclərin diktəsini dəyişməyə yetəcək potensiala malik deyillər, amma öz regionlarında alternativ əməkdaşlıq modelləri formalaşdıraraq, həm iqtisadi, həm də siyasi balans yarada bilərlər. Məsələ ondadır ki, beynəlxalq münasibətlər sistemində hər böyük gücün qarşısında birbaşa meydan oxumaq mümkün olmasa da, "orta güclərin" yaratdığı bu tipli ittifaqlar mövcud qaydaların işləmə mexanizmini dəyişdirə, ən azı, fərqli variantlar ortaya qoya bilər.

Nəticə etibarilə, Bakı–Minsk–İslamabad dialoqu hələ formal mexanizmə çevrilməyib, amma konturları kifayət qədər aydın görünür. Burada iqtisadi şaxələnmədən tutmuş ərzaq və enerji təhlükəsizliyi məsələlərinə, hərbi-texniki əməkdaşlıqdan beynəlxalq platformalarda qarşılıqlı dəstəyə qədər geniş gündəm mövcuddur. Azərbaycan üçün bu format yeni diplomatik körpü, Belarus üçün sanksiyalar dalğasında nəfəs yeri, Pakistan üçün isə yüksələn regional güc statusunu möhkəmləndirən sütun rolunu oynaya bilər.

Bakı–Minsk–İslamabad əməkdaşlığı regionda alternativ geosiyasi platforma rolunu oynaya biləcək strateji xəttə çevrilə biləcəkmi sualına isə cavab olaraq qeyd edə bilərik ki, mövcud dinamika və ortaq maraqlar, üçtərəfli dialoqun gələcəkdə regionda təsir mexanizmi yarada biləcək real bir platformaya çevrilmək potensialına malik olduğunu göstərir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Rasputindən Zatulinə

(əvvəli 1-ci səhifədə)

Bəli, Zatulinin şovinistliyi heç kəsə sirr deyil. Təsəvvür edin, bu xislət daşıyıcısı 2019-cu ildən Dövlət Dumasının miqrasiya və vətəndaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi postunu da tutur. El arasında deyildiyi kimi, quzunu qurda tapşırmaq budur. Deməli, Rusiyanın ayrı-ayrı rəsmilərinin ölkələrində dövlət səviyyəsində etniklərin hüquqlarının qorunmasından, onların imtiyazlarından danışmaları tam mənasızdır. Axı ortada Zatulinin çirkin neonasist obrazı var. Amma bu, hələ son deyil. Çünki Rusiyada tam bir "zatulinlik" hökm sürməkdədir.

Əminliklə deyə bilərik ki, hazırkı Rusiya Zatulin Rusiyasıdır. Eynilə Rasputin Rusiyası kimi. Bu arada "Rasputin Rusiyası" anlayışı dövlət idarəçiliyində korrupsiyanın və bacarıqsızlığın adi hal alması, təsadüfi adamların, elə Rasputinin özü kimi yerdənbitmə avantürist fiqurların təsirinin güclənməsi ilə assosiasiya olunur. Nəzərə alaq ki, sıravi Sibir kəndliliyindən pravoslav mistikliyə kimi qalxmış, hakim sülalə təmsilçilərinin qılığına girməyi bacarmış Qriqori Rasputin XIX əsrin sonu – XX əsrin əvvəllərinin Rusiyasında həm saray daxilində, həm də cəmiyyət arasında nifrət obyektinə çevrilmişdi. Onu fəaliyyəti imperiyanın zəifləməsinə, monarxiyanın nüfuzdan düşməsinə gətirib çıxarmışdı. Müvafiq olaraq, "Rasputin Rusiyası" anlayışı həm də çar ailəsinin zəifliyi, aristokratiyanın çürüməsi və çarizmin böhranı kimi də xarakterizə olunur. Güman edirik, "Zatulin Rusiyası" anlayışının nəzəri baxımdan izahı üçün əlavə şərhə ehtiyac yoxdur.

Rusiyada zatulinlərin sayı kifayət qədər çoxdur və hazırda dünyanın ərazicə ən böyük məmləkəti, sanki, belələrinin çiyinlərində qərarlaşıb. Həqiqətən, çox acı durumdur. Acı durum özünü K.Zatulinin "Lenta.ru"ya müsahəsində dediklərində də göstərməkdədir. O, özünün inkişafdan qalmış, yalnız fitnə və təxribat təmayülünü saxlamış siyasi təfəkkürünün ənənəvi anti-Azərbaycan mahiyyəti üzrə bir neçə məqama diqqət yetirib. Daha doğrusu, bilavasitə Rusiyanı qıcıqlandıran cəhətlərə nəzər salıb. Deputat bildirib ki, Azərbaycan öz istiqaməti ilə gedir. Belə çıxır ki, ölkəmiz müstəqil siyasi xətt yeritməməli imiş.

...Zatulin Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsini təcavüz qismində qiymətləndirib və əlavə edib ki, rəsmi Bakı kursunu 2023-cü ildən sonra ortaya qoydu. Onun sözlərinə görə, Azərbaycan Ermənistana qeyri-milli qüvvələrin rəhbərliyindən yararlanaraq, Türkiyənin köməyi ilə planlarını gerçəkləşdirdir. Guya, ölkəmiz həmin vaxt Kremllə əməkdaşlığa ehtiyac duyurmuş: "Lakin Bakının planları reallaşan kimi, Rusiya ilə əlaqələrin zərurəti aradan qalxdı".

Ruslarda bir ifadə var: "Каждый судит в меру своей испорченности". Azərbaycan dilinə tərcümədə "hər kəs özünün korlanmışlıq (pozğunluq) dərəcəsinə görə mühakimə edir" kimi səslənir. İndi Zatulin hadisə və proseslərə özünün siyasi pozğunluq pəncərəsindən baxaraq sübut edir ki, dəyər və prinsiplər onun üçün hansısa əhəmiyyət daşımır. Problem ondadır ki, Rusiyanın ictimai rəyində təmsil olunanların bir çoxu da məhz Zatulin kimi düşünür. Belələri əsl mahiyyəti kənara qoyub aşkar manipulyasiya yolu tuturlar.

Əsl mahiyyət ondadır ki, ötən ilin dekabrında Rusiya səmasında "Azərbaycan Hava Yolları"na məxsus təyyarəyə atəş açılıb. Nəticədə hava gəmimiz hərəkətini itirib və qəza enişi edib. Eniş peşəkarlıq nöqteyi-nəzərdən uğurlu sayılsa da, göyərtədəki 70-ə yaxın sərnişindən 40-a qədəri həyatını itirib. Azərbaycanın tələbi budur ki, amansız hadisəni törədənlər məsuliyyətə cəlb olunsunlar. Rusiya isə..

Əslində, Rusiya ölkəmiz tələb səsləndirməzdən əvvəl hərəkətə keçməli, dost ölkə sayılan Azərbaycanın sərnişin təyyarəsinə atəş açanları cəzalandırmalı, ümumən üzərinə düşən məsuliyyəti yerinə yetirməli idi. Amma bunu yox, olayı pərdələmək cəhdlərini gördük. Azərbaycanın Rusiyaya münasibətində soyuqluq məhz belə cəhdlərdən sonra başlandı. Rəsmi Moskvaya bağlı ayrı-ayrı dairələrin, o cümlədən Zatulinin "Azərbaycan təyyarə olayını Rusiya ilə münasibətləri korlamaq üçün istifadə edir" şəklində fikir bildirməsi isə odun üstünə benzin tökmək effekti yaratdı.

Sual yaranır: Təyyarəmizə atəş açanların məqsədi nə idi? Hər halda, atəş Azərbaycan səmasındakı Rusiyaya məxsus hava gəmisinə deyil, Rusiya səmasında hərəkət edən Azərbaycan təyyarəsinə açılıb. Zatulinin diqqətə çatdırdığımız məntiqinə söykənsək, deyə bilərik ki, Rusiyada ölkəmizlə münasibətləri korlamaq istəyənlər "fəaliyyətdədirlər" və təyyarəmizə atəş açmaq əmrini məhz onlar veriblər.

Ən başlıcası, rəsmi Moskva bu yolu tutanları cəzalandırmırsa, üstəlik, hadisəni törədənlərin qorunduğuna dair təəssürat varsa, daha bir nəticə budur ki, hər şeyi planlaşdıran məhz Kremldir. Deməli, sonradan Zatulin və onun kimi sərsəmlərin meydana atılıb ölkəmizə qarşı hədyanlar yağdırmaları da düşünülmüş gediş imiş. Çünki Rusiya rəhbərliyindəkilər "A" planının nəyəsə yaramayacağının fərqinə varıblar. "A" planına gəlincə, bu, təyyarənin göydə quşlarla toqquşması, göyərtədə qaz balonunun partlaması və sair cəfəngiyyatlar idi.

Zatulin və digərlərinin qəsdən diqqət yetirmədikləri əsl mahiyyət həm də budur ki, Azərbaycan tərəfi Rusiya ilə münasibətlərin normallaşması üçün təyyarə olayına düzgün hüquqi qiymətin verilməsinin vacibliyini dəfələrlə açıqlayıb. Bu məqam, hətta, Vaşinqtonda da vurğulandı. Ona görə orada vurğulandı ki, Rusiyada kimlərsə Azərbaycan Prezidentinin ABŞ-a işgüzar səfərini, eləcə də Birləşmiş Ştatlar Prezidenti Donald Trampla səmimi münasibətlərini, həmçinin, Ağ Ev rəhbərinin şahidliyi ilə Bakı–İrəvan sülhünün paraflanmasını ölkəmizin Rusiyadan üz döndərməsi qismində qiymətləndirməsinlər. Amma Zatulin ağzına gələni danışırsa və bu məxluqun səsi daha ucadan eşidilirsə, tam əminliklə demək olar ki, Rusiyada normal düşüncənin cəmiyyətdə hakimliyi müstəvisində ciddi problemlər yaşanmaqdadır.



Zatulin anormal düşüncəsini işə salaraq onu da bildirib ki, Azərbaycanın Ermənistana təzyiqlər göstərməsi, Zəngəzur dəhlizi təşəbbüsünü irəli sürməsi, amerikalıları, israilliləri və digərlərini regiona cəlb etməsi Rusiyanın maraqlarına tərs mütənasibdir. Görəsən, Zatulin 2023-cü ilin əvvəlində Avropa İttifaqının mülki müşahidə missiyası Ermənistanda yerləşdiriləndə niyə "regionda kənar oyunçular" məntiqini işə salmırdı? Çünki adam Rusiyadakı erməni lobbi və diaspor təşkilatlarının arxasında maliyyənin dayandığı direktivlərinə möhtacdır. O lobbi və diaspor ki, böyük ölçüdə Kremllə bağlıdır, həm Azərbaycana, həm də Ermənistan hakimiyyətinə qarşı zidd mövqedədir.

Zatulinin təxribatçı məntiqində daha bir cəhət özünü Azərbaycan–Türkiyə müttəfiqliyinə münasibətdə göstərməkdədir. Ermənipərəst deputat bu müttəfiqliyin, eyni zamanda, böyük Turan mahiyyətinin olduğunu vurğulayıb və onun sözlərindən gəlinən nəticəyə görə, Bakı Ankara ilə birgə Rusiya daxilindəki türkdilli regionlarda aranı qarışdırmaq, həmçinin Mərkəzi Asiya ölkələrini anti-Kreml əhval-ruhiyyəsinə kökləmək niyyətindədir.

Göründüyü kimi, Zatulinin azərbaycanfobiyası pik həddə çatıb. O qədər pik həddə ki, komitə sədrinin müavini hər cür cəfəngiyyatı siyasi düşüncə kimi sırımağa çalışır. Məsələn, o, Mərkəzi Asiya respublikalarının müstəqil dövlət statuslarını nəzərə almır. Rusiyanın türk birliklərinə gəlincə, Zatulin ölkəsinin ictimai fikrinə hakim kəsilmiş millətçiliyə və şovinizə, başqa xalqların nümayəndələrinə qarşı ayrıseçkiliyə baxmalıdır və nəzərə almalıdır ki, bu ayrıseçkilik artıq normaya çevrilib. Vaxtilə keçmiş SSRİ, ondan əvvəl çar Rusiyası eyni xətti yürüdürdü və hazırda onların tarixin hansı bataqlığına gömüldüyü məlumdur. Zatulin və onun kimilərin hərəkət və davranışlarına korrektə etmələri həm də Rusiyanın eyni aqibətdən qurtulmasının şərtidir. Hərçənd, ölkədə bunu düşünənlərin sırası olduqca seyrəkdir.

Digər tərəfdən, siyasi konspirologiyanı işə salan Zatulin, öz aləmində, İranı da Azərbaycana qarşı qaldırır. "Məndə çox aydın təəssürat var ki, Azərbaycan əhalisinin əhəmiyyətli hissəsini azərbaycanlıların təşkil etdiyi İran İslam Respublikasında sabitliyi pozmağa cəhd etmək üçün İrana qarşı bəzi sui-qəsdlərdə iştiraka hazırdır", – deyən əbləh deputat Bakının Birləşmiş Ştatlar və İsraillə müttəfiqliyinin Tehrana qarşı yönəldiyinə dair sərsəm mesaj verməyi də yaddan çıxarmayıb.

Heç şübhəsiz, Zatulin fikirləri ilə anti-Azərbaycan ritorikasını geniş götürdüyünü sanır. Halbuki, cılızlıq edir, bu adamın dilə gətirdikləri real siyasətdən uzaq fantaziyalardır. Ən böyük problem isə odur ki, hazırda Rusiya dövləti də keçmişin stereotiplərinə xas belə fantaziya mahiyyətli düşüncələrlə idarə olunur. Bu düşüncədə dünyaya yalnız makaronun dar dəliyindən baxış var. O dəlik ki, ondan ətraf yalnız bir trayektoriya üzrə görünür. Yekun nəticədə bu gün Rusiya üçün ya düşmən var, ya da kölə. Ölkənin, həqiqi dostu və müttəfiqi yoxdur. Rusiya başqa dövlətin dostluğunu və müttəfiqliyini özünə yaraşdırmır. Çində Şanxay Əməkdaşlıq Təşkilatının 25-ci zirvə toplantısında Prezident Vladimir Putinə münasibət isə ölkənin özünü hamıdan yüksəkdə görməsinin doğurduğu miskin mənzərənin yalnız bir səhnəsidir. Axı çox istəyən azdan da olur.

Birmənalı şəkildə demək olar ki, Rusiyanın düşdüyü hazırkı xoşagəlməz durumun kökündə həm də Zatulin kimi avantüristlərin, şəxsi mənafe hərisləri olan çaqqalların yuxarı başa çıxarılması dayanır. Özünü ağıllı sayan K.Zatulin isə "Lenta.ru"ya ölkəsinin Azərbaycanla münasibətlərini şərh edərkən, "pis sülh müharibədən yaxşıdır" fikrini də dilə gətirib və bir növ, minnət qoyub: "Amma bu, o demək deyil ki, Moskva əməkdaşlığın dərinləşdirilməsini düşünməlidir".

Sonda onu da bildirək ki, dövlətlərarası əməkdaşlıq və münasibətlər təbii maraqlardan, ixtilafların və mübahisələrin miqyasının nə dərəcə geniş götürülülməsindən asılıdır. Məsələn, Ermənistan vaxtilə Azərbaycan torpaqlarını işğal etdiyi üçün onunla heç bir şəkildə əməkdaşlıq mümkün deyildi. Yəni Bakı və İrəvan arasında təbii maraq ola bilməzdi. Hazırda isə ölkəmizlə münasibətləri korlayan, üstəlik düzəltməyə çalışmayan tərəf məhz Rusiyadır. Zatulinlərin dilə gətirdiyi anti-Azərbaycan mahiyyətli fikirlər mahiyyətcə pis sülhü müharibəyə çevirmək perspektivini hədəf seçir. Kremlə bu lazımdırmı? Lazımdırsa, özünün siyasi parniklərindəki digər zatulinlərin də zəncirini açsın və Moskvada yaddan çıxarmasınlar ki, Azərbaycanın siyasi əbləhlərin dili ilə ifadə olunan şantajlardan çəkinəcəyi yoxdur və olmayıb.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Qatarı gözləmək, yoxsa ona bilet almaq?

## *Mühafizəkar qanad Zəngəzur dəhlizi ilə bağlı ikili siyasətlə İranı məngənəyə salır*

**Siyasi coğrafiyanın ironiyası ondadır ki, xəritədə çəkilən xətlər bəzən psixoloji səddə çevrilir. Bu gün Tehran da eyni sindromu yaşayır: "Tramp marşrutu" (TRIPP – Trump Regional Integration and Peace Pathway) xəbəri yayılan kimi İranın siyasi dairələrində yeni xof başladı. Amma bu narahatlıq real təhlükədən deyil, illərlə qorunan imtiyazların itirilmə qorxusundan doğur. Tehrandakı sağçı siyasi çevrələr qələmi kənara qoyub həyəcan təbili çalırlar. Halbuki dövlət səviyyəsində bu qədər təşvişə səbəb olacaq ciddi əsas yoxdur.**




İranın nüfuzlu "Tabnak" nəşri yazır ki, Moskva iyunda İran–İsrail müharibəsində real müdafiə göstərməyib. Mühafizəkar dairələr bunu hətta "xəyanət" kimi qələmə verir və indi də TRIPP-i həmin məyusluğun davamı sayırlar. Çünki yeni dəhliz onilliklərdir əllərində saxladıqları "Bakı–Naxçıvan tranzit kartını" sıradan çıxarır. Əslində, ciddi analiz göstərir ki, bu, təbii iqtisadi prosesdir: Azərbaycan və Türkiyə yeni logistik alternativlər axtarır, ABŞ isə bölgədə infrastruktur layihələrinə siyasi dəstək verir. Yəni, burada məqsəd İranı təcrid etmək yox, illərlə ləngimiş yol xəritəsini canlandırmaqdır.

Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı İranda iki əks mövqe formalaşıb. İran Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Laricani avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında nəqliyyat dəhlizinə dair əldə olunmuş razılaşmaya münasibət bildirərək qeyd edib ki, "bu yolun açılması İran üçün təhlükə yaratmaya bilər". O əlavə edib ki, rəsmi İrəvanın Tehrana çatdırdığı məlumata əsasən, sözügedən dəhliz İran–Ermənistan yolunu bağlamaq niyyəti daşımır. İran Prezidenti Məsud Pezeşkian da ilk dəfə Zəngəzur dəhlizi ilə bağlı mövqeyini açıq şəkildə ifadə edərkən bildirmişdi ki, məsələ xəbərlərdə təqdim olunduğu qədər şişirdilmiş deyil və Tehran üçün əsas olan ölkənin ərazi bütövlüyü ilə bağlı tələblər təmin olunub.

Lakin digər tərəfdən İranın bəzi rəsmiləri körpünün başqa tərəfində dayanmağa səy göstərirlər. Bunlardan biri ali rəhbərin müşaviri Əli Əkbər Vilayətidir. O, tez-tez çıxışlarında dəhlizin açılmasını İran üçün təhlükə hesab etdiyini bildirib. Vilayəti, həmçinin deyib ki, Zəngəzur yolu ilə bağlı açıqlamasında təmsil etdiyi hakimiyyət "özünün və regionun maraqlarına biganə" qalmayacaq. Vaşinqton görüşündən sonra TRIPP-in 99 illiyə xarici şirkətə icarəyə veriləcəyi barədə xəbərlər yayıldı. Lakin hələ ortada heç bir rəsmi sənəd yoxdur, sadəcə, növbəti günlərdə ABŞ-dan olan nümayəndələr Zəngəzur dəhlizinin detallarını müzakirə etmək üçün Ermənistana səfər edəcəklər. Lakin bu da öz növbəsində Tehran üçün risk daşımaq deyil, iqtisadi məsələlərin müzakirəsinə hesablanıb. Zəngəzur yolu İranın nəzarətində olan ərazilərin statusunu dəyişmir və regionda hər hansı bir "xarici icarə" ssenarisi mühafizəkar çevrələrin spekulyasiyalarından ibarətdir.

İran Araz dəhlizini regiona alternativ marşrut kimi təqdim edir, lakin bu təşəbbüs Zəngəzur dəhlizinin yerini tutmaq imkanına malik deyil. Əsas səbəb onun beynəlxalq hüquq və siyasət məkanında mövcud məhdudiyyətlərdir: həm ABŞ, həm də Qərb İran üzərindən sanksiyaları qaldırmayıb. Bu isə Tehranı qlobal nəqliyyat və iqtisadi layihələrdən kənar qoyur. Nəticədə, İranın dəhliz təşəbbüsü yalnız regional və məhdud təsirə malik ola bilər, qlobal tranzit sisteminin ayrılmaz hissəsi statusunu qazana bilməz. Araz dəhlizi yalnız lokal tranzit rolunu oynasa da, qlobal layihələrdə İranın rolu məhdud qalacaq və Tehran bu təşəbbüsü ilə uğur qazanmaqda çətinlik çəkəcək. Bu vəziyyət İranın regional ambisiyalarının beynəlxalq reallıqlarla toqquşduğunu göstərir.

İİR isteblişmentindəki mühafizəkarların əsəblərini tarıma çəkən digər məqam Moskvanın TRIPP-ə açıq şəkildə qarşı çıxmaması, hətta dövlət səviyyəsində dəstək verməsidir. Amma Kreml üçün məsələnin başqa tərəfi var. Moskva bölgədə Türkiyə ilə əməkdaşlığı önəmli sayır və mühafizəkarların gözlədiyi kimi, onun hər dəfə Tehranın siyasi xəritəsini müdafiə etmək öhdəliyi yoxdur. Burada siyasi ironiya var: mühafizəkarlar yeni reallığı "təhlükə" kimi qələmə verərək, əslində, İranın xarici siyasətini daha çətin vəziyyətə salırlar.

Mühafizəkarların yeni təskinlik ünvanı Ermənistan oldu. Prezident Məsud Pezeşkiyanın İrəvana səfəri, Paşinyanla imzalanan 10-dan çox sənəd bu dairələrdə "alternativ marşrut" kimi təqdim edildi. Lakin hamı yaxşı bilir ki, Ermənistan artıq Qərblə yaxınlaşma yolundadır. Paşinyan balansı qorumağa çalışsa da, Vaşinqtonun dəstəyini itirməmək üçün Tehrana yalnız məhdud jestlər edə bilər. Başqa sözlə, mühafizəkarların "ümid qapısı" o qədər də geniş deyil.

Radikalları təmsil edən şərhçilər TRIPP-i ABŞ və NATO-nun bölgədəki təsirinin artması kimi qələmə verirlər. Halbuki, dövlət səviyyəsində daha rasionallıqla yanaşıldıqda aydın görünür ki, TRIPP bölgə üçün iqtisadi açılımdır, heç kimin sərhədlərini pozmur. Əslində, İran dövləti üçün bu layihədə təhdid yox, yeni imkanlar var. Regionun tranzit xəritəsinə inteqrasiya etmək, dəhlizlərin yaratdığı bazarlardan pay almaq mümkündür. Narahat olan daha çox mühafizəkar dairələrdir. Onlar "geosiyasi status-kvo"nu itirmək qorxusu ilə bu layihəni fəlakət kimi görürlər.

TRIPP İranı iqtisadi blokadaya almır, sadəcə, yeni logistik reallıq yaradır. Dövlət səviyyəsində Tehran bu reallığa adaptasiya edə bilər, amma hakimiyyətdaxili mühafizəkar xətt nümayəndələrinin ritorikası həmin imkanları kölgədə qoyur. TRIPP İran üçün qapını bağlamır, əksinə, açır. Sadəcə, mühafizəkar qanadın nümayəndələri dəhlizin kənarında durub ötüb keçəcək qatara baxmağın əvəzinə, ona bilet almağa tələsməlidirlər.

***Tacir SADIQOV***
***XQ***

### Ekspert rəyi



**Qafar ÇAXMAQLI,**
**Erciyes Universitetinin professoru, ermənişünas alim**

Azərbaycanın qərb bölgələrindən Naxçıvana uzanan dəhliz məsələsi gündəmə gələn andan etibarən İran müxtəlif apektlərdə bu mövzuya münasibət bildirib. Lakin təəssüf ki, bu fikirlərin əksəriyyəti müsbət olmayıb. Əslində, reallıq ondan ibarətdir ki, Zəngəzur dəhlizinin açılması İranın sərhədlərinə heç bir təhdid yaratmır. Əksinə, İranın Ermənistandakı sərhədi açıq qala bilər və bu dəhliz həmin sərhədə heç bir təsir göstərmir.

Sadəcə olaraq, İranda bəzi qüvvələr bu məsələni bəhanə edərək Azərbaycana qarşı mənfi mövqelərini nümayiş etdirirlər. Azərbaycan və Türkiyənin Türküstana bağlanması həm iqtisadi, həm siyasi baxımdan güclənməsi deməkdir və İran bundan narahat olur. Ona görə də müxtəlif bəhanələrlə prosesin qarşısını almağa çalışır.

Bununla belə, artıq İranda bəzi dairələr anlayırlar ki, bu dəhlizin reallaşması onların milli və iqtisadi maraqlarına zidd deyil. Əksinə, bu, Tehranın öz iqtisadi potensialının genişlənməsinə xidmət edə bilər. Tranzit xəritəsinə nəzər salsaq, İran da bu marşrutdan istifadə imkanı qazana bilər. Gələcəkdə isə İran rəhbərliyi müəyyən qədər praqmatik yanaşaraq mövqeyini tamamilə müsbət istiqamətə dəyişdirə bilər. Azərbaycan isə artıq öz qərarını verib. "Zəngəzur dəhlizi" adlanan bu yolun reallaşması prosesinə start verilib və onun qarşısını ala biləcək heç bir güc yoxdur. İranda bu həqiqəti anlayanların sayı gündən-günə artır.

---

# Qaregin Qarabağ həqiqətlərini qəbul etmir

## *Katolikos dünya kilsələrini köməyə çağırmaqla ölkəmizə qarşı dini cəbhə açmaq istəyir*

**Erməni Apostol Kilsəsinin keçmiş Ermənistan–Azərbaycan münaqişəsinin başlanmasında, iki xalq arasında milli zəmində ədavət, düşmənçilik salınmasında mühüm rol oynadığı heç kimdə şübhə doğurmayan tarixi reallıqdır. Kilsə daim erməni xalqını müsəlmanlarla, əsasən azərbaycanlılar və türklərlə qarşıdurmaya sövq edib. Erməni din xadimlərinin fəaliyyəti din adına ləkə olmaqla daim məkrli siyasi məqsədlərə xidmət edib.**

Onların bu fəaliyyətləri daha əvvələ gedib çıxır. Hələ XIX əsrin sonlarından başlayaraq kilsə tribunasından verilən bəyanatlar, keşişlərin yaydıqları nifrət dolu fikirlər ermənilərin radikal millətçi dairələrinə azərbaycanlılara hücumlar üçün ideoloji zəmin hazırlayıb. XX əsrin əvvəllərində baş verən kütləvi iğtişaşlar, silahlı toqquşmalar, həmçinin sovet dövründə millətçi qrupların gizli şəkildə dəstəklənməsi bu fəaliyyətin davamıdır.

Kilsənin və keşişlərin bu fəaliyyətinin erməni xalqını bəlalara düçar etməsinə baxmayaraq, onlar yenə də öz əməllərindən qalmırlar. Erməni Apostol Kilsəsi bu gün Ermənistanda hökumətin sülh gündəminə dəstək vermək, öz ölkələrində və bütövlükdə, bölgədə sülh və sabitliyin bərqərar olmasına töhfə vermək əvəzinə radikal revanşist kəsimlə eyni sırada dayanır. Bütün ermənilərin partiarxı, katolikos II Qaregin Birinci və İkinci Qarabağ müharibələri zamanı işğalçı ordunun əsgərlərinə verdiyi xeyir-duanı bu gün revanşistlərə verməkdədir. Onun fəaliyyətinin digər istiqaməti Azərbaycanı ləkələməyə çalışmaqdan, qara yaxmaqdan ibarətdir. Katolikos dünyanın harasına gedirsə, kiminlə görüşürsə, yaxud Ermənistanda kimi qəbul edirsə, hansı yerli və beynəlxalq tədbirdə çıxış edirsə, orada Azərbaycanın ünvanına böhtanlar yağdırır. Onun bugünlərdə Eçmiədzindəki kilsə iqamətgahında I Nikey Kilsə Məclisinin 1700 illiyinə həsr olunmuş beynəlxalq konfransdakı çıxışı da bu baxımdan istisnalıq təşkil etməyib.

Məlumat üçün bildirək ki, I Nikeya Kilsə Məclisi eramızın 325-ci ilində Roma imperatoru I Konstantin tərəfindən çağırılan yığıncaqdır. Yığıncaq Nikeya şəhərində (hazırda Türkiyənin Bursa vilayətinin İznik şəhəri–S.H.) keçirilib və xristianlıq tarixində ilk kilsə məclisi olub. Həmin yığıncaqda xristianlıq imperator Konstantinin rəhbərliyi ilə dövlət dini kimi qəbul edilib.

Həmin hadisənin 1700-cü ildönümünə həsr olunmuş beynəlxalq konfransda çıxışı zamanı II Qaregin iddia edib ki, guya, bu gün "Dağlıq Qarabağda" erməni mədəni-dini irsi (?), abidələr, çoxəsrlik ziyarətgahlar dağıdılır. Dünyanın müxtəlif yerlərindən olan xristian konfessiyalarının nümayəndələrinin iştirak etdikləri konfransda II Qaregin digər iddiası "Azərbaycanın Qarabağa təcavüz etməsi, bunun ağır nəticələrinin hələ də hiss olunması" ilə bağlı olub. O, əvvəlki ritorikasına sadiq qalaraq bölgədə "etnik təmizləmə" (?) həyata keçirildiyini, bunun nəticəsində "100 mindən çox şəxsin doğma evlərindən məhrum olduğunu" bildirib. Bundan başqa, o diqqəti separatçı qlavarların həbsinə yönəldib. Deyib ki, "Qarabağ liderləri və digər əsirlər" hələ də Bakı həbsxanalarındadır.

Katolikos belə acınacaqlı mənzərə fonunda bütün dünyada kilsələrin konsolidasiyasının və əməkdaşlığının imperativə çevrildiyini vurğulayıb. O, dünyadakı kilsələri bugünkü təhdidlər və çağırışlar fonunda (?) səylərini birləşdirməyə çağırıb. Deyib ki, kilsələr arasında birlik və səmərəli qarşılıqlı fəaliyyətlə "yeni faciələrin" qarşısını almaq olar.

*

Qeyd etmək lazımdır ki, bütün ermənilərin katolikosu son illərdəki çıxışları ilə dini rəhbərdən daha çox ekstremist siyasətçilərə bənzəyir. Onun istər Qarabağ məsələsində, istərsə də Azərbaycanın beynəlxalq imicinə qarşı apardığı təbliğat açıq şəkildə göstərir ki, Eçmiədzin çoxdan dini mərkəz olmaqdan çıxaraq revanşizm ocağına çevrilib. Tarixən insanları mənəvi dəyərlərə, ədalət və sülhə səsləməli olan kilsə bu gün II Qareginin timsalında bunun əksini nümayiş etdirir.

Katolikosun sözügedən beynəlxalq konfransda səsləndirdiyi fikirlər də eyni xəttin davamıdır. O, Azərbaycanın ünvanına müxtəlif uydurmalar səsləndirərək sanki dini zəmində yeni ittifaqlar formalaşdırmaq istəyir. Guya, Qarabağda erməni abidələri dağıdılır, guya, Azərbaycan "etnik təmizləmə" aparıb, guya, hansısa "liderlər" əsir saxlanılır. Halbuki bu iddiaların heç biri reallığa söykənmir. Azərbaycanın Qarabağda apardığı bərpa və yenidənqurma işləri bütün dünyanın gözü qarşısındadır. Yüzlərlə yeni yaşayış məntəqəsi salınır, dağıdılmış məscidlər bərpa edilir, eyni zamanda, yeniləri inşa olunur. Həmçinin Şuşadakı kilsə də qorunur. Bu həqiqətləri gizlətməyə çalışan II Qaregin tarixi faktlardan çox siyasi sifarişlərlə danışır.



Maraqlıdır ki, katolikos öz çıxışında Qarabağın separatçı başçılarını "liderlər" adlandıraraq onların saxlanılmasını "əsirlik" kimi qələmə verir. Bu, dini rəhbərin üslubu deyil, açıq siyasi çağırışdır. II Qaregin Ermənistanda revanşist dairələrin sözlərini sanki kilsə tribunası vasitəsilə dünya ictimaiyyətinə ötürür. Beləliklə, kilsənin missiyası ilə siyasətin bir-birinə qarışdırılması açıq görünür. Əslində isə bu, həm də erməni xalqı üçün təhlükəlidir. Çünki Qareginin mövqeyi onları reallıqdan uzaqlaşdırır, regionda yaranmış yeni tarixi şəraiti qəbul etmələrinə mane olur.

Tarixə nəzər saldıqda görürük ki, erməni kilsəsi dəfələrlə bu cür siyasət yürüdüb. Girişdə qeyd etdiyimiz kimi, hələ XIX əsrdə çar Rusiyası ilə əməkdaşlıq edən kilsə Qafqazda etnik qarşıdurmaların dərinləşməsində fəal rol oynayıb. XX əsrdə də eyni addımlar təkrarlanıb. İndi isə II Qaregin həmin ənənəni davam etdirərək Ermənistanın məğlubiyyətini etiraf etmək əvəzinə, kilsə kürsüsündən bəhanələr uydurur. Amma dünyada heç kim 30 ilə yaxın Azərbaycanın torpaqlarının işğal altında saxlanıldığı, yüz minlərlə azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyi reallığı unutmayıb. Qareginin yalanları bu həqiqətlərin qarşısında duruş gətirə bilməz. Əksinə, onun mövqeyi kilsənin olan-qalan nüfuzunu zədələyir, dini liderlərin sülhə töhfə vermək imkanlarını məhv edir. Hər bir kilsə rəhbəri barış, qarşılıqlı hörmət, qonşuluq münasibətləri haqda danışmalı olduğu halda, II Qaregin düşmənçilik toxumu səpir.

Nəticə etibarilə II Qareginin fəaliyyəti həm Ermənistanın gələcəyinə, həm də erməni xalqının özünə zərbə vurur. Azərbaycan isə işğaldan azad edilmiş ərazilərdə bərpa işləri aparır, regionda dayanıqlı sülh üçün diplomatik təşəbbüslər irəli sürür. Katolikosun bütün cəhdlərinə baxmayaraq, bu reallığı dəyişmək mümkün deyil. Tarix də sübut edib ki, xəyallara söykənən siyasət heç vaxt uğur gətirə bilməz.



**Mövzu ilə bağlı fikirlərini öyrəndiyimiz politoloq İlyas Hüseynov bildirdi ki,** iki ölkə arasında münaqişə dövründə Erməni Apostol Kilsəsi hər zaman qızışdırıcı mövqedən çıxış edib. Onun sözlərinə görə, kilsə indi də köhnə düşüncə və təfəkkürlə hərəkət edir: "Kilsə bu gün də Cənubi Qafqazda yeni müharibə axtarışındadır. II Qareginin çıxışı və mövqeyi onu deməyə əsas verir ki, o, anti-sülh səylərini artırır, təhlükəsizlik, sabitlik əleyhinə fikirlərini daha da dərinləşdirir. Onun çıxışında bir sıra qəbuledilməz fikirlər var. Birincisi, Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur. Eyni zamanda, Qarabağ ermənilərinin hüquqlarının pozulması, eləcə də azad edilmiş ərazilərdə xristian irsinin dağıdılması kimi fikirlər tamamilə absurddur və həqiqətdən uzaqdır. Xüsusilə, vurğulamaq istərdim ki, II Qaregin bu cür yanaşmaları ilə erməni xalqını uçuruma aparır. Elə buna görə də Ermənistanın Baş naziri Nikol Paşinyan ona qarşı siyasi müqavimət formalaşdırır. O, çox yaxşı başa düşür ki, katolikos və onun ətrafındakı şəxslər yeni müharibə axtarışındadırlar və qondarma "Artsax" fikrini Ermənistanın daxili auditoriyasına, siyasi düşüncəsinə daşımağa çalışırlar. Hesab edirəm ki, Ermənistanda "Dağlıq Qarabağ", yaxud "Artsax"la bağlı daha sərt qanunvericilik tədbirləri həyata keçirilməlidir. "Artsax" sözünün işlədilməsinə görə cinayət təqibi həyata keçirilməlidir ki, özünü din xadimi adlandıranlar, revanşist qüvvələr, yenidən Azərbaycanla müharibə etmək istəyən şəxslər məsuliyyətə cəlb edilsinlər".

Politoloq hesab edir ki, əks təqdirdə biz yenə də din xadimlərinin ictimaiyyət arasında reytinqlərini yüksəltmək, nüfuz qazanmaq naminə bu cür yalançı çıxışlarının şahidi olacağıq: "Zənnimcə, bütün bu çıxışlar, eləcə də azad edilmiş ərazilərdə xristian dini abidələrinin dağılması ilə bağlı yalançı fikirlərin formalaşdırılması Ermənistanda seçkilərə hesablanıb. Kilsənin fəal şəkildə seçki prosesinin bir parçasına çevrilmə niyyəti var. Digər tərəfdən hazırda ədalət mühakiməsi qarşısında cavab verən təqsirləndirilən şəxslərin azadlığa buraxılmasına dair çağırışlar absurddur. Onlar Azərbaycan xalqına qarşı böyük cinayətlər törətməkdə təqsirləndirilirlər".

***Səxavət HƏMİD***
***XQ***

# Zəfər strategiyası: Prezident İlham Əliyevin yeni Azərbaycanı

**Qlobal geosiyasi nizamın sarsıldığı, köhnə təhlükəsizlik təsisatlarının iflic olduğu bir dünyada Cənubi Qafqazda yeni bir güc mərkəzi və sabitlik adası formalaşır. Bu tarixi transformasiyanın mərkəzində isə otuz illik işğala son qoyan, regionun geosiyasi arxitekturasını yenidən cızan və Azərbaycanı qalib dövlətdən qlobal aktora çevirən strateji baxış dayanır: Prezident İlham Əliyev faktoru. Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş və son 22 ildə novatorcasına inkişaf etdirilən bu siyasət, Azərbaycanın tarixi zəfərlərlə möhkəmlənən yeni erasının memarlığıdır.**



## Zəfərin əsasları: Hərbi qüdrətdən diplomatik təntənəyə

Azərbaycanın son illərdəki yüksəlişinin təməlində 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər dayanır. Lakin bu qələbə anidən yaranmadı; o, uzunmüddətli, düşünülmüş ordu quruculuğu strategiyasının məntiqi nəticəsi idi. Bu dövrdə Azərbaycan Ordusunun döyüş qabiliyyəti davamlı artırıldı, maddi-texniki baza tamamilə modernləşdirildi və 1300-dən çox adda məhsul istehsal edən güclü müdafiə sənayesi quruldu. Nəticədə, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasına yüksəldi və öz gücünü həlledici döyüşlərdən əvvəl də dəfələrlə nümayiş etdirdi.

Bu gücün ən bariz nümunələrindən biri 2018-ci ilin mayında Naxçıvan Muxtar Respublikasında keçirilən uğurlu "Günnüt əməliyyatı" oldu. Bu əməliyyat nəticəsində Şərur rayonunun Günnüt kəndi və bir neçə kəndin ətrafındakı mühüm ərazilər, o cümlədən Qızılqaya və Mehridağ kimi strateji yüksəkliklər işğaldan azad edildi. Ümumilikdə 11 min hektardan çox ərazinin nəzarətə götürülməsi təkcə ərazi qazancı deyildi; bu, həm də Ermənistanın Qarabağdakı qüvvələrinin əsas təchizat xətti olan İrəvan-Gorus-Laçın avtomobil yoluna birbaşa atəş nəzarəti imkanı yaradan hərbi-strateji bir gediş idi. Günnüt əməliyyatı 44 günlük Vətən müharibəsindən öncə Azərbaycan Ordusunun peşəkarlığını, döyüş hazırlığını və mənəvi-psixoloji üstünlüyünü nümayiş etdirən, Zəfərə gedən yolun başlanğıcı sayılan mühüm bir tarixi hadisə idi.

"Dəmir yumruq" əməliyyatı ilə 44 gün ərzində qazanılan şanlı Qələbə, həm də informasiya məkanında aparılan "qələbə diplomatiyası" ilə müşayiət olundu. Prezident İlham Əliyev müharibə dövründə dünyanın 30-dan çox nüfuzlu media qurumuna müsahibə verərək Azərbaycanın haqq səsini beynəlxalq ictimaiyyətə çatdırdı. Zəfər təkcə döyüş meydanında yüzlərlə şəhər və kəndin azad edilməsi ilə yekunlaşmadı; 2023-cü ilin aprelində "Laçın" sərhəd-buraxılış məntəqəsinin qurulması və oktyabrında Xankəndi şəhərində Azərbaycan bayrağının qaldırılması ilə ölkənin suverenliyi tam bərpa edildi.

## Böyük Qayıdış: Milli dirçəlişdən innovativ gələcəyə

Qələbənin yaratdığı yeni reallıqların ən möhtəşəm təcəssümü Prezident İlham Əliyevin 2022-ci il Sərəncamı ilə təsdiqlənmiş "Böyük Qayıdışa dair I Dövlət Proqramı"dır. Bu, təkcə dağıdılmış şəhərlərin bərpası deyil, həm də Azərbaycanın post-neft dövrü üçün innovativ inkişaf modelinin tətbiqidir. Bu nəhəng işlərin tamamilə Azərbaycanın daxili resursları hesabına aparılması isə ölkənin iqtisadi gücünü və maliyyə müstəqilliyini göstərir. Belə ki, son 22 ildə iqtisadiyyat dəfələrlə böyümüş, birbaşa xarici dövlət borcu ÜDM-in cəmi 6%-i kimi rekord aşağı səviyyəyə endirilmişdir. 75 milyard dolları ötən strateji valyuta ehtiyatlarının xarici dövlət borcunu 10 dəfədən çox üstələməsi bu maliyyə dayanıqlılığının təməlidir. Bərpa işləri çərçivəsində 33 tunel və 84 körpünün salınması, Qarabağ və Şərqi Zəngəzurun 7200 meqavat günəş və 2000 meqavat külək enerjisi potensialı ilə "yaşıl enerji" zonasına çevrilməsi hədəflənir. Zəngilanın Ağalı kəndindəki "ağıllı kənd" layihəsi artıq bu innovativ yanaşmanın real nümunəsidir. Bu prosesdə şəhid ailələri və qazilərə dövlət qayğısı da ali səviyyədədir. "YAŞAT" Fondu kimi təşəbbüslər və 15 minə yaxın şəhid ailəsi və müharibə əlilinə mənzillərin verilməsi, milli birliyin və dövlətin vətəndaşına sahib çıxmasının bariz göstəricisidir.

## Geoiqtisadi transformasiya: Enerji habından logistika qovşağına

Prezident İlham Əliyevin strateji zəkası Azərbaycanı bütün Avrasiyanın enerji və nəqliyyat xəritəsində mərkəzi aktora çevirmişdir. "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi (TANAP, TAP) kimi layihələrlə Avropanın enerji təhlükəsizliyində əvəzsiz rol oynayan Azərbaycan, bu gün Zəngəzur dəhlizi və Bakı-Tbilisi-Qars dəmir yolu (17 milyon tonadək yük potensialı) kimi təşəbbüslərlə "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsinə çevrilir. Ölkənin investisiya cəlbediciliyi son dərəcə yüksəkdir: 2003-2024-cü illərdə iqtisadiyyata 340 milyard dollardan çox sərmayə yatırılıb. Azərbaycanın beynəlxalq reytinqlərdə biznes mühitinin yaxşılaşdırılması üzrə lider ölkələrdən biri kimi tanınması və Davos Forumunda hökumətin uzunmüddətli strategiyasına görə ön sıralarda yer alması bu uğurlu iqtisadi modelin beynəlxalq etirafıdır.

## Prinsipial liderlik və milli birlik: Vətəndaş mərkəzli dövlət

Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarı ilə ifadə olunan siyasətinin əsasında xalqa arxalanmaq və milli birlik dayanır. Bu birliyin ən bariz təzahürü ölkədə formalaşan sağlam siyasi dialoq mühitidir. İqtidar-müxalifət münasibətlərinin konstruktiv məcraya yönəldilməsi, bütün siyasi partiyalarla müntəzəm görüşlərin keçirilməsi və onlarla birgə bəyanatların imzalanması buna sübutdur. 2020-ci il parlament seçkilərindən sonra ilk dəfə olaraq müxalifət partiyalarının Milli Məclis rəhbərliyində təmsil olunması demokratik ənənələrin təkamül yolu ilə inkişafını göstərir. Bu liderlik özünü qlobal böhranlar zamanı da göstərdi. COVID-19 pandemiyası ilə mübarizədə çevik Fəaliyyət Planının qəbulu, əhaliyə və biznesə təqribən 3 milyard dollar həcmində dəstək paketinin ayrılması, habelə Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi və vaksin millətçiliyinə qarşı qətnamənin irəli sürülməsi, dövlətin həm daxildə, həm də beynəlxalq aləmdə vətəndaş və bəşəri dəyərlərə sadiqliyini nümayiş etdirdi. Bu daxili güc özünü müstəqil xarici siyasətdə göstərir. Türkiyə ilə Şuşa Bəyannaməsi sayəsində müttəfiqlik səviyyəsinə yüksələn münasibətlər, Türk Dövlətləri Təşkilatı çərçivəsində dərinləşən inteqrasiya, Qoşulmama Hərəkatına uğurlu sədrlik, NATO ilə etibarlı tərəfdaşlıq və 2024-cü ildə COP29 kimi mötəbər bir tədbirin uğurla keçirilməsi Azərbaycanın artan qlobal nüfuzunun təzahürüdür.

## İlham Əliyev amili – Zəfərin və gələcəyin təminatı

Son illərin ən böyük transformasiyası coğrafi və iqtisadi sərhədləri aşaraq, birbaşa xalqın mənəvi dünyasında, onun özünəinamında baş verdi. Otuz illik məğlubiyyət psixologiyası və ədalətsizlik hissi Prezident İlham Əliyevin liderliyində səfərbər olunan milli iradə ilə qırıldı və öz yerini məğrur, qalib bir xalqın kimliyinə verdi.

Bu tarixi dəyişiklik təkcə emosional bir yüksəliş deyil, həm də milli maraqları bütün digər mülahizələrdən üstün tutan, güc balansını dəqiq hesablayan və ölkəni beynəlxalq təzyiqlərdən qoruyan praqmatik bir strateji suverenlik doktrinasının nəticəsi idi. Bu doktrinanın üç təməl sütunu var idi: reallıqları döyüş meydanında dəyişən hərbi qüdrət; bu gücü maliyyələşdirən və xarici təsir rıçaqlarını neytrallaşdıran iqtisadi müstəqillik; və mürəkkəb geosiyasi mühitdə Azərbaycanın yolunu müəyyən edən çoxşaxəli, prinsipial diplomatiya.

Məhz bu üç amilin vəhdəti sayəsində Azərbaycan regional dinamikaya sadəcə reaksiya verən bir ölkədən Cənubi Qafqaz üçün yeni sülh gündəliyi və əməkdaşlıq arxitekturası təklif edərək bu dinamikanı formalaşdıran əsas aktorlardan birinə çevrildi. Beləliklə, Prezident İlham Əliyevin liderliyi ilə təkcə keçmişin yaraları sağalmadı və problemləri həll edilmədi, eyni zamanda Azərbaycanın XXI əsrdəki yolunu müəyyən edən möhkəm bir irsin təməli qoyuldu. Bu irs – özünə güvənən, qalib kimliyinə sahib xalqın, müstəqil siyasət yürüdən suveren dövlətin və gələcək nəsillər üçün qurulmuş davamlı inkişaf modelinin vəhdətidir. Bu, Azərbaycan üçün artıq geriyə dönüşü olmayan yeni bir tarixi mərhələnin başlanğıcıdır.

Beləliklə, hərbi qüdrət, dinamik iqtisadiyyat, innovativ yenidənqurma, strateji dəhlizlər və çoxşaxəli diplomatiya bir-birini tamamlayaraq vahid bir mənzərə yaradır: qlobal qeyri-sabitlik fonunda öz sabitliyini təmin edən, regional oyun qaydalarını müəyyənləşdirən və beynəlxalq gündəmə təsir edən güclü Azərbaycan. Bütün bu tarixi nailiyyətlərin mərkəzində dayanan fundamental amil isə bütün bu prosesləri vahid bir strategiya ətrafında birləşdirən, riskləri düzgün hesablayan və milli maraqları hər şeydən üstün tutan Qalib Liderin siyasi iradəsidir. Bütün yollar sabitliyi, inkişafı, zəfəri və bu reallıqların memarı olan İlham Əliyevi göstərir.

***Əziz ƏLƏKBƏRLİ,***
***Milli Məclisin deputatı,***
***Qərbi Azərbaycan İcması***
***İdarə Heyətinin sədri***

# Geosiyasi kompas Aİ-nin "genişlənmə siyasəti"ni göstərir

## *Qoca qitənin "qonşuluq dilemması"nda Cənubi Qafqazın yeri haradadır?*

**Avropa İttifaqı Şurasının prezidenti Antonio Kostanın Avropa İttifaqının (Aİ) genişlənməsini mühüm geosiyasi sərmayə kimi səciyyələndirməsini Brüsselin strateji təfəkküründə baş verən fundamental evolyusiyanı əks etdirən proqram xarakterli bəyanat kimi qəbul etmək olar.**

Sofiyada Bolqarıstanın Baş naziri Rosen Jelyazkovla keçirilən mətbuat konfransında səslənən bu fikir ittifaqın qonşuluq siyasətinin sadəcə normativ güc yayma vasitəsi olmaqdan çıxaraq, sərt geosiyasi reallıqlara cavab verən praqmatik təhlükəsizlik və nüfuz alətinə çevrildiyini təsdiqləyir. Koştanın genişlənmənin ilk növbədə Ukrayna, Moldova və Qərbi Balkanlardan başlamalı olduğunu vurğulaması, həmçinin prosesin bütün iştirakçılar üçün eyni sürətlə getməyəcəyini, lakin inteqrasiyanın davamlılığının təmin edilməsinin vacibliyini qeyd etməsi İttifaqın diferensial və çevik yanaşma tətbiq etmək niyyətini ortaya qoyur. Bu strateji doktrinanın formalaşdığı geosiyasi mühitdə Cənubi Qafqazda Vaşinqton Bəyannaməsindən sonrakı mərhələdə yeni təhlükəsizlik nizamının konturları cızılır. Məhz həmin kontekstdə, Azərbaycan Respublikası Aİ-nin genişlənmə strategiyasının bilavasitə hədəfləri arasında yer almasa da, enerji təhlükəsizliyi, Xəzər–Qara dəniz–Avropa marşrutu kimi alternativ nəqliyyat dəhlizləri və regional dayanıqlılığın təmin edilməsi kimi həyati əhəmiyyətli sahələrdə İttifaq üçün əhəmiyyət daşıyan "geosiyasi sərmayə" funksiyasını yerinə yetirir. Bakının artan strateji rolu Brüsselin Şərq siyasətinin uğurunu təmin edən vacib komponentlərdən birinə çevrilir.

"Geosiyasi sərmayə" konsepsiyası özündə həm böyük imkanlar, həm də ciddi çağırışlar ehtiva edir. Bu yanaşmanın müsbət tərəfi genişlənmə prosesinə yeni impuls və siyasi iradə qazandırmasıdır. Uzun illər Qərbi Balkan ölkələrinin üzvlük perspektivinin qeyri-müəyyənliyi regionda məyusluq və yorğunluq yaratmışdı. Prosesin ləngiməsi və bəzi üzv dövlətlərin tərəddüdləri isə regionda alternativ geosiyasi mərkəzlərin – Rusiya, Çinin fəallaşması üçün münbit şərait formalaşdırmışdı. Koşta tərəfindən irəli sürülən geosiyasi zərurət arqumenti məhz bu tendensiyanın qarşısını almağa Qərbi Balkanların Avropa-Atlantik məkana inteqrasiyasının alternativi olmadığı mesajını açıq şəkildə verməyə yönəlib. Bu, namizəd ölkələrdə islahatçı qüvvələrə güclü dəstək siqnalı göndərir və onlara çətin olan islahatları həyata keçirmək üçün zəruri siyasi legitimliyi təmin edir.

Koşta deyir: "Bütün ölkələr Aİ ilə eyni sürətlə irəliləməsələr də, onların quruma inteqrasiyası davam etməlidir. Genişlənmə planları həmin dövlətlərə müəyyən impuls və maliyyə dəstəyi verəcək. Biz fürsət impulsunu itirməməliyik; bütün Aİ ölkələri dəstəkləməlidir." Bu fikirlərdə diferensiasiya edilmiş inteqrasiya modelinin mümkünlüyünə işarə olsa da, yekun hədəfin dəyişməz qaldığı vurğulanır. Yəni, hər ölkənin fərdi nailiyyətlərinə görə qiymətləndiriləcəyi, lakin ümumi prosesin strateji əhəmiyyəti səbəbindən heç vaxt dayandırılmayacağı vəd edilir. Koşta Xorvatiya Baş naziri Andrey Plenkovic ilə görüşündə də eyni fikri təkrarlayaraq, genişlənmənin təhlükəsizlik üçün edilə biləcək ən vacib geosiyasi sərmayə olduğunu qeyd etmişdir.

Lakin bu iddialı geosiyasi sərmayənin reallaşması ciddi maneələrlə üzləşir və ən barizi Bolqarıstanda görünür. Baş nazir Rosen Jelyazkov mətbuat konfransında, Qərbi Balkanların Aİ inteqrasiyasının strateji prioritet olduğunu təsdiqləsə də, Şimali Makedoniya məsələsində Sofiyanın mövqeyinin dəyişməz olduğunu vurğuladı. Bolqarıstan, tarixi, mədəni və kimlik məsələlərinə əsaslanaraq, Skopyedən dil və tarix iddialarından imtina etməyi və bolqar azlığının konstitusiyada əksini tələb edir. 2022-ci ildə əldə olunan kompromis razılaşma isə Şimali Makedoniyada ciddi qütbləşməyə yol açdı və parlamentdə konstitusiya dəyişiklikləri üçün tələb olunan səs çoxluğu hələ də təmin olunmayıb. Bu vəziyyət, Bolqarıstanın milli maraqlarını Aİ-nin ümumi strateji hədəflərindən üstün tutmasını göstərir. Oxşar nümunələr Yunanıstan, Sloveniya və Serbiya ilə bağlı da mövcuddur. Koştanın "geosiyasi sərmayə" konsepsiyası yalnız Aİ ikitərəfli mübahisələri həll etmək və qərarvermə mexanizmlərini effektiv qurmaqla uğurlu ola bilər. Əks halda strateji bəyanatlar üzv dövlətlərin milli eqoizminə çırpılaraq təsirsiz qalacaq.

Genişlənmənin geosiyasi sərmayə kimi uğuru birbaşa Aİ-nin daxili transformasiyaya hazır olub-olmamasından asılıdır. Ukrayna kimi böyük ölkənin üzvlüyü büdcə və fond strukturlarını dəyişməyi tələb edir və Polşa, Macarıstan, Rumıniya kimi ölkələrin müqaviməti ilə qarşılaşa bilər. Veto hüququ və yekdil qərar prinsipi isə xarici siyasətdə çevikliyi əngəlləyir. Fransa və Almaniya kimi üzv dövlətlər ixtisaslı səs çoxluğu sisteminə keçidi təklif etsə də, kiçik ölkələr bunu suverenliyə müdaxilə kimi qəbul edir. Beləliklə, genişlənmə uğuru həm namizəd ölkələrin islahatlarına, həm də Aİ-nin daxili struktur dəyişikliklərinə paralel və sinxron səy tələb edir.

*

Cənubi Qafqaz bu mürəkkəb geosiyasi tənlikdə xüsusi yer tutur. İkinci Qarabağ müharibəsi və Azərbaycanın suverenliyini tam bərpa etməsi ilə nəticələnən antiterror tədbirləri, regionun siyasi xəritəsini və güc balansını kökündən dəyişdi. Cənubi Qafqaz Avropanın enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərinin fasiləsiz fəaliyyəti üçün kritik şərtdir. Bu baxımdan, Azərbaycanın regionda sülh və sabitliyin bərqərar olması istiqamətində atdığı addımlar Avropa İttifaqının strateji maraqları ilə tamamilə üst-üstə düşür və Bakının Brüssel üçün dəyərini artırır.

Azərbaycanın Avropa üçün geosiyasi sərmayə kimi əsas dayağı enerji və tranzit sahəsindəki strateji rolu ilə bağlıdır. Cənub Qaz Dəhlizi vasitəsilə "Şahdəniz" qazının




Xəzərdən Adriatikə çatdırılması Avropanın enerji şaxələndirilməsində Azərbaycanı etibarlı tərəfdaşa çevirdi və Aİ-nin bir sıra üzv ölkələrinin Rusiyadan asılılığını azaltdı. "Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi isə bərpa olunan enerji potensialını Avropaya çatdırmağı hədəfləyir və Azərbaycanın gələcəyin enerji təhlükəsizliyinə töhfəsini nümayiş etdirir.

Eyni zamanda, Azərbaycan Avrasiyanın nəqliyyat-logistika qovşağı kimi strateji rol oynayır. Trans–Xəzər Orta Dəhliz, Bakı–-Tbilisi-Qars dəmir yolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə Çin, Mərkəzi Asiya və Avropa arasında sürətli, ucuz və etibarlı marşrut təmin edilir. Bu, Aİ üçün tranzit asılılığını azaldır, ticarət əlaqələrinin dayanıqlığını artırır və Azərbaycanın geostrateji əhəmiyyətini gücləndirir. Beləliklə, enerji və nəqliyyat sahələrindəki strateji təşəbbüslər Azərbaycanı Avropa üçün əvəzolunmaz tərəfdaşa çevirir.

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın genişlənməni "vacib geosiyasi sərmayə" adlandırması Aİ-nin strateji baxışını və həm namizəd ölkələrə, həm də Azərbaycan kimi tərəfdaşlara münasibətinin əsaslarını anlamaq üçün konseptual çərçivə yaradır. Genişlənmənin hədəfi sabitlik, təhlükəsizlik və rifah zonasını genişləndirməkdirsə, Azərbaycan bu hədəflərə çatılmasında son dərəcə mühüm rol oynayır. Enerji təhlükəsizliyindəki töhfəsi, Avropa-Asiya nəqliyyat dəhlizlərinin mərkəzində yerləşməsi və Cənubi Qafqazda sabitlik, təhlükəsizlik memarlığının formalaşmasındakı aparıcı rolu ölkəni Aİ üçün həqiqi geosiyasi sərmayəyə çevirən üç əsas sütundur. Amma Bolqarıstanın Şimali Makedoniya mövqeyi kimi ikitərəfli mübahisələr, həmçinin Aİ-nin institusional və maliyyə islahatlarına qarşı müqavimət genişlənmənin uğurunu çətinləşdirir. Beləliklə, Koştanın bəyanatı Azərbaycanın Avropa üçün artan strateji əhəmiyyətini və Cənubi Qafqazın taleyinin Avropanın gələcəyi ilə nə qədər sıx bağlı olduğunu göstərən mühüm açardır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Kimdir müqəssir?

*Ermənistan parlamenti “milli məğlubiyyət”in müəlliflərini açıqlayacaq*



**İkinci Qarabağ müharibəsində sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistan hələ də bunun fəsadlarını yaşamaqdadır. Hayastanda siyasi və sosial gərginlik 5 ildir ki, davam edir. Hakimiyyətlə müxalifət hər fürsətdə bir-birini ittiham edir, vətənə xəyanətdə suçlayır. Müxalifətin əsas lokomotivi hesab edilən keçmiş hakimiyyət nümayəndələri Serj Sarkisyan və Robert Koçaryan tandemi bu mübahisələrin önündə dayanır.**

Onlar çıxışlarında birbaşa Nikol Paşinyanı hədəfə alaraq, Qarabağın “itirilməsində” əsas məsuliyyətin onun üzərində olduğunu vurğulayırlar. Səbəb də odur ki, ölkənin baş naziri silahlı qüvvələrə ümumi rəhbərliyə və təhlükəsizlik orqanlarının koordinasiyasına cavabdehdir. Bununla belə, məsələnin dərinliyinə enəndə görünür ki, rüsvayçı məğlubiyyətə görə təkcə Paşinyanı “günah keçisi” kimi qələmə vermək doğru yanaşma deyil. Ermənistanın İkinci Qarabağ müharibəsində rəzil vəziyyətə düşməsində yalnız Paşinyanın deyil, ona qədər 20 il hakimiyyətdə olmuş “Qarabağ klanı”nın – Koçaryan–Sarkisyan cütlüyünün böyük payı var.

Azərbaycan Prezidenti İlham Əliyevin təbirincə desək, müharibə ilə bağlı təhlillər onu göstərir ki, bu müharibənin uduzan tərəfi məhz Serjik Sarkisyan və onun kimilərdir. Halbuki, Paşinyan 2018-ci ildə hakimiyyətə gəlib və o, cəmi iki il ərzində nə yeni ordu qura bilərdi, nə də “möhkəm” və “güclü ordunu” dağıda bilərdi. Çünki Ermənistan ordusunun formalaşmasında əsas rolu Serj Sarkisyan oynayıb. O, vaxtilə ölkənin müdafiə naziri, baş naziri, Prezident Administrasiyasının, təhlükəsizlik orqanlarının rəhbəri olub və 10 il dövlət başçısı vəzifəsində çalışıb. Bu ordunu quran Serj Sarkisyandır, əksini iddia etmək çətindir.

İndi qalır Ermənistan üçün günahkarları cəmiyyətə göstərib onu “daşa tutmaq”. Həmin şəxslər kimlər olacaq? Bu sualın cavabını eşitməyimizə az qalıb.

*

2022-ci ilin fevralında Ermənistan Milli Assambleyası 2020-ci ilin payızında baş vermiş 44 günlük müharibənin səbəblərini və şəraitini araşdırmaq üçün müvəqqəti istintaq komissiyası yaradıb. Hakim “Vətəndaş Müqaviləsi” fraksiyasının təşəbbüsü ilə formalaşan komissiya müharibə dövründə müdafiə və xarici siyasətə cavabdeh şəxsləri ifadəyə çağırıb. Komissiyanın rəhbəri Andranik Koçaryan hesabatın 2025-ci ilin sentyabrında ictimaiyyətə təqdim ediləcəyini bildirib. Hesabatın təqdimatı Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komitəsi tərəfindən həyata keçirilib. Komissiya müharibənin səbəbləri və nəticələri ilə bağlı geniş bir araşdırma aparıb və müvafiq şəxsləri ifadəyə çağırıb. Komissiyanın hazırladığı hesabat Ermənistan Milli Assambleyasının sədri Alen Simonyana təqdim olunub. Sənədin tam mətninin sentyabr ayının sonunadək parlamentdə ictimaiyyətə açıqlanması nəzərdə tutulur. Komissiyanın işi nəticəsində ortaya çıxan qənaətlər və hesabatın içərisindəki məzmun ölkənin daxili siyasi gündəminə, eləcə də regional münasibətlərə ciddi təsir göstərə bilər. Hesabatda iqtidarın müdafiə və idarəetmədəki boşluqları üzə çıxarsa, seçicilər arasında etimadsızlıq arta bilər. Amma komissiyanın hakim “Vətəndaş Müqaviləsi” fraksiyasının təşəbbüsü ilə yaradılması və əksər üzvlərin bu fraksiyadan olması səbəbindən ittihamların birbaşa Paşinyana yönəlməsi ehtimalı azdır.

Digər tərəfdən, sənəd müxalifətə əlverişli fürsət verə bilər. Onlar hesabatdan hakimiyyətin “qeyri-effektivliyi”ni sübut edən arqument kimi istifadə edə bilərlər. Hesabat seçki ərəfəsində açıqlanarsa, hakimiyyət və müxalifət arasında qarşıdurma güclənəcək. Belə olan halda İrəvanda xaotik hadisələrin baş verməsi qaçılmaz olacaq. Bununla belə, Nikol Paşinyanın hesabatdan öz xeyrinə yararlanacağı şübhəsizdir. Mümkündür ki, o, komissiyanın yaradılmasını şəffaflıq və demokratik idarəçilik nümunəsi kimi təqdim edərək məsuliyyətli lider imici formalaşdırsın. Baş nazir, həmçinin hesabatdakı çatışmazlıqları əsasən keçmiş hakimiyyətlərin səhvi kimi göstərməklə müxalifətin tənqidlərini zəiflətməyə çalışacaq.

Amma ola bilsin sənədin məzmunu gözlənilməz rezonans doğursun. Əgər məsuliyyətin böyük hissəsi birbaşa Paşinyanın üzərinə yönəlmiş şəkildə təqdim olunarsa, bu, seçki kampaniyasına təsirsiz ötüşməyəcək. Ümumilikdə, hesabat seçki öncəsi həm hakimiyyət, həm də müxalifət üçün siyasi alətə çevrilə, seçicilərin davranışına təsir edə bilər. Bundan başqa, hesabatın nəticəsindən asılı olaraq müharibə günahkarları erməni xalqının gözündə “açıq kitab” kimi görünəcək.

***Musa BAĞIRLI***
***XQ***

### Ekspert rəyi



**Tofiq ABBASOV,**
**politoloq**

İkinci Qarabağ müharibəsində Azərbaycanın əldə etdiyi qələbə, həqiqətən də Ermənistanın dövlət strukturunun və cəmiyyətinin nə qədər zəif, qeyri-sabit olduğunu açıq şəkildə göstərdi. Bu, başqa cür ola da bilməzdi. 1990-cı illərin əvvəllərində ermənilər xarici qüvvələrin dəstəyi ilə Azərbaycanın ərazilərinə daxil ola bildilər və müəyyən uğurlar qazandılar. O dövrdə Azərbaycanın nizami ordusu tam formalaşmasa da, hərbçilərimiz böyük döyüş qabiliyyəti nümayiş etdirirdilər. Vazgen Sarkisyan müdafiə naziri olduğu dövrdə özü etiraf etmişdi ki, “ermənilər xarici qüvvələrin və bəzi qonşu ölkələrin dəstəyi olmasaydı Azərbaycan ordusunu təkbaşına məğlub edə bilməzdi”. Bəli, o, yalnız müvəqqəti üstünlük idi.

Ermənistan uzun illər illuziyaların təsiri altında qaldı. 2020-ci il hadisələri isə ölkədə reallığı açıq şəkildə üzə çıxardı və kimlərin nəyə qadir olduğunu müəyyən etdi. Biz isə güc balansını köklü şəkildə dəyişdik. Müharibələrdən sonra generallar və ekspertlər keçmiş döyüşlərin təhlilini aparır, üstünlükləri və çatışmazlıqları araşdırırlar. Ermənistanda da həm generallar, həm cəmiyyət, həm də ekspertlər siyasətlərinin yanlışlığını qiymətləndirməyə çalışırlar. Çünki bir dövlətin siyasəti radikalizm, ekstremizm və terror üzərində qurularsa, sabit deyil və nəticədə məğlubiyyətə düçar olur.

İndi isə Ermənistan kökündən məğlub vəziyyətdədir və Azərbaycan qalibdir. Ermənilər çalışırlar ki, məğlubiyyətin məsuliyyətini başqalarının üzərinə atsınlar. Bunun səbəbləri çoxdur, amma əsas səbəb onların müstəqillik əldə etdikdən sonra düzgün yol seçməmələridir. Şovinist-daşnakların təsirinə düşərək yanlış siyasətə uydular və nəticədə bugünkü vəziyyət yarandı. Hazırda bəzi faktlar üzə çıxır, şəxslərin davranışları və verdikləri qərarlar araşdırılır. Hesabatın məqsədi həm günahkarları müəyyənləşdirmək, həm də 2020-ci ildən sonra ermənilərin niyə geri çəkildiklərini izah etməkdir. Azərbaycan Prezidenti qeyd edib ki, “biz Paşinyanın yox, Robert Koçaryan və Serj Sarkisyanın ordusunu məğlub etmişik”. Bu, həm də onların siyasətinin məğlubiyyətidir.

Azərbaycan həm güclü, həm də sağlam ruhlu bir dövlətdir. Ermənilər hələ də bunu düzgün qiymətləndirə bilmirlər. Onlar araşdırmalar aparıb parlamentdə açıqlasalar da, bu, vəziyyəti dəyişməyəcək. Sadəcə, özlərinin zəifliyini təsdiqləyəcək və bu faktı dünya birliyinə çatdıracaqlar. Gələcəkdə Ermənistan revanşizm meylini gücləndirməyə, Azərbaycana psixoloji təsir göstərməyə çalışa bilər. Amma bunların heç biri önəmli deyil, çünki dövlətin təməli əyri qoyulubsa, üstündəki heç vaxt dayana bilməz. Ermənistanın mövcud siyasəti də əvvəlcədən uğursuzluğa məhkumdur. Əgər haylar Azərbaycan və Türkiyə ilə normal münasibətlər qurmaq istəyirlərsə, revanşizm, radikalizm və millətçilikdən əl çəkməli, nifrət siyasətindən uzaqlaşmalı və reallığı qəbul etməlidirlər.

# Azərbaycanın diplomatik heyəti Peruda



**Sentyabrın 3–4-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov Peru Respublikasında səfərdə olub.**

Lima şəhərində Azərbaycanın və Perunun Xarici İşlər nazirlikləri arasında ilk siyasi məsləhətləşmələr keçirilib. Nümayəndə heyətlərinə Azərbaycan tərəfindən nazir müavini Elnur Məmmədov, Peru tərəfindən isə xarici işlər nazirinin müavini Feliks Deneqri Boza başçılıq ediblər.

Məsləhətləşmələr zamanı iki ölkə arasında siyasi, iqtisadi, energetika, mədəniyyət, turizm və digər sahələrdə əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, həmin istiqamətlərdə müqavilə-hüquq bazasının yaradılmasının əhəmiyyəti vurğulanıb. Müvafiq təqdimatlar vasitəsilə hər iki ölkədə mövcud iqtisadi-ticarət imkanları barədə məlumat verilərək, birgə təşəbbüslərin təşviqinə qarşılıqlı dəstək ifadə olunub.

Elnur Məmmədov Peru Respublikası Konqresinin sədri, Peru–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Xose Enrike Xeri, xarici işlər naziri Elmer Şialer Salsedo ilə də görüşüb.

***XQ***

# Kremlin təzyiqləri İrəvanın geosiyasi seçiminə maneədir

**(əvvəli 1-ci səhifədə)**

İlk olaraq kənd təsərrüfatı məhsullarının Rusiya bazarına girişinə qadağalar tətbiq olundu. Pomidor, alma və digər məhsullar “standartlara uyğun olmaması” bəhanəsi ilə bazardan çıxarıldı. Ardınca Ermənistandan idxal edilən güllərə qarşı məhdudiyyətlər gündəmə gətirildi. Daha əvvəl isə süd məhsulları sahəsində oxşar sanksiyalar tətbiq edilmişdi. İndi isə Kremlin hədəfində Ermənistanın ən iri logistika və ixrac şirkətlərindən biri olan “Spayka” dayanır. Rusiya tərəfi bu şirkətə məxsus yük maşınlarını müxtəlif bəhanələrlə sərhəddə saxlayıb. Şübhəsiz, rəsmi Moskvanın bu addımı, sadəcə, texniki yoxlamalar və ya gömrük prosedurlarının pozulması ilə izah edilə bilməz. Əslində, Rusiya bununla Ermənistanın logistika infrastrukturuna zərbə vurmağa çalışır. Çünki “Spayka” Ermənistanın kənd təsərrüfatı məhsullarının əsas ixracatçısı olmaqla yanaşı, ölkənin xarici ticarət dövriyyəsində mühüm rol oynayır. Şirkətin fəaliyyətinə məhdudiyyət qoyulması bütövlükdə Ermənistanın ixrac potensialını zəiflətmək anlamına gəlir. Rusiyada “Spayka”ya məxsus 100-dən çox yük maşınının saxlanılması nəticəsində tədarük və satınalma prosesi tamamilə pozulub, fermerlər məhsullarını vaxtında bazara çıxara bilməyiblər. Şirkət isə müqavilə öhdəliklərini yerinə yetirməkdə çətinlik çəkir.




*

Ermənistanda bu vəziyyətə müxtəlif yanaşmalar mövcuddur. Bir qrup ekspert hesab edir ki, Moskvanın bu addımı sırf siyasi mesajdır və Ermənistanın Avropa İttifaqı ilə yaxınlaşma cəhdlərinə cavab xarakteri daşıyır. Digərləri isə düşünür ki, ixrac olunan məhsullar yüksək keyfiyyət standartlarına cavab vermədiyindən bu cür problem yaşanır. Lakin hadisələrin inkişafı göstərir ki, məsələ, sadəcə, keyfiyyət yoxlamaları ilə məhdudlaşmır, burada daha dərin geosiyasi amillər rol oynayır. Rusiya bu addımı ilə öz gücünü nümayiş etdirir və Ermənistanın zəif tərəfini bir növ “üzünə vurur”. Ermənistan son 30 ildə ixrac bazarını şaxələndirmək istiqamətində real addımlar atmadığından ixracatının böyük hissəsi hələ də Rusiya bazarına yönəlib. Nəzərə alınmalıdır ki, Ermənista–Rusiya münasibətləri heç vaxt sırf iqtisadi məntiqlə formalaşmayıb, siyasi vektorlarla sıx bağlı olub. Bu isə Rusiyaya istənilən vaxt iqtisadi alətləri siyasi təzyiq mexanizminə çevirməyə imkan verir. Rusiya bazarları özlüyündə çoxsaylı imkanlar təklif etsə də, siyasi məqsədlər naminə tətbiq olunan məhdudiyyətlər istənilən tərəfdaş ölkəni risk altında qoymağa qadirdir. İndi bu risk Ermənistanda daha aydın görünür. Rusiya bazarına daxil olan istənilən məhsul istənilən anda müxtəlif bəhanələrlə sıxışdırıla, onlara qarşı inzibati və iqtisadi təzyiq alətləri işə salına bilər. Ermənistanın hazırkı durumu da bunu təsdiq edir. Hadisə Ermənistan iqtisadiyyatının struktur zəifliyini bir daha üzə çıxarır. İxrac bazarlarının uzun illər boyu Rusiya istiqamətində cəmlənməsi ölkəni iflic vəziyyətə salıb. Bu reallıq İrəvan üçün dərs olmalıdır. Ermənistan yalnız ixrac bazarlarını şaxələndirməklə, yeni ticarət tərəfdaşları qazanmaqla və logistika marşrutlarını diversifikasiya etməklə iqtisadi müstəqilliyini təmin edə bilər. Əks halda, mövsümün ən məhsuldar günlərində belə məhsulların sərhəddə ilişib qalması müxtəlif sektorlarda böhran vəziyyətini dərinləşdirəcək.

“Spayka” şirkəti Azərbaycanda kifayət qədər tanınır və bu şirkətlə bağlı yayılan məlumatlar uzun müddət ictimaiyyətin diqqət mərkəzində olub. Xüsusilə İkinci Qarabağ müharibəsi zamanı şirkətin fəaliyyəti ilə bağlı xəbər və açıqlamalar diqqət çəkmişdi. Həmin dövrdə mətbuatda Gürcüstan–Ermənistan sərhədində saxlanılan mülki yük maşınlarının əslində, Ermənistana silah və hərbi texnika daşıdığı barədə məlumatlar tirajlanmışdı. Xəbərlərə görə, bu yüklər Ermənistanın ən böyük nəqliyyat-logistika şirkətlərindən biri olan “Spayka”ya məxsus mülki yük avtomobilləri ilə daşınırdı. Hərbi sursat adi bağlamalarla gizlədilərək yük qoşqusunun arxasında aşkar edilmişdi. Bu fakt göstərirdi ki, Ermənistan hakimiyyət orqanları Gürcüstanın öz ərazisindən hərbi yüklərin daşınmasına qoyduğu qadağanı davamlı olaraq pozublar. Müharibə dövründə Ermənistanın baş naziri Nikol Paşinyan ölkənin tanınmış iş adamları ilə bir sıra görüşlər də keçirmiş, “Spayka” şirkətinin rəhbəri David Qazaryan da burada iştirak etmişdi. Sonradan məlum oldu ki, Paşinyan Qazaryandan Qarabağda həlak olmuş erməni əsgərlərin cəsədlərinin şirkətə məxsus soyuducu anbarlarda saxlanılması üçün xüsusi kömək istəyib. Şirkətin Qarabağ bölgəsində qanunsuz fəaliyyətinə dair ən dolğun və konkret məlumatlardan biri isə 2021-ci ilin mart ayında “Spayka”nın media üçün yaydığı açıqlamada öz əksini tapdı. Açıqlamada şirkətin fəaliyyət dairəsi, həyata keçirdiyi əməliyyatlar və bununla bağlı ictimaiyyətə təqdim olunan məlumatlar yer almışdı. Həmin məlumatlar təsdiqlədi ki, “Spayka” regionun logistikasında yalnız mülki məqsədlər üçün deyil, həm də hərbi-siyasi proseslərdə dolayı yollarla iştirak edib və Ermənistan hakimiyyətinin maraqlarını dəstəkləyib.

***Nəzrin ELDARQIZI***
***XQ***

### Ekspert rəyi



**Züriyyə QARAYEVA,**
**politoloq**

Rusiyada Ermənistanın “Spayka” şirkətinə məxsus təxminən 100 yük maşınının saxlanılması ilk baxışda texniki məsələ kimi görünə bilər. Amma rəsmi izahın verilməməsi və prosesin miqyası bu addımın arxasında siyasi motivlərin durduğu ehtimalını gücləndirir. “Spayka” şirkəti Rusiya bazarına çıxışda xüsusi rol oynayır. Onun fəaliyyəti yalnız iqtisadi yox, həm də geosiyasi əhəmiyyət daşıyır. Çünki Ermənistanın iqtisadi asılılığı böyük dərəcədə Rusiya ilə ticarət və nəqliyyat əlaqələrinə bağlıdır. Son aylar Ermənistan–Rusiya münasibətlərində gərginliyin artdığı müşahidə olunur. İrəvanın Qərbə yaxınlaşması, Avropa İttifaqı ilə əməkdaşlığın dərinləşdirilməsi, ABŞ və Fransa ilə təhlükəsizlik dialoqunu genişləndirməsi Moskvanın narazılığına səbəb olub. Bu fonda “Spayka” kimi strateji əhəmiyyətli şirkətə qarşı atılan addımlar Kremlin siyasi mesajı kimi dəyərləndirilə bilər. Yəni, Rusiya açıq siyasi bəyanatlar vermədən iqtisadi və logistik rıçaqlardan istifadə etməklə Ermənistana “xəbərdarlıq” göndərir. Bu hadisəni bir növ cəza mexanizmi kimi izah etmək mümkündür. Moskva göstərmək istəyir ki, Ermənistanın Qərblə yaxınlaşması onun iqtisadi maraqlarına və gündəlik fəaliyyətinə mənfi təsir edə bilər. Xüsusən də Ermənistan kimi kiçik iqtisadiyyata malik dövlət üçün logistika və nəqliyyat sahəsində yaranacaq hər hansı məhdudiyyətin böyük itkilərlə nəticələnməsi mümkündür. Bununla belə, rəsmi açıqlamanın olmaması Moskvanın İrəvana qarşı manevr imkanını saxladığını göstərir. Yəni Rusiya istəsə bu addımı “texniki səbəblərlə” əsaslandıra, yaxud İrəvana qarşı siyasi təzyiqin açıq simvolu kimi istifadə edə bilər. Hər iki halda hadisə Ermənistan üçün ciddi siqnaldır: Moskva iqtisadi rıçaqlardan siyasi məqsədlər üçün istifadə etməkdən çəkinmir.

# Azərbaycan – Türkiyə enerji əməkdaşlığı qlobal nümunəyə çevrilib

**Son illər Azərbaycan – Türkiyə münasibətləri, xüsusilə enerji sahəsində əməkdaşlıq regionun və Avropanın gələcəyini müəyyənləşdirən strateji tərəfdaşlığa çevrilib. "Bir millət, iki dövlət" prinsiplərinə əsaslanan və dövlət başçılarının qarşılıqlı inamla həyata keçirdiyi siyasət iki dost və qardaş ölkənin münasibətlərini tarixdə misli görünməmiş səviyyəyə yüksəldib.**



Bakı–Tbilisi–Ceyhan, TANAP, STAR kimi layihələrlə yanaşı, "yaşıl" enerji və yeni qaz ixrac istiqamətlərini əhatə edən bu tərəfdaşlıq ildən-ilə inkişaf edir, yeni məzmun kəb edir. Ölkələrimiz arasındakı əməkdaşlıq tarixi-mədəni bağlardan güc alaraq enerji sektorunda dünya miqyasında strateji nümunəyə çevrilib. Bu əməkdaşlıq regionun geosiyasi arxitekturasını dəyişməklə yanaşı, Avropanın enerji təhlükəsizliyinin də mühüm sütunlarından birini təşkil edir.

Azərbaycanın yeni neft strategiyasının banisi, ümumilli lider Heydər Əliyev qardaş Türkiyə ilə iqtisadiyyatın bütün sahələrində olduğu kimi, enerji sektorunda əməkdaşlığa da xüsusi önəm verirdi. Təsadüfi deyil ki, "Əsrin müqaviləsi" çərçivəsində hasil olunan xam neftin dünya bazarına çıxarılmasını nəzərdə tutan əsas ixrac boru kəmərinin Türkiyə ərazisi ilə çəkilməsi ideyası da məhz Ulu öndərə məxsusdur. Məhz onun qətiyyəti sayəsində "Üç dənizin əfsanəsi" adlandırılan Bakı – Tbilisi – Ceyhan layihəsi həyata vəsiqə qazandı. Azərbaycanın dünyaya açılan qapısı kimi dəyərləndirilən bu nəhəng neft ixracı marşrutu ölkəmizin enerji resurslarını dünya bazarına çıxarmaqda ilk böyük uğuru oldu. Bu layihə Azərbaycana iqtisadi sabitlik gətirdi, Türkiyəyə isə tranzit ölkə statusu qazandırdı.

Sonrakı illərdə isə "Şahdəniz" yatağının istismarına başlanılması və təbii qazın Gürcüstan və Türkiyə ərazisi ilə nəqlini nəzərdə tutan Cənubi Qafqaz boru kəmərinin istifadəyə verilməsi Azərbaycanın Türkiyə və Avropanın etibarlı qaz təchizatçısına çevrilməsinin əsasını qoydu. Bu addım Avropanın enerji xəritəsində ölkəmizi vacib oyunçuya çevirdi. 2018-ci ildə istifadəyə verilən Trans-Anadolu boru kəməri Azərbaycan qazını Türkiyə üzərindən Avropaya daşıyan ən mühüm infrastruktur layihəsi oldu. Eyni zamanda, bu kəmər Trans-Adriatik boru xətti ilə birləşərək Cənub Qaz Dəhlizini tam formalaşdırdı və ölkəmizin qlobal enerji bazarına çıxışını təmin etdi.

Sevindirici haldır ki, son illər yüksək inkişaf yolu keçmiş Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) artıq bütün dünyada fəal investor kimi tanınır. Şirkət hazırda Türkiyənin enerji sektorunun ən böyük xarici investoru sayılır. Qardaş ölkənin Əliğa bölgəsində açılan STAR Neft Emalı Zavodu SOCAR-ın xaricdə həyata keçirdiyi ən böyük layihədir. Zavod Türkiyənin daxili bazarının enerji təminatında mühüm rol oynayır və iki ölkə arasında sənaye inteqrasiyasını gücləndirir.

Bu ildən isə Azərbaycan – Türkiyə enerji əməkdaşlığı yeni mərhələyə qədəm qoyub. İğdır – Naxçıvan qaz kəmərinin istifadəyə verilməsi və Azərbaycanın qazının Suriyaya ixracı bunun ən bariz nümunəsidir. Bununla yanaşı, "yaşıl" enerji sahəsində birgə layihələr də müasir əməkdaşlığın əsas istiqamətlərindən birinə çevrilib.

Ümumilikdə isə, enerji əməkdaşlığının hər iki ölkə, eləcə də region və Avropa üçün iqtisadi və siyasi əhəmiyyəti olduqca yüksəkdir. Belə ki, artan enerji əməkdaşlığının fonunda Azərbaycanın ixrac coğrafiyası genişlənir, gəlirləri artır. Eyni zamanda, ölkəmizin etibarlı enerji tərəfdaşı kimi beynəlxalq nüfuzu getdikcə möhkəmlənir. Türkiyəyə gəldikdə isə, bu əməkdaşlıqdan faydalanan qardaş ölkənin enerji təhlükəsizliyi təmin edilir, daxili bazara əlavə mənbə daxil olur. Ən başlıcası isə Türkiyənin tranzit ölkə statusu güclənir. Nəhayət, region və Avropa ölkələri üçün enerji şaxələndirməsi, təhlükəsizlik və sabitlik möhkəmlənir.

### Ekspert rəyi



*İlham ŞABAN,*
*Neft Araşdırmaları Mərkəzinin rəhbəri*

Azərbaycan – Türkiyə enerji forumlarına və ümumilikdə, iki ölkə arasında mütəmadi xarakter alan enerji əməkdaşlığına nəzər salanda bir neçə mühüm məqamı vurğulamaq olar. Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, bu sahədə rəsmi əməkdaşlığımız 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi" ilə başladı. Həmin müqavilədə Türkiyənin TPAO şirkəti "Azəri-Çıraq-Günəşli" layihəsində iştirak etməklə ölkəmizin neft sənayesinə qoşuldu. Lakin əməkdaşlığın əsası bundan da əvvəl – 1992-ci ildə qoyulmuşdu. O zaman Azərbaycan müstəqilliyinin ilk illərində Türkiyə ilə neft məhsullarının ticarətinə başlamışdı: dizel yanacağı əvvəlcə dəmir yolu ilə Batuma, oradan isə tankerlərlə Trabzona göndərilirdi. Bu, Azərbaycanın qardaş ölkənin enerji tələbatını qarşılamaqda atdığı ilk addım idi.

Sonrakı illərdə Türkiyə şirkətləri təkcə hasilat deyil, həm də kəşfiyyat layihələrində iştiraklarını genişləndirdilər və bu sahədə daha fəal iştirak etmək niyyətlərini ortaya qoydular. Nəticədə, bu gün Türkiyə "Şahdəniz" kimi strateji əhəmiyyətli layihədə özünə layiq paya sahibdir. Bununla yanaşı, neft və qaz hasilatı ilə bağlı əməkdaşlıq infrastruktur sahəsinə də sirayət etdi. Bakı – Tbilisi – Ceyhan boru kəməri və digər layihələrdə Türkiyə şirkətləri həm podratçı, həm də səhmdar kimi çıxış etdilər.

İki ölkə arasında əməkdaşlığın yeni mərhələsi daha çox diqqət çəkir. İstanbulda keçirilən son enerji forumunda Türkiyənin energetika naziri Alparslan Bayraktar mühüm bəyanatlarla çıxış etdi. Onun vurğuladığı məsələlərdən biri Azərbaycan – Türkmənistan əməkdaşlığını əhatə edən "Dostluq" yatağı layihəsi idi. 2021-ci ilin yanvarında hökumətlərarası sazişlə təsdiqlənən bu layihəyə TPAO-nun da töhfə verməsi gözlənilir. Çünki əvvəllər bu sahəyə iddialı olan Rusiyanın "Lukoil" şirkəti 2022-ci ildə ciddi sanksiyalarla üzləşdiyindən və texnoloji imkanlarını itirdiyindən artıq burada iştirak edə bilmir.

Digər tərəfdən, Türkiyənin qısa müddətdə – cəmi üç il ərzində Qara dənizin dərinliklərindən qaz hasilatını reallaşdıraraq dünya rekorduna imza atması TPAO-nun bu layihədə də uğurlu iştirak potensialını göstərir. Bundan əlavə, şirkət Xəzərin dərin sularında yerləşən D-230 və "Şəfəq–Asiman" kəşfiyyat layihələrinə də maraq göstərir. Bütün bunlar yaxın və orta gələcəkdə Azərbaycan – Türkiyə enerji əlaqələrinin daha da güclənəcəyindən xəbər verir.

Göründüyü kimi, Azərbaycan – Türkiyə enerji əməkdaşlığı strateji xarakter daşımaqla yanaşı, gələcəyin qlobal enerji xəritəsində də mühüm yer tutur. Bu əməkdaşlıq həm iki qardaş ölkənin gücünü birləşdirir, həm də Avropanın enerji xəritəsini zənginləşdirir.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# 2026-cı ildə Dünya Şəhərsalma Forumu Azərbaycanda keçiriləcək

## *Ölkəmiz "ağıllı şəhər" və "ağıllı kənd" modelini dünyaya təqdim edəcək*

**Gələn il Bakı daha bir tarixi məsuliyyəti öz üzərinə götürəcək. Azərbaycanın paytaxtı 2026-cı ildə dünyanın urbanizasiya sahəsində ən nüfuzlu tədbirlərindən biri olan 13-cü Dünya Şəhərsalma Forumuna (WUF13) ev sahibliyi edəcək.**




Xatırladaq ki, 2023-cü ilin dekabrında Azərbaycan hökuməti ilə BMT arasında imzalanan saziş Bakının bu qlobal missiyanı üzərinə götürməsini rəsmiləşdirdi. Həmin gündən etibarən hazırlıqlar başlayıb və artıq BMT-nin məskunlaşma üzrə ixtisaslaşmış təşkilatı ilə sıx əməkdaşlıq çərçivəsində forumun proqramı, məzmunu və təşkilati məsələləri üzərində işlər aparılır. Mayın 18-dən 22-dək Bakının ev sahibliyi edəcəyi bu forum dünyanın müxtəlif qitələrindən gələcək mütəxəssisləri, dövlət nümayəndələrini, urbanistləri və ekoloqları bir araya gətirəcək.

Azərbaycan həm ekoloji, həm də şəhərsalma sahəsində öz liderlik iddiasını ardıcıl olaraq nümayiş etdirir. COP29-un Bakıda keçirilməsi ilə ekoloji gündəmi önə çəkən ölkəmiz WUF13 vasitəsilə davamlı şəhərlərin qurulması ideyasını da dünyaya təqdim edəcək. Bu iki qlobal platforma bir-birini tamamlayaraq Azərbaycanın strateji vizionunu ortaya qoyur.

Bakı isə bu vizionun canlı nümunəsidir. Tarixi İçərişəhəri müasir göydələnlərlə yanaşı, qorumağı bacaran paytaxtımız "ağıllı şəhər" və "ağıllı kənd" layihələri ilə yeni dövrün urbanizasiya modelini təqdim edir. 2026-cı ildə bütün dünyanın diqqəti məhz bu şəhərə – tarixin nəfəsini və müasirliyin ritmini birləşdirən Bakıya yönələcək.

Sentyabrın 4-də Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi Muxtar Babayev İzmir şəhərində təşkil edilən Azərbaycan–Türkiyə IV Enerji Forumunda çıxış edərkən bildirdi ki, Azərbaycan 2026-cı ilin mayında Bakıda keçiriləcək 13-cü Dünya Şəhərsalma Forumuna (WUF13) bütün dünyanı dəvət edir: "Biz ölkə olaraq bütün dünyanı bu mühüm tədbirdə iştirak etməyə çağırırıq. Məqsəd dayanıqlı urbanizasiya sahəsində yeni əməkdaşlıq imkanları yaratmaqdır. Türkiyənin dövlət qurumlarının, iş adamlarının və vətəndaş cəmiyyətinin bu forumda geniş təmsil olunması bizim üçün böyük qürur olacaq. Tədbir şəhərlərin qurulması və inkişafında yeni enerji həllərinin təqdim edilməsi üçün mühüm platforma olacaq".

Keçmişə ekskurs etsək görərik ki, 2022-ci ildə keçirilən Ümumdünya Şəhərsalma Forumu Polşanın Katovitse şəhərində "Daha yaxşı gələcək üçün şəhərlərimizi dəyişdirək" devizi ilə reallaşdırılıb ("WUF11"). Forum bundan əvvəl Barselona, Rio-de-Janeyro, Vankuver, Əbu-Dabi, Kuala-Lumpur və digər şəhərlərdə də baş tutub. Ayrı-ayrı illərdə iştirakçıların sayı 23 min nəfərə qədər yüksəlib. 2024-cü ildə isə Misirin paytaxtı Qahirədə ("WUF12") tədbir reallaşdırılıb.

Xatırladaq ki, forum Bakı Olimpiya Stadionunda keçiriləcək. Burada şəhərsalma, urban inkişaf və dayanıqlı şəhərlər mövzusunda dünyanın aparıcı mütəxəssisləri bir araya gələcək. İştirakçılar innovativ layihələri, müasir texnologiyaları və urban inkişaf təcrübələrini müzakirə etmək imkanı qazanacaqlar. Bununla yanaşı, 2026-cı ildə keçiriləcək qlobal tədbirə ev sahibliyinə hazırlıq ölkəmizin mövqeyini gücləndirir. Artıq Azərbaycanın söz sahibi olduğu istiqamətlər arasında ekologiya, iqlim dəyişikliyi ilə mübarizə və dayanıqlı inkişaf da yer alır. Bu sahədə atılan addımlar və qəbul edilən qərarlar isə gələcək üçün önəmlidir.

*Nurlan ABDALOV*
*XQ*

### Ekspert rəyi



*Elbay QASIMZADƏ,*
*Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri*

Bu gün dünyada əhalinin 52 faizi şəhərlərdə yaşayır. Proqnozlara görə, 2040-cı ildə bu göstərici 70 faizə çatacaq. Bu isə, ilk növbədə, qida təhlükəsizliyi baxımından ciddi təhlükədir. Çünki kənd təsərrüfatında, yəni qida istehsalında çalışan insanların sayı ildən-ilə azalır. Halbuki 19-cu əsrin əvvəllərində dünya əhalisinin cəmi 15 faizi şəhərlərdə, 85 faizi isə kəndlərdə yaşayırdı. Bu səbəbdən urbanizasiyanın idarə olunmasına böyük ehtiyac var.

Məhz buna görə də gələn il Bakıda keçiriləcək Şəhərsalma Forumu bu məsələlərin müzakirəsinə həsr ediləcək. Sual yaranır: niyə məhz Azərbaycanda? Çünki ölkəmiz bu sahədə artıq müəyyən təcrübə qazanıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə "Böyük Qayıdış" proqramı həyata keçirilir, məcburi köçkünlər doğma torpaqlarına qayıdırlar. 30 ildən artıq işğal dövründə onların böyük qismi Bakıda, Gəncədə və Sumqayıtda məskunlaşmışdı. İndi isə dövlətin genişmiqyaslı proqramı çərçivəsində həmin bölgələrdə yeni şəhərlər, qəsəbələr salınır, müasir infrastruktur qurulur, məktəblər, xəstəxanalar, uşaq bağçaları və iş yerləri yaradılır.

Bu proses sürətləndikcə şəhərlərdə müvəqqəti məskunlaşmış əhali öz yurdlarına qayıdacaq. Hazırda Azərbaycanda şəhərlərdə yaşayanların payı 54 faizdir ki, bu da dünya üzrə göstəricidən bir qədər yüksəkdir. Ancaq proqram tam icra olunduqdan sonra bu rəqəmin azalacağı, təbii balansın bərpa ediləcəyi gözlənilir. Çünki kənd təsərrüfatında çalışan insanların sayı əhalinin qida təminatı baxımından həlledicidir. Ən azı şəhərlərdə yaşayanlarla bərabər, hətta bir qədər üstün olmalıdır. Məsələn, 40 faiz şəhərlərdə, 60 faiz kəndlərdə yaşayan əhali daha optimal sayılır.

Azərbaycan bu istiqamətdə artıq mühüm təcrübə toplayıb və həmin təcrübə inkişaf etməkdədir. Ona görə də qarşıdakı forumun keçirilməsi üçün məhz ölkəmiz seçilib.

# Qazaxıstanda "Made in Azerbaijan" stendi

**Azərbaycanın 8 şirkəti məhsullarını Qazaxıstanın Almatı şəhərində təşkil olunan "KazBuild 2025" – 31-ci Beynəlxalq Tikinti və İnteryer Sərgisində "Made in Azerbaijan" adlı vahid ölkə stendində təqdim edir.**



İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) məlumatına görə, stenddə tikinti materialları, qoruyucu işçi ayaqqabıları, boyalar, su filtrləri, tikinti kimyəviləri və müxtəlif digər məhsullar nümayiş etdirilir. Ziyarətçilərə Azərbaycan istehsalının keyfiyyətini, müasir texnologiyalara əsaslanan istehsal imkanlarını və ixrac potensialını əks etdirən tanıtım materialları təqdim olunur.

Sərgi çərçivəsində yerli şirkət nümayəndələri ilə xarici tərəfdaşlar arasında görüşlər keçirilib, əməkdaşlıq perspektivləri və ixrac imkanları müzakirə edilib. Qeyd edək ki, "Made in Azerbaijan" stendi sərgi təşkilatçıları tərəfindən "Ən yaxşı kollektiv ekspozisiya" nominasiyasında qalib seçilib.

*XQ*

# İqtisadi artım proqnozları nikbinlik doğurur




**Niderlandın "ING" bank qrupu Azərbaycanda növbəti illər üçün ümumi daxili məhsulun (ÜDM) artımı ilə bağlı proqnozunu açıqlayıb. Sənədə əsasən, ölkə iqtisadiyyatının 2025 və 2026-cı illərdə 2,5 faiz artacağı, 2027-ci ildə isə artım tempinin 2 faizə enəcəyi gözlənilir.**

Bank qrupunun Azərbaycanın 2025-ci ilin son iki rübünə dair proqnozları da nikbindir. Qurumun hesablamalarına görə, ölkəmizin ÜDM artımı bu ilin üçüncü rübündə 2,5 faiz, dördüncü rübdə isə 4 faizə yüksələcək.

Qeyd edək ki, Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-may aylarında ölkədə 50 milyard manatdan çox ÜDM istehsal edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Hesabat dövründə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 3 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 3,9 faiz artıb.

ÜDM istehsalının 36,2 faizi sənaye, 9,9 faizi ticarət; avtonəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,2 faizi tikinti, 4 faizi kənd, meşə təsərrüfatı və balıqçılıq, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 21,7 faizi digər sənaye sahələri, 10,4 faizi isə məhsula və idxala xalis vergilərin payına düşür.

*XQ*

# MDB statistika qurumları Bakıda toplaşacaq

**24-26 sentyabr tarixlərində Bakıda III MDB Beynəlxalq Statistika Forumu keçiriləcək. Bu barədə MDB-nin İnternet portalı məlumat yayıb.**

Qeyd olunub ki, forumda milli statistika xidmətləri, dövlət qurumları və beynəlxalq təşkilatların nümayəndələri statistikanın inkişaf perspektivlərini, Milli Hesablar Sistemi 2025, əhali və mənzil siyahıyaalınması, həmçinin Dayanıqlı İnkişaf Məqsədlərinin monitorinqi ilə bağlı məsələləri müzakirə edəcəklər. İştirakçılar eyni zamanda informasiya texnologiyalarının tətbiqi və smart məlumatların inteqrasiyasının statistik layihələrin səmərəliliyindəki rolunu dəyərləndirəcəklər.

*XQ*

# Ağartı bazarı üzərində qara kölgələr

## *Məhsul artımı aşağıdır, keyfiyyət isə yüksək deyil*

**Azərbaycanda həyata keçirilən məqsədyönlü aqrar siyasət nəticəsində son illər ölkənin kənd təsərrüfatında müəyyən uğurlar əldə edilib. Yeni təsərrüfatçılıq modelləri tətbiq edilməklə heyvanların cins tərkibi yaxşılaşdırılıb, məhsuldarlıq artırılıb, heyvan mənşəli məhsulların istehsal həcmi çoxalıb, yem ehtiyatlarının yaradılması istiqamətində müəyyən layihələr reallaşdırılıb, örüş və otlaq sahələrindən səmərəli istifadəyə nəzarət gücləndirilib.**



Bütün bunlar heyvandarlıq və süd istehsalında müsbət trendlərin mövcud olmasını deməyə əsas verir. Statistik göstəricilərdə istehsalda nəzərəçarpan artımı – illik və qısamüddətli dövrlərdə süd hasilatında canlanma təsdiqləyir. Lakin yerli istehsal hələ daxili bazarı tam təmin etmir, idxal həcmində artım, istehlak normativlərinin aşağı düşməsi, emalda azalma, satış problemləri kimi amillər qarşıya qoyulan vəzifələrin gerçəkləşdirilməsini çətinləşdirir.

Mütəxəssislərin fikrincə, sadalanan çətinlikləri aradan qaldırmaq üçün strateji investisiyalar, infrastruktur, emal sahələrində yenilikçi yanaşmalar zəruridir. Fermerlər üçün əlverişli şəraitin yaxşılaşdırılması, otlaq və yem resursları istifadəsinin optimallaşdırılması, emal sənayesinə dəstək və bazar yönümlü keyfiyyət siyasəti respublikamızda süd sektorunu yeni səviyyəyə qaldıra bilər.

Süd istehsalında yaranmış mənzərə statistik göstəricilərdə də aydın nəzərə çarpır. Məsələn, kənd təsərrüfatında ümumi istehsal 2024-cü ildə 1,5 faiz artaraq 13 milyard manata yüksəlib. Bu dövrdə heyvandarlıq məhsullarında 1,7 faiz, bitkiçilikdə 1,1 faiz artım qeydə alınıb. Süd istehsalı isə 2,3 milyon ton (2023-cü illə müqayisədə 0,6 faiz çox) olub. Eyni zamanda, hər inəkdə orta süd hasilatı cins tərkibin yaxşılaşması və məhsuldarlığın artımı hesabına 2023-cü ildə 1746 kiloqramdan 2024-cü ildə 1834 kiloqrama yüksəlib.



Aparılan araşdırmalara əsaslanıb qeyd edək ki, respublikamızda gündəlik istehlak edilən məhsullar sırasında süd istehsalı xüsusi yer tutur. Marketlərdə satılan müxtəlif şirkətlərin qablaşdırılmış və pasterizə olunmuş süd məhsullarının həcmi davamlı şəkildə artır. Lakin heyvandarlıq sahəsində fəaliyyət göstərən fermerlər isə istehsal etdikləri südü satmaqda hələ də böyük çətinliklə üzləşir. Eyni zamanda, yerli istehsal həcmi daxili tələbi tam ödəməyə imkan vermir.

Ümumiyyətlə, yerli istehsal artımına baxmayaraq, bazar hələ də idxal asılılığını tam aradan qaldıra bilməyib. 2023-cü ilin ərzaq balansı məlumatlarına görə, ölkənin ümumi süd məhsulları ehtiyatı 2,8 milyon ton təşkil edib. Bunun yalnız 2,3 milyon



tonu daxili istehsal, 475 min tonu idxal, qalan hissə əvvəlki ilin ehtiyatı hesabına reallaşıb. Özünütəminetmə səviyyəsi isə 2014-cü ildəki 76 faizdən 2023-cü ildə 84 faizə qədər yüksəlib. Lakin bu göstərici Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) illik istehlak normasından (360 kiloqrama nisbətdə cəmi 61 faiz) geri qalıb. Yeri gəlmişkən, 2023-cü ildə adambaşına süd və süd məhsulları istehlakı isə 258 kiloqram (ÜST normasında nəzərdə tutulan 405 kiloqramın 63,9 faizi) olub. Başqa sözlə, yerli istehsal istehlak normasına çata bilməyib.

Dövlət Statistika Komitəsinin açıqladığı "Ev təsərrüfatları tədqiqatlarının yekunları" adlı məcmudə isə bildirilir ki, 2024-cü ildə Azərbaycanda adambaşına ən çox istehlak edilən qida süd və süd məhsulları olub. Sənədə əsasən hesabat dövründə ölkədə adambaşına 244,9 kiloqram (əvvəlki illə müqayisədə 1,5 faiz az) süd və süd məhsulları istehlak edilib.

Qeyd edək ki, yerli süd istehsalının idxal ilə rəqabətində keyfiyyət amili də zəifdir. Ağır iş şəraiti, resurs çatışmazlığı və infrastrukturun məhdud olması fermerlər üçün ciddi çətinliklər yaradır. Örüş və yem problem də ciddi narahatlıq doğurur. Bu məsələdə diqqətçəkən maneələrdən biri örüş və otlaq sahələrinin çatışmazlığıdır. İnsanların yaşayış yerlərindən köçü, infrastruktur çatışmazlığı və dağlıq relyef heyvandarlığı məhdudlaşdırır və süd istehsalına mənfi təsir göstərir.

Süd emalının nəzərdə tutulan səviyyədə təşkil edilməməsi də problemlər sırasında yer alır. Emal sənayesində azalma (məsələn, pendir istehsalının aşağı düşməsi) yerli fermerlər üçün satış kanallarının zəifliyini, istehsal olunan südün bazara tam çıxarılmamasını göstərir. Ümumiyyətlə, fermerlər istehsal etdikləri südü satmaqda çətinlik çəkir. Eyni zamanda, ölkə tələbatı yerli istehsalla tam qarşılanmır. İdxalın artması isə daxili istehsal gücünün tam istifadə edilmədiyini, yerli bazarda hələ də istifadə olunmayan imkanların gerçəkləşdirilmədiyini göstərir. Bu paradiqmanın yaranması sadəcə istehsalçının problemlərindən deyil, bazarın resurs dəstəyi, emal və paylama infrastrukturundakı vəziyyətdən irəli gəlir.

### Ekspert rəyi



***Samir HEYDƏROV,***
***iqtisadçı-ekspert***

Süd istehsalında yüksək nəticə əldə etmək üçün məhsuldar cins heyvanların yemləndirilməsi, xüsusi qaydada bəslənilməsi və saxlanılması bu sahədə prioritet istiqamətdir. Amma fərdi təsərrüfatlarda bu məsələ, eləcə də heyvanların identifikasiyası, məhsuldarlıq göstəricilərinin uçotu kağız formatında belə aparılmır. Digər heyvanlardan daha yüksək məhsuldarlıq göstəriciləri ilə fərqlənən südlük inəklərin ən azından sadə seleksiya üsulu ilə seçilməsi, onlardan alınan balaların ayrıca və daha yaxşı şəraitdə saxlanması yolu ilə damazlıq xəttin yaradılması da diqqətdən kənarda qalır. Yalnız son illərdə dövlət tərəfindən geniş tətbiq edilən subsidiyalar nəticəsində heyvanların süni mayalandırılmasına əhalinin marağının artması bu sahədə müəyyən nikbinlik yaratsa da, yerli heyvan sahiblərinin maarifləndirilməsi istiqamətində təbliğat və təşviqat işlərinin aparılmasına ciddi ehtiyac duyulur.

Fikrimcə, mövcud iri təsərrüfatlarda sözügedən sahədə müəyyən işlər görülsə də, ölkədə südlük maldarlıqda vahid damazlıq sisteminin qurulması, damazlıq işinin müasir qaydada təşkili və dayanıqlı inkişaf etdirilməsi üçün həm iri, həm də fərdi təsərrüfatlarda əsaslı tədbirlərin həyata keçirilməsi zəruridir.

Son illərdə fermerlərin məhsul satışında üzləşdiyi problemlərdən biri də südün kənardan gətirilməsi ilə bağlıdır. Belə ki, əvvəllər mövcud süd idxalı bazarı hazırda, necə deyərlər, bağlanıb. Azərbaycana bu məhsulun gətirildiyi ölkələrdən, məsələn, Rusiya, Ukrayna və Belarusdan idxal prosesi dayanıb. Əslində belə şəraitdə yerli südə və süd məhsullarına tələbat artmalı idi. Amma bizə məlum olmayan səbəbdən bazarda elə bir ciddi dəyişiklik nəzərə çarpmır və məhsul istənilən səviyyədə satılmır. Bu, hardansa bazara ucuz məhsulların daxil olması ilə bağlıdır. Amma iş burasındadır ki, həmin südün keyfiyyətindən də danışmaq mümkün deyil.

Belə şəraitdə fermerlər əlacsız qalıb südü maya dəyərindən də aşağı qiymətə təklif edir, amma müəssisələri razı sala bilmir. Alıcı müəssisələrdə bilməlidirlər ki, südün maya dəyəri getdikcə artır. Respublikada heyvan yemi əsasən idxal yolu ilə reallaşır. Xaricdə yem bahalaşırsa, deməli, ölkəmizdə də qiymət qalxır və bu məhsulun maya dəyərinin artması ilə nəticələnir. Amma fermerlər satış qiymətini artırmırlar və əvvəlki qiymətlə zavodlara təklif edirlər. Bununla belə alış yenə də zəifdir.

Burada narahatlıq doğuran digər bir məqam odur ki, Azərbaycanda istehsal olunan süd məhsullarının böyük hissəsi xaricdən gətirilən quru süddən əldə olunur. Bu isə yerli istehsalın mühüm bir hissəsinin də əslində idxal məhsulu olduğunu deməyə əsas verir. Amma burada təəccüb və təəssüf doğuran hal odur ki, ölkəyə gətirilən quru südə ucuz yağlar qatılmaqla keyfiyyətsiz məhsul əldə edilir. Başqa sözlə, quru südü yenidən südə çevirən zaman onun tərkibinə keyfiyyətli süfrə yağı əvəzinə marqarin vurulur. Belə süd isə insan oqranizmi üçün çox təhlükəlidir.

Düzdür, Qida Təhlükəsizliyi Agentliyi vaxtaşırı nəzarət tədbirləri çərçivəsində ölkəyə idxal olunan bir sıra qida, eləcə də süd məhsullarından götürülmüş nümunələrin laborator müayinəsi nəticəsində uyğunsuzluqlar aşkarlayır. Müəyyənləşdirilən konkret faktlar üzrə agentlik tərəfindən qanunamüvafiq tədbirlər görülür. Yeni Zelandiya, Çin, Özbəkistan, Rusiyadan idxal olunan süd məhsullarında aşkarlanan uyğunsuzluqlarla əlaqədar müvafiq sağlamlaşdırıcı tədbirlərin görülməsi üçün sözügedən ölkələrin aidiyyəti qurumlarına xəbərdarlıq məktubları ünvanlanır və qanunvericiliyə uyğun müvafiq tədbirlər görülür. Lakin təkcə bu halla süd bazarında üzləşilən çətinlikləri aradan qaldırmaq olmur.

### İstehsalda "düyün"

Azərbaycanda süd istehsalının artırılması sahəsində əsas məsələlərdən biri, məhsuldarlığın yüksəldilməsidir. Son illərdə hər inəkdən əldə olunan süd miqdarı artmaqdadır, lakin bu göstərici hələ də digər inkişaf etmiş ölkələrlə müqayisədə aşağı qalır. Azərbaycanda süd istehsalının artırılması üçün mal-qaranın cins tərkibinin dəyişdirilməsi, yüksək məhsuldar cinslərin istifadəsi vacibdir. Bu, həm də kənd təsərrüfatında daha çox rentabellik və yüksək gəlir əldə etməyə imkan yaradır.

Müasir mərhələdə süd istehsalını artırmaq və emalını təkmilləşdirmək üçün sahələrarası əlaqələrin gücləndirilməsi vacibdir. Klasterlərin (istehsal güclərinin birləşməsi) yaradılması süd istehsalı və emalı sahəsində bazar iştirakçıları üçün iqtisadi cəhətdən sərfəlidir, çünki onlar məhsul istehsalının həcmini artırmağa, istehsal münasibətlərini təkmilləşdirməyə və gəlirlərin düzgün bölüşdürülməsinə şərait yaradır. Bununla yanaşı, aqrar sığorta mexanizminin tətbiqi və heyvanların sığortalanması məsələləri də bu sahənin inkişafı üçün önəmlidir.

Ümumiyyətlə, ölkədə süd və süd məhsullarının istehsalını artırmaq mümkündür, lakin bu, təkcə yüksək məhsuldar inəklərin cins tərkibinin dəyişdirilməsi və müasir aqrar texnologiyaların tətbiqi ilə bağlı deyil. Bu məsələdə süd istehsalı və emalı klasterlərinin yaradılması da sözügedən sahədəki problemlərin aradan qaldırılmasına töhfə verə bilər. Azərbaycanda bu sahədəki imkanlardan düzgün istifadə olunması ölkənin ərzaq təhlükəsizliyini gerçəkləşdirmək və iqtisadiyyatı gücləndirmək baxımından mühüm addım olacaq.



Kənd təsərrüfatı elmləri namizədi Esmira Lətifovanın sözlərinə görə, heyvandarlıqda, daha konkret ifadə edilsə, südçülükdə damazlığın diqqətdə saxlanılması da əsas şərtlərdən biridir. Belə ki, ölkədə yüksək məhsuldar heyvanların yetişdirilməsi, mövcud cinslərin yaxşılaşdırılması, yeni və daha səmərəli cinslərin yaradılması ilə süd istehsalını artırmaq olar. Bu zaman damazlıq cins heyvanların sənaye üsulu ilə saxlanılması üçün onlar yüksək adaptasiya xüsusiyyətlərinə malik olmalı, süd və ət istehsalında tətbiq edilən avtomatlaşdırılma, eləcə də mexanikləşdirilmə sənaye texnologiyasının tələblərinə cavab verməlidir.

Alimin fikrincə, damazlıq işi hər bir ölkənin milli qanunvericiliyinə müvafiq olaraq hüquqi-normativ sənədlərə əsasən, dövlətin nəzarəti ilə çoxşaxəli damazlıq təsərrüfat və qurumları tərəfindən həyata keçirilir. Çoxlu sayda südlük – damazlıq təsərrüfatlarının mövcudluğuna baxmayaraq dövlət dəstəyi olmadan bu istiqamətdə fəaliyyət göstərən qurumların heç də hamısı seleksiya işlərinin aparılmasında maraqlı deyil. Seleksiyanın aparılmasında yalnız o təsərrüfatlar maraqlıdır ki, onlar damazlıq heyvan satmaq və bu yolla daha çox gəlir əldə etmək imkanına malikdir.

Bu sahədə dövlətin rolu əsasən bazarda mövcud olan bütün iştirakçıların (istehsalçılar, emalçılar) fəaliyyətini koordinasiya etmək, onların səmərəli fəaliyyətini gerçəkləşdirmək, eləcə də südlük – heyvandarlıq sektorunun əsas iştirakçıları sayılan süd istehsalçılarına kömək göstərməkdən ibarətdir. Müxtəlif ölkələrdə dövlət tənzimlənməsi özünəməxsus şəkildə həyata keçirilir və inkişaf strategiyası, eyni zamanda milli maraqları nəzərə alınmaqla fərqli yanaşma tətbiq edilir.

Azərbaycanda damazlıq işi 1990-cı ilədək, yəni sosialist sistemi dağılana qədər SSRİ-nin digər respublikalarında olduğu kimi, kollektiv təsərrüfatlarda və dövlət damazlıq müəssisələrində həyata keçirilirdi. Respublikada mövcud olan təsərrüfatların cins mal-qara ilə təmin edilməsi əsasən Rusiyanın müxtəlif regionlarından, Ukrayna və Pribaltika respublikalarından yüksək məhsuldar damazlıq cins heyvanların gətirilərək zootexniki fəaliyyətə uyğun şəkildə təmizlikdə yetişdirilməsi yolu ilə reallaşdırılırdı.

Kənardan gətirilən damazlıq heyvanların məhsuldarlıq və damazlıq keyfiyyətlərinin qorunub saxlanması və sonrakı nəsillərə ötürülməsi üçün onlar əsasən yem bazası və saxlanma şəraiti daha yaxşı olan kolxoz və sovxozlara, eləcə də dövlət damazlıq müəssisələrinə verilirdi və bu təsərrüfatlarda həmin heyvanlardan yüksək göstəricilər əldə olunurdu. Dövlət damazlıq müəssisələrində yetişdirilən cins heyvanlar, eyni zamanda, əhaliyə satılmaq üçün istifadə edilirdi.

Müstəqillik dövründə isə damazlıq işi Azərbaycan Prezidentinin 2008-ci il 21 avqust tarixli "Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi barədə" Sərəncamı ilə yeni mərhələyə daxil olub. Bundan sonra tətbiq edilən qaydalara əsasən ölkəyə yenidən digər ölkələrdən, xüsusilə də Avropadan məhsuldar cins inəklərin idxalına başlanıb. Eyni zamanda, dövlət damazlıq müəssisələri ilə yanaşı, respublikaya gətirilən məhsuldar cins heyvanlar hesabına yeni özəl südçülük təsərrüfatları yaradılıb. Bu istiqamətdə digər önəmli layihələr də gerçəkləşdirilib.

Mütəxəssislər bildirirlər ki, südlük maldarlıqda damazlıq məsələləri daim diqqətdə saxlanılmalı, beynəlxalq təcrübədən yararlanmağa üstünlük verilməlidir. Eyni zamanda, inkişaf etmiş ölkələrdən fərqli olaraq respublikamızda fərdi, ailə – kəndli və ev təsərrüfatlarında damazlıq – seleksiya işləri aparılmalıdır.

***Vaqif BAYRAMOV***
***XQ***

*Zaman şifrələri açır*

# Çarizmin Azərbaycana dini üsullarla nəzarəti

## *Hakim dairələrin etimad şifrələri: "Fanatik deyil", "rusca savadlıdır", "ermənilərin razılığı var"...*

**XIX əsrin sonu və XX əsrin əvvəli Azərbaycanda milli oyanış və maarifçilik hərəkatının genişlənməsi Rusiya imperiyasının müstəmləkəçilik siyasətində siyasi-inzibati üsullarla yanaşı, dini və hüquqi institutların nəzarətinin güclənməsi ilə də cavablandırılırdı. Çarizmin hakim dairələri, bir tərəfdən, bütün idarəetməni mərkəzləşdirir, digər tərəfdən isə müsəlmanların gündəlik həyatında mühüm rol oynayan şəriət məhkəmələrini formal olaraq yaşadırdı.**

O zaman şəriət məhkəmələrində qazı olmaq üçün müraciət edənlərin arxivlərdə qalmış məktubları, cavabsız qoyulmuş xahişləri, "fanatik deyil" və "rus dili savadı var" kimi qiymətləndirmələr imperiyanın əsl niyyətini açır: din institutlarını da siyasət alətinə çevirmək, xalqımızı əlavə bir nəzarətə də məruz qoymaq. Naxçıvan Dövlət Arxivində üzə çıxardığımız sənədlər XIX əsrin sonu – XX əsrin əvvəllərində Naxçıvanda qazı təyinatlarının hansı "ölçü cihazları" ilə idarə olunduğunu aydın göstərir.

Müraciətlərin qiymətləndirilməsi zamanı kiminsə "fanatik deyil" kimi qələmə verilməsi, "rus dili savadı"nın müsbət keyfiyyət sayılması, "ermənilərin razılığı var" məzmunlu qeydlər, "gerb markası" (ştamp rüsumu) kimi incə bürokratik filtrlər şəxsi talelərə münasibəti ifadə etmir, ümumiyyətlə, çar administrasiyasının müsəlman dini idarəçiliyinə ciddi nəzarət siyasətinin də mahiyyətini açır.

### Etimadsızlıq ədalətsizlikdən qaynaqlanırdı

Çar Rusiyası hər zaman var qüvvəsi ilə "dişini qıcıdığı" Cənubi Qafqazda, xüsusilə də Şimali Azərbaycanda 1840-cı ildə yeni inzibati-ərazi və məhkəmə islahatları həyata keçirmişdir. Həmin ilin 10 aprel tarixində çar I Nikolay tərəfindən "Qafqaz diyarının idarə olunması üçün təsisat" adlı inzibati-məhkəmə islahatını nəzərdə tutan layihə təsdiq edilmiş və qanuni qüvvəsini almışdır.

I Nikolayın 21 mart 1828-ci il tarixli əmri ilə Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan xanlıqları "erməni vilayəti" adlı bir inzibati bölgüdə birləşdirilmişdisə, həmin inzibati-məhkəmə islahatından sonra göstərilən vilayət ləğv edilmiş, onun yerinə İrəvan və Naxçıvan qəzaları yaradılmış, Naxçıvan qəzası Gürcüstan-İmeretiya quberniyasının tərkibinə qatılmışdır.

İslahatlar nəticəsində ölkəmizdə əsrlərdən bəri mövcud olan məhkəmə sistemi bütövlüklə rus məhkəmə sistemi ilə əvəz edilmişdi. Belə ki, islahatlara görə rus dilində fəaliyyət göstərən qəza məhkəmələri, eləcə də quberniya və vilayət, cinayət və mülki məhkəmə palataları yaradılmışdı.

Həmin dövrdə Naxçıvanda fəaliyyət göstərən qəza məhkəməsi əsasən notarial, əmlak, mülki, torpaq, oğurluq və ümumiyyətlə, polis orqanları tərəfindən daxil olmuş cinayət işlərinə baxmaq funksiyasını yerinə yetirirdi. Naibin başlıca vəzifəsi şikayətə baxmaq və əhali arasında mübahisə, dalaşma işləri ilə qanun üzrə məşğul olmaq idi.

10 aprel 1840-cı il tarixli qanun Cənubi Qafqazda, o cümlədən Azərbaycanda 1841-ci ilin əvvəllərindən tətbiq olunmağa başlanıldı. Həmin qanun dini məhkəmələrə də əhəmiyyətli səlahiyyətlər vermişdir. Belə ki, müsəlmanlar şəriət qaydaları əsasında müəyyən mülki işlərini həll edə bilərdilər.

1849-cu ildə İrəvan quberniyası təşkil edildi, Naxçıvan və Ordubad qəzaları bu quberniyaya verildi. İrəvan quberniyasının tərkibinə həmçinin, İrəvan, Aleksandropol, Yenibəyazid və Şərur-Dərələyəz qəzaları da daxil idi. Bu dövrlərdə şəriət məhkəmələrinin səlahiyyətləri məhdudlaşdırılsa da, hətta XIX əsrin sonlarında, eləcə də XX əsrin əvvəllərində belə müsəlmanlar öz mülki mübahisələrinin həllində qazılara üz tutur, dini işlər üzrə ədalət mühakiməsi məhz qazılar tərəfindən həyata keçirilirdi. Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da qazılar fəaliyyət göstərmişdir.



Arxiv sənədlərinin araşdırılması nəticəsində XIX əsrin sonu, eləcə də XX əsrin əvvəllərində Qafqazda və xüsusilə Naxçıvanda fəaliyyət göstərmiş olan bir neçə qazının adı, qazı olmaq arzusunda olan dindarların bəzilərinin şəxsiyyətlərinə dair maraqlı məlumatları, habelə həmin dövrdə qazı olmaq üçün prosedur qaydaları əldə etmişik. Maraqlıdır ki, qazı olmaq üçün bəzi dindarların ünvanladıqları ərizələr müxtəlif səbəblər göstərilərək təmin olunmamış, bəzilərinin barəsində verilmiş xasiyyətnamələrdə isə onların fanatik olmamaları, xüsusilə bölgədə yaşayan ermənilər tərəfindən rəğbətlə qarşılanmalarının müsbət hal kimi qiymətləndirilməsi göstərilmişdir.

### Kimlərə inanır, etibar edirdilər?

Arxivdə bir neçə iş açıq nümunədir. Eçmiədzin qəzasının Təkin məhəllə mollası Axund Əbdül Həsən Qazizadə haqqında rəylərdə onun "rus dili savadı" və "xidmət maraqları üçün xeyirli olması" vurğulanır və Ordubad qəza qazısı vəzifəsinə təsdiqi verilir. Bir neçə il sonra eyni din xadimi səhhət səbəbindən yerdəyişmə istəyəndə ondan rüsum üçün "hər biri 75 qəpik dəyərində iki gerb markası" tələb edilir, rüsum ödənmədiyinə görə ərizəsi "hərəkətsiz saxlanılır". "Uyğun kadr" meyarı ilə "uyğun ödəniş" mexanizmi bir-birini tamamlayırdı.

1912-ci ildə Ordubad sahəsi üzrə Hacı Mirzə Lütfulla Molla Hacı Məmməd oğlu "Axund" dərəcəsi üçün keçdiyi imtahanların geniş proqramını – Quran mətnlərinin izahı, ilahiyyat, mirasın bölünməsi və qazının qərar tərtibi daxil olmaqla — təqdim edir və təyinata təsdiq alır. Bu, mərkəzin tələb etdiyi "sənədləşdirilmiş səriştə" modelinin tipik nümunəsidir. Paralel olaraq, imperiya kontekstində şəriət məhkəmələrinin (xüsusən ailə-mülki dairədə) saxlanılması, amma onları rəsmi ruhanı idarələri vasitəsilə "çarpaz nəzarətdə" tutmaq siyasəti geniş təsvir olunub.

Ən kəskin faktlardan biri Tiflis-Kutaisi Şiə Quberniya Məclisinin üzvü Axund Mirzə Əbdül Cabbar Mirzə Əbdül Həsənzadə ilə bağlıdır: Naxçıvan qəza qazısı vəzifəsi üçün ardıcıl müraciətlərinə "vəzifə baş qərargahın 'layiqli' şəxsi tərəfindən tutulduğundan…" cavabı verilir; faktiki olaraq "uyğun görülməməsi" səbəbi ilə proses bağlanır. Vənənd–Dırnıs mollası Molla Məmməd Bağır Axundzadə Ordubad qazılığına iddia edərkən Quberniya Məclisinin rəyi "təcrübəsizdir və kargüzarlığı bilmir" izahı ilə mənfi olmuşdur. Ordubad sakini Molla Mir Yəhya Səməndərzadə barədə "məhəllə mollası adının attestatı olsa belə, məhəllə mollası kimi görünməmişdir" qeydi ilə müraciət geri çevrilir – arxiv ifadəsinin özü mərkəzin "kim görünür, kim görünmür" səlahiyyətini rəsmi dilə çevirir.

Naxçıvanda vəba illərində "bir gündə 20–30 dəfn" kimi ağır işlərin altına girən Molla Əli Hüseynzadənin uzun xidmətini sadalayan müraciəti də rədd edilir. Keştaz məhəllə mollası Hacı Molla Həmid Axundzadə üçün toplanmış rəydə "yaxşı əxlaq, fanatik deyil, zərərli sektaya mənsub deyil" kimi "pozitiv" ştrixlər var. Təəssüf ki, arxivdə bu işdə saxlanılan başqa sənədlərə rast gəlmədiyimizdən onun qazı təyin olunub-olunmadığını bilmədik.

Ən "siyasi" sətirlər isə budur: Ordubadda Seyid Hacı Mir Həşim haqqında "dini təhsili yoxdur, müsəlman fanatikliyindən kənardır, hətta ermənilərin rəğbətini qazanmışdır" deyə vurğulanır və ona müvəqqəti icra həvalə edilir – şəriət biliyi yoxluğu belə maneə sayılmır, "siyasi uyğunluq" üstün meyara çevrilir. Göründüyü kimi, seçim meyarlarının "sözlüyü" belə olub: "fanatik deyil", "rusca savadlı", "rüsum ödənilibmi?"

Beləliklə, Çar Rusiyasının ideologiyasına xidmət edən maneələri ümumiləşdirib aşağıdakı kimi qruplaşdıra bilərik:

1. İdeoloji-təhlükəsizlik filtri. "Fanatik deyil", "zərərli sektalara mənsub deyil" və "ermənilər tərəfindən rəğbətlə qarşılanır" kimi qiymətləndirmələr namizədin imperiya baxımından "təhlükəsiz profil"ə salınmasını hədəfləyirdi.

2. İnzibati-səriştə filtri. "Kargüzarlığı bilmir", "təcrübəsizdir" və ya tam əksi– "rus dili savadı vardır" — kimi qeydlər kimin "idarə oluna biləcəyini" müəyyən edirdi.

3. Maliyyə-bürokratik filtri. Məzmunu cüzi görünən, amma mexanizmin "dişlisini" hərəkətdə saxlayan gerb markaları və rüsumlar təyinat prosesinin real tənzimləyicisinə çevrilirdi.

Bu filtrlərin hamısı 1872-ci il Ruhani Əsasnamə ilə qurulan Zaqafqaziya Şiə/Sünni Ruhani Məclislərinin çətiri altında işləyirdi: ruhaniliyin dövlətlə müqaviləli "institusionallaşdırılması" bir tərəfdən şəriətin ailə–mülki dairədə məhdud qənaətlə yaşamasına imkan verir, digər tərəfdən isə təyinat üzərində mərkəzi nəzarəti təmin edirdi.

Hüquqi-inzibati fon: şəriət məhkəməsi saxlanılır, suverenlik "bölüşdürülür". Qeyd edək ki, islahatlar dönəmində Çar administrasiyası Qafqazda qazı institutunu tam aradan qaldırmadı; əksinə, onu ailə, nikah-boşanma, miras və başqa mülki münasibətlərdə "tanınmış" səlahiyyət sahibi kimi saxlayıb, imperiya məhkəmə nizamı ilə paralel tətbiq etdi. Bu modelin məntiqi və praktikası həm hüquq tarixində, həm də yeni açılan arxiv toplusunda ətraflı şəkildə açıqlanır.

Bütün bunlar 1840-cı il tarixli inzibati-məhkəmə aktının, 1849-cu il tarixli İrəvan quberniyasının təşkili qaydalarının və 1872-ci il tarixli Ruhani Əsasnamənin çərçivəsində baş verirdi. Yəni, "yerli adət-ənənə" adı ilə saxlanılan şəriət sahəsi, əslində, imperiya içində idarə olunan məhdud muxtariyyət idi.

Sonda belə bir nəticəyə gələ bilərik ki, Naxçıvan Dövlət Arxivində aşkar etdiklərimiz mikro-tarix deyil, imperiya siyasətinin yerli portretidir: siyasiləşmiş "yaraşıqlı" xasiyyətnamələr, rəsmi rituallar, maliyyə rüsumları və qeyri-müəyyən "vakant deyil" cavabları. Bu mexanizmlər qazını ictimai nüfuzun təbii təmsilçisi yox, mərkəzin seçilmiş tərəfdaşı kimi formalaşdırırdı.

Müasir tədqiqatlar göstərir ki, Rusiya imperiyası müsəlman ruhaniliyini "təsbit edib" onunla işləməklə həm legitimlik qazanır, həm də potensial müxalif dini avtoritetləri kənarda saxlayırdı.

***Yunis XƏLİLOV,***
***NDU ümumi hüquq kafedrasının müəllimi***

**Xuntaçıların məhkəməsi**

# Təqsirləndirilən ermənilər əməllərini boyunlarına alıblar





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 5-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası təqsirləndirilən şəxs Levon Balayanın cinayət işi üzrə ibtidai istintaqa verdiyi ifadələrin və ona aid elan olunan digər sənədlərin səsləndirilməsi ilə davam etdirilib.

Onun ibtidai istintaqa verdiyi ifadələrə əsasən, 1995-ci ilin yanvarında hərbi xidmətə yollanıb, 1998-ci ilədək Şuşada, Xankəndidə və Xocalıda yerləşən, nömrələrini xatırlamadığı hərbi hissələrdə əsgər kimi xidmət edib. O, 44 günlük müharibənin ilk günlərində, yəni, sentyabrın 27-dən oktyabrın 2-dək Suqovuşan qəsəbəsi ərazisində dislokasiya olunmuş "3-cü müdafiə xətti"ndə silahlı birləşmənin tərkibində döyüşlərdə iştirak edib. L.Balayan 2023-cü il mayın 1-də Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərində Ruben Vardanyan tərəfindən yaradılmış və maliyyələşdirilən silahlı birləşmələrdən birinə qoşulub. Sentyabrın 20-də Azərbaycan hərbçiləri tərəfindən saxlanılıb.





Daha sonra məhkəmə prosesinə sədrlik edən hakim təqsirləndirilən şəxslərin hamısının – 15 nəfərin ibtidai istintaqa ifadələrinin elan olunmasının başa çatdığını bildirib. O, təqsirləndirilən şəxslərə ibtidai istintaq və məhkəmə istintaqında verdikləri ifadələrində ziddiyyətlərin olub-olmadığı, elan edilən ifadələrlə razılaşıb-razılaşmamaları barədə sualların ünvanlanacağını deyib.

Təqsirləndirilən Levon Balayan, Melikset Paşayan, Qurqen Stepanyan kiçik istisnalarla ibtidai istintaqdakı ifadələrini təsdiqlədiklərini deyiblər. Madat Babayan və Qarik Martirosyan ibtidai istintaq zamanı verdikləri ifadələri tam təsdiqləyiblər. Qurqen Stepanyan, Davit Allahverdiyan, həmçinin Erik Qazaryan və Vasili Beqlaryan məhkəmə istintaqı zamanı verdikləri ifadələrini təsdiqlədiklərini bildiriblər. Davit Manukyan məhkəmə istintaqı zamanı verdiyi ifadəsinin nəzərə alınmasını xahiş edib.

Təqsirləndirilən Arkadi Qukasyan da onun ibtidai istintaqda deyil, məhkəmə istintaqı zamanı verdiyi ifadəsinin nəzərə alınmasını xahiş edib. Levon Mnatsakanyan elan olunan ifadəsinin müəyyən hissələri ilə razılaşmadığını qeyd edib. Bako Saakyan və Arayik Harutyunyan da məhkəmə istintaqı zamanı verdikləri ifadələrinin əsas götürülməsini hakimlər kollegiyasından xahiş ediblər. David Babayan müdafiəçisi ilə konfidensial görüş keçirdikdən sonra elan olunmuş və ibtidai istintaqda verdiyi ifadəsinə növbəti məhkəmə prosesində münasibət bildirməyə şərait yaradılmasını xahiş edib.

Məhkəmə iclasına sədrlik edən hakim təqsirləndirilən şəxsin vəsatətini nəzərə alaraq, növbəti prosesdə ifadəsinə münasibət bildirmək üçün ona imkan yaradılacağını bildirib.

Məhkəmə prosesi sentyabrın 8-də davam etdiriləcək.

***XQ***

*6 Sentyabr Beynəlxalq Kitaboxuma Günüdür*

# Çox yaşayan çox bilməz, çox oxuyan çox bilər

## *Oxucular kitabsız, kitablar oxucusuz qalmasın!*



**Böyük fransız yazıçısı Viktor Hüqo deyirdi: "Bəşəriyyətin ən dəyərli kəşfi məhz kitabdır." Bu sözlərin zamanın axarında dəyəri azalmayıb, əksinə, qloballaşan dünyada daha dərin məna qazanıb.**

Kitab insan ruhunun sirdaşı, düşüncənin pəncərəsi, qaranlıq yolların işığıdır. Təəssüf ki, müasir cəmiyyətdə insanların əksəriyyəti kitabdan uzaqlaşır. İndi əlində kitabla saatlarla vaxt keçirən insanla nadir hallarda rastlaşırıq. Gəlin, məsələ ilə bağlı sosial, psixoloji və texnoloji amilləri nəzərdən keçirək.

Sürətlə dəyişən dünyada fasiləsiz informasiya axını və üstün texnoloji vasitələr diqqətimizi yayındırır, dərin düşünmə və təhlil üçün vacib olan zamanı əlimizdən alır. Kitab oxumaq vaxt, səbr və daxili maraq tələb etdiyi üçün sosial baxımdan arxa planda qalır. Nəticədə, oxu vərdişlərinin formalaşmasına və intelektual-mədəni inkişafın sürətlənməsinə əngəl yaranır.

**Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov XQ-yə bildirdi ki, müatilə cəmiyyətin tərbiyəsində əsas vasitədir:**

– Çap kitablarına nostalji bağlılığı olan, kağızın qoxusunu və toxunuşunu sevən oxucuların sayı azalıb. Uzun, diqqət tələb edən oxu prosesindən uzaqlaşan insan səthi məlumatla kifayətlənir və analiz qabiliyyəti zəifləyir. Lakin kitab oxumaq vərdişi heç vaxt tamamilə itmir, sadəcə, dövrün tələblərinə uyğun olaraq dəyişir. Bu, kitaba marağın azalması deyil, əksinə, onun fərqli müstəvilərdə inkişafıdır. Çünki kitab – istər toxunula bilən səhifələrdə, istərsə də virtual ekranda yenə də insanın düşüncə sərhədlərini genişləndirən vasitələrdəndir. Milli Kitabxananın həm real, həm də virtual oxucularının sayının ildən-ilə artması da təsdiqləyir ki, insanın mütaliə ehtiyacı dəyişmir, yalnız ifadə formaları yenilənir. Sadəcə məqsəd öyrənmək, anlamaq, inkişaf etmək olmalıdır.

Çap kitablarına marağın azalması insan ruhuna gözəgörünməz, amma kəskin zərbə vurur. Dərin düşüncələrə dalmaq, sözlərin sehrinə qapılmaq əvəzinə, qısa, səthi və sürətli məlumatla kifayətlənən insanın xəyalı, sanki, boşluğa yönəlir. Səbəb dəyişən zamandır, yoxsa susqun laqeydlikdir?

**"Qanun" nəşriyyatının rəhbəri Şahbaz Xuduoğlu bu sualın cavabında qeyd etdi ki, oxu mədəniyyətinin zəifləməsi sırf zəmanənin reallığı ilə əlaqələndirilə bilməz:**

– Ümumi əhali miqyasında baxanda, əlbəttə, kitab oxuyanların sayı nisbətən azdır. Rayon və ucqar bölgələrdə sərgilərin təşkili, kitabların əhəmiyyəti barədə müzakirələrin aparılması, ictimaiyyətdə kitaba olan marağın formalaşdırılması gərəkdir. Gəncləri oxumağa cəlb etmək üçün onların toplandığı məkanları nəzərə almaq lazımdır: universitetlər, məktəblər və digər təhsil müəssisələri bu prosesin mərkəzi olmalıdır.

Həmin müəssisələrdə kitabxana infrastrukturu tam funksional, rahat və maneəsiz xidmət göstərməlidir. Təəssüf ki, hətta universitet kitabxanalarının qapıları illərlə bağlı qalır, bu isə gənclərin kitablara olan marağını söndürür. Əslində məqsəd sadədir: oxumaq üçün heç bir praktiki və psixoloji əngəl qalmasın, hər gənc kitabın sehrli aləminə rahatlıqla qovuşa bilsin.

Son illərdə kitabxanaların fəaliyyəti müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində xeyli təkmilləşdirilib. Elektron kataloqlar və məlumat bazaları oxuculara sürətli, sistemli və avtomatlaşdırılmış xidmət göstərməyə imkan verir. Bu yeniliklər sayəsində oxucu istədiyi kitabı bir neçə dəqiqə ərzində sifariş edə bilir. Elektron bilet sistemi vasitəsilə avtomatik qeydiyyatdan keçərək kitabın yerləşdiyi zalı müəyyənləşdirir ki, bu da kitabxana xidmətlərinin əlçatanlığını xeyli artırır və resursların səmərəli istifadəsini təmin edir.

Əslində, problem isə daha mürəkkəbdir: cəmiyyətin intellektual fəaliyyətləri qiymətləndirmə meyarları, vizual və sürətli informasiya kanallarına üstünlük verməsi kitaba marağı öldürür. Bu məqamda ailələrin rolu ön plana çıxır. Valideynlər övladlarına oxumağın vacibliyini anlatmasa, onları kitab dünyasına aparmasa elektron kataloqların imkanları da yetərli olmur, kitab sevgisi texnologiya vasitəsilə yox, ən çox sevdiklərinlə birgə seçilən səhifələrdə formalaşır.

**"Əli və Nino" kitab mağazaları şəbəkəsinin təsisçisi Nigar Köçərlinin sözlərinə görə, valideynlərin kitaba münasibəti, evdə yaradılan oxu mühiti və uşağın kitabla ilk tanışlığı onun gələcək oxu vərdişini müəyyən edir:**

– Təsəvvür edin ki, bir ailədə valideynlər qiraət məsələsinə böyük diqqət ayırır, uşağa daim oxumağın vacib olduğunu izah edir, onları kitabxanaya aparır, həvəslə kitab seçirlər. Başqa ailədə isə heç zaman kitab haqqında danışılmır evdə böyük kitabxanaları var. Necə düşünürsüz, hansı ailədə uşaq kitabı daha çox sevəcək? Cavab mübahisəsizdir, evdə mütləq kitabxana olmalı və mütləq kitab oxunmalıdır.

Sürət, səs-küy bizi kitabların bilik və hikmətlə dolu dünyasından aralı salsa da, bu mənəvi xəzinədən uzaq düşməməliyik. Bu yerdə Çingiz Aytmatovun deyimi yada düşür: "Yoxsulların evində böyük televizor, zənginlərin evində böyük kitabxana var".

***Fidan ƏLİYEVA***
***XQ***

# Naxçıvan alimlərinin yeni kitabları



**AMEA Naxçıvan Bölməsində 2 yeni elmi nəşrin – AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Əbülfəz Quliyevin "Qədim uyğur türkləri: abidələr, dil, ədəbiyyat", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, dosent Nuray Əliyevanın "Naxçıvan şivələri"( II clddə) kitablarının təqdimatı keçirilib.**

Mərasimdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev dil və ədəbiyyat sahəsində aparılan tədqiqatların əhəmiyyətindən danışıb. Təqdim olunan nəşrlərin türkologiya və dialektologiya sahələrinə mühüm töhfə olduğunu vurğulayan, onları ümumi təhlil edən İsmayıl Hacıyev çıxışının sonunda müəllifləri ərsəyə gətirdikləri yeni kitablar münasibətilə təbrik edib.

Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Rzayev "Naxçıvan şivələrinin öyrənilməsində yeni səhifə", filologiya elmləri doktoru, dosent Nuray Əliyeva "Türkologiya elminə yeni töhfə", həmin institutun əməkdaşı Ülviyyə Aslanova "Qədim uyğur türkləri: abidələr, dil, ədəbiyyat" mövzularında çıxış ediblər.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov təqdim olunan əsərlərin yalnız dilçilik və ədəbiyyat deyil, eyni zamanda ümumtürk mədəniyyətinin öyrənilməsində mühüm rol oynadığını diqqətə çatdırıb.

Sonda müəlliflər Əbülfəz Quliyev və Nuray Əliyeva kitablar üzərində iş və təqdim edilən materiallar barədə danışıblar, mərasimin təşkilinə və yaradıcılıqlarına göstərilən diqqətə görə minnətdarlıq ediblər.

***Səbuhi HƏSƏNOV***

*Günün ağrısı*

# Tələbə yataqxanaları az, tələbat böyükdür

## *Kirayə mənzillər isə sərfəli və əlçatan deyil*



**Yeni tədris ilinin başlanmasına sayılı günlər qalıb. Ali məktəblərə ixtisas seçiminin nəticələri elan olunduqdan sonra bölgələrdən paytaxta oxumağa gələn tələbələr üçün yaşayış yeri tapmaq müşkülə çevrilib. İmtahan həyəcanını yenicə adladan tələbələr indi də kirayə ev qayğısı ilə yaşayırlar. Problem isə tələbə yataqxanalarının çatışmazlığıdır. Vəziyyətə aydınlıq gətirmək üçün bu suala cavab axtarmağa çalışdıq: Hansı universitetin tələbə yataqxanası var və qiymətlər necədir?**

Bununla bağlı bir neçə ali təhsil müəssisəsinə üz tutduq. Mənzərə heç də ürəkaçan olmadı. Belə ki, bəzi universitetlərin tələbə yataqxanası olsa da, otaqların sayı kifayət etmir. Bəziləri isə hələ də tələbələrə deyil, məcburi köçkünlərə xidmət göstərir.

Yataqxanaların sayının azlığı və şəraitsizliyi ucbatından bir çox tələbə kirayə ev axtarmağa məcbur qalır. Kirayə mənzillərin qiymətləri isə od tutub yanır. Bakıda birotaqlı evin aylıq kirayə haqqı 450-500 manatdan başlayır. Bu isə tələbənin orta aylıq xərclərini üstələyir. Bəzi tələbələr bu xərcləri ödəmək üçün 3-4 nəfərlə 1 otaq kirayələmək məcburiyyətində qalırlar.

Kirayə bazarına nəzarətin zəif olması da qiymətləri süni şəkildə artırır. Tələbələrin əksəriyyəti bu vəziyyətdə həm maddi, həm də psixoloji cəhətdən çətinlik çəkirlər. Yataqxana qiymətləri isə şəraitinə görə fərqlənir. Ölkənin ən böyük təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin 220 yerlik beşmərtəbəli tələbə evində 1 nəfərin aylıq ödənişi 75 manatdır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) isə Bakı şəhərində 5 tələbə yataqxanası var. Lakin onların 4-də 443 məcburi köçkün ailəsi məskunlaşıb. ADPU-nun 5 nömrəli yataqxanası isə universitetdə təhsil alan qız tələbələrə xidmət göstərir. Yataqxanada cəmi 200 tələbə yerləşə bilər. Aylıq ödəniş 1 tələbə üçün 85 manat təşkil edir.

Azərbaycan Tibb Universitetinin balansında isə 4 yataqxana fəaliyyət göstərir. Onlardan 1-i əsaslı təmir səbəbindən bağlıdır. 1 yataqxana isə əcnəbi tələbələrə ayrılıb. İndiyədək müraciət edən bütün tələbələr yataqxanada yerləşdirilib. Burada qiymətlər yerləşdirmə şəraitinə və otaqdakı tələbə sayına əsasən dəyişir. Azərbaycanlı tələbələr üçün aylıq ödəniş 50-90 manat civarındadır. Əcnəbi tələbələr üçün isə bu məbləğ aylıq 120 manat təşkil edir. Şəhid ailələrinin üzvləri üçün yerləşdirmə ödənişsizdir. Qazi ailələrinin üzvlərinə isə güzəştlər edirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin 4 yataqxanası mövcuddur. Lakin hazırda bu binalarda da məcburi köçkünlər yaşayırlar. Məcburi köçkünlər yeni yaşayış sahələri ilə təmin edildikdən sonra yataqxanalar əsaslı təmir olunaraq tələbələrin istifadəsinə veriləcək.

Bakı Mühəndislik Universitetindən verilən məlumata görə, oğlan və qızlar üçün 342 nəfərlik 2 böyük yataqxana fəaliyyət göstərir. 77 otağın hər biri 4 nəfərlikdir. Burada daha çox yerli tələbələr yerləşib. Əcnəbi tələbələrdən də yataqxanalardan istifadə edənlər var. Qiyməti ayda 70 manatdır.

Azərbaycan Texniki Universitetinin yataqxanasında da məcburi köçkün ailələri məskunlaşıb. Universitetdən bildirildi ki, son illər binalarda 124 ailə yaşayıb, lakin artıq 10 ailə işğaldan azad edilən ərazilərə – doğma yurdlarına qayıdıb. Yataqxanalar yararsız vəziyyətə düşüb.

Azərbaycan Dillər Universitetindən sorğumuza cavab olaraq dedilər ki, ali təhsil müəssisəsinin 2 saylı yataqxanası qızlar üçün nəzərdə tutulub və 205 nəfərlikdir. Xidmət haqqı 30 manatdır. Yataqxanada azərbaycanlı tələbələr üstünlük təşkil edir. Oğlanlar üçün nəzərdə tutulan 1 saylı yataqxanada isə məcburi köçkünlər yerləşdirilib. Paytaxtda yerləşən bəzi özəl universitetlərin də yataqxanaları mövcuddur. Qiymətlər isə 100-150 manat arasında dəyişir.

Təhsilin İnkişafı Fondundan verilən məlumata görə, hazırda universitietlərin tələbə yataqxanaları ilə bağlı texniki-iqtisadi əsaslandırma işləri aparılır. Bu sahəyə investorlar cəlb ediləcək. Artıq "BP Azərbaycanla" əməkdaşlıq memorandumu imzalanıb.

Tələbəlik insanın həyatında ən qayğılı və çətin dövrdür. Onlara lazımi şərait yaradılarsa, daha yüksək uğur qazanarlar. Ucuz, normal şəraitli evlər tək tələbənin rahatlığı üçün deyil, cəmiyyətin gələcəyi üçün də vacibdir. Çünki bugünün tələbəsi sabahın həkimi, müəllimi, mühəndisi olacaq.

***Elenora HƏSƏNOVA***
***XQ***

# Təhsildə bərabər imkan ümumi savadlığı yüksəldir

## *İnklüziv konsepsiya həssas qrupların kənarda qalmasına imkan vermir*

**Təhsil sistemi hər bir fərdin potensialını üzə çıxarmaq və cəmiyyətə inteqrasiyasını təmin etmək üçün fundamental əhəmiyyət kəsb edir. Bu gün dünyada ən çox müzakirə edilən konsepsiyalardan biri inklüziv təhsildir. İnklüziv təhsil fərdi xüsusiyyətlərindən, fiziki və ya intellektual imkanlarından asılı olmayaraq bütün uşaqların eyni təhsil müəssisələrində təhsil almasını nəzərdə tutur. Bu yanaşma həm də məktəblilər arasında ayrı-seçkiliyin qarşısını alır.**



İnklüziv təhsilin əsas məqsədi şagirdlərin təhsil ehtiyaclarını nəzərə alaraq onlara lazımi dəstəyi təmin etməkdir. Bəzən onlar öyrənmə prosesində çətinliklərlə üzləşirlər ki, bu da fərdi inkişaf üçün əlavə proqramlar və xüsusi xidmətlər tələb edir. Beynəlxalq konvensiyalar xüsusilə həssas qruplara aid olanların təhsilə çıxışının təmin edilməsi və potensialının reallaşdırılması üçün zəruri dəstəyin göstərilməsinin vacibliyini vurğulayır.

Azərbaycan beynəlxalq konvensiyalara qoşularaq xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bərabər təhsil imkanlarının yaradılması öhdəliyini öz üzərinə götürüb. Təhsil Nazirliyi tərəfindən bu istiqamətdə mühüm addımlar atılır, pilot layihələr həyata keçirilir və ümumtəhsil məktəblərində xüsusi siniflər yaradılır. Bərpa mərkəzləri də uşaqların bacarıqlarının inkişafında böyük rol oynayır.

Təhsil ocaqlarında fiziki mühitin uyğunlaşdırılması da böyük əhəmiyyət daşıyır. Pilləkənlərin panduslarla əvəzlənməsi, sinif otaqlarının məktəblilərin xüsusi ehtiyaclarına cavab verəcək şəkildə tərtib olunması tədris mühitini daha əlçatan edir. Tədqiqatlar göstərir ki, belə bir mühitdə fərqli imkanlı şagirdlər üçün təhsilin keyfiyyəti artır. Bu sistem hər bir şagirdə öz potensialını tam şəkildə reallaşdırmaq imkanı verir və onları gələcəkdə cəmiyyətin fəal üzvünə çevirir.

**246 nömrəli məktəb-liseyin direktoru Elmar Həşimov inklüziv təhsilin məktəbdə uğurla tətbiqindən danışarkən, bu prosesin ilkin mərhələlərində bəzi çətinliklərin olduğunu bildirdi. O zaman keçdikcə həm şagirdlərin, həm də müəllimlərin yeni sistemə uyğunlaşaraq əhəmiyyətli irəliləyişlər əldə edildiyini vurğuladı:**

– İlk vaxtlar xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün yeni mühitə uyğunlaşmaq bir qədər çətin idi, ancaq bu gün fəxrlə deyə bilərik ki, inklüziv sinifdə təhsil alan uşaqlarımız artıq beşinci sinfə keçib və onlar sinif yoldaşları ilə rahatlıqla ünsiyyət qurur, sosiallaşır və dərslərdəki nailiyyətləri gözlə görülür.

Bu müvəffəqiyyətin əsas səbəblərindən biri müəllimlərin xüsusi təlim keçmələridir. "Davranış qaydaları" və digər vacib mövzularda təlim keçən müəllimlər inklüziv mühitdə necə effektiv işləməli olduqlarını öyrənirlər. Bu yanaşma sayəsində hər bir şagirdin potensialı tam şəkildə üzə çıxarılır və onlara bərabər təhsil imkanları yaradılır.

**Övladını inklüziv sinfə göndərən Ruqiyyə Hüseynova bu qərarı verərkən böyük bir ümidlə oğlunun gələcəyi üçün ən doğru addım atdığını bildirir:**

– Daun sindromu diaqnozu bir son deyil, fərqli inkişaf yolunun başlanğıcıdır. Mən övladımın cəmiyyətin bir hissəsi olduğunu hiss etməsini və yaşıdları ilə birgə böyüməsini istəyirdim. İnklüziv sinifdə o, böyük irəliləyişlər əldə etdi. Sadəcə, dərslərini deyil, həm də yaşıdları ilə münasibətdə özünü ifadə etməyi, başqalarını dinləməyi və anlamağı öyrəndi. Bu, onun həyatına müsbət təsir göstərir, danışıq və ünsiyyət bacarıqlarının inkişafında böyük rol oynayır, ən əsası isə özünəinamını gücləndirir. O, həm də yaşıdlarının fərqliliklərini başa düşür və onlara hörmətlə yanaşır. Bu, təkcə övladım üçün deyil, bütün uşaqlar üçün ən vacib həyat dərsidir.

İnklüziv təhsildə uğur qazanmaq müəllimlərin peşəkarlığından çox asılıdır. Müəllimlər hər bir uşağın fərqli ehtiyaclarını başa düşmək, onlara uyğun tədris planları hazırlamaq üçün lazımi bilik və bacarıqlara malik olmalıdırlar. Eyni zamanda, ictimai nəqliyyat, məktəb binaları və oyun meydançaları inklüziv standartlara cavab verməlidir. Cəmiyyətin münasibəti də dəyişməlidir. Uşaqlarda həmrəylik və qarşılıqlı hörmət hissini gücləndirmək üçün valideynlərin, müəllimlərin və bütün vətəndaşların üzərinə böyük məsuliyyət düşür. Bu, daha tolerant və mehriban cəmiyyət qurmağın əsasını təşkil edir.

***Arzu ƏLİYEVA***
***XQ***

*Beynəlxalq həyat*

# Rusiya–Hindistan–Çin üçbucağı

## *Qərbə qarşı yeni güc mərkəzi, yoxsa müvəqqəti yaxınlaşma?*

**Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Tiencin sammiti beynəlxalq medianın diqqətini cəlb edib. Xüsusilə də Çin Xalq Respublikasının sədri Si Cinpinin Hindistan baş naziri Narendra Modi ilə görüşdən sonra səsləndirdiyi "Əjdaha və fil birlikdə rəqs edə bilərlər" ifadəsi belə düşünməyə vadar edib ki, Pekin ilə Nyu-Dehli strateji rəqiblikdən mehriban dostluq əlaqələrinin formalaşdırılması mərhələsinə qədəm qoyublar. Lakin ekspertlər bu mesajın real siyasi və iqtisadi nəticələrə çevrilib-çevrilməyəcəyinə şübhə ilə yanaşırlar.**



Məsələ ondadır ki, Çin və Hindistan uzun illərdir həm iqtisadi, həm də siyasi sahədə rəqib mövqedədir. 2020-ci ildə sərhəd bölgəsində baş verən toqquşmalar, eləcə də Hindistan–Pakistan qarşıdurmalarında Pekinin İslamabada verdiyi dəstək iki ölkə arasında inamsızlığı gücləndirib. Son illərdə isə hər iki tərəf Qərb bazarları uğrunda ciddi rəqabət aparır. Məsələn, "Çin plyus" strategiyası çərçivəsində beynəlxalq korporasiyalar istehsal gücünün bir hissəsini Çindən çıxararaq Hindistana köçürürlər. Aşağı əmək haqqı, ingilis dilinin geniş istifadəsi, Qərb biznes mədəniyyətinə yaxınlıq kimi faktorlar Nyu-Dehliyə böyük üstünlüklər qazandırır. 2021-ci ildə Hindistanda "iPhone" istehsalı 1 faiz idisə, 2024-cü ildə bu göstəricinin 25 faizə çatıb. "Samsung", "General Electric", "Boeing" və "Siemens" kimi nəhənglər də oxşar addımlar atıblar.

Çində əməkhaqlarının artması, istehsal xərclərinin yüksəlməsi Hindistanı daha cazibədar edir. Əgər 1990–2010-cu illərdə "dünyanın fabriki" statusunu qazanan Çin çox ucuz işçi qüvvəsi, nəhəng istehsal gücü və ixrac imkanları ilə fərqlənirdisə, indi vəziyyət dəyişib. Çində orta aylıq əməkhaqqı min dollardan çoxdur. Bu, on il əvvəlki göstəricilərlə müqayisədə iki-üç dəfə yüksəkdir. Beləliklə, Çin artıq "ucuz işçi qüvvəsi" üstünlüyünü böyük ölçüdə itirib. Buna baxmayaraq, Çin hələ də daxili bazarının ölçüsü və inkişaf etmiş infrastruktura üstünlüyünü qoruyur. Buna görə də, Hindistan sürətlə istehsal mərkəzinə çevrilsə də, infrastruktur, logistika və texnoloji təchizat baxımından Çindən geri qalır. Məsələn, Çin dünyanın ən geniş dəmir yolu və avtomobil şəbəkəsinə, həmçinin yüksək sürətli logistika imkanlarına malikdir. Hindistanda bu sahələrin inkişafı ilə öyünə bilməz.

Belə rəqabətli münasibətlərdə Rusiya vasitəçi və balanslaşdırıcı rol oynamağa çalışır. Moskva həm Pekinlə, həm də Nyu-Dehli ilə strateji tərəfdaşlıq münasibətləri saxlayır. Hindistan Rusiyadan iri həcmdə silah alır, eyni zamanda, Ukrayna müharibəsindən sonra Rusiyanın əsas neft alıcılarından birinə çevrilib. Çin isə Qərbin sanksiyaları fonunda Moskvanın əsas siyasi və iqtisadi dayağına çevrilib. Belə şəraitdə Rusiya–Çin–Hindistan üçbucağı Qərbə qarşı alternativ güc mərkəzi kimi təqdim olunur. Sammitdə Si Cinpin, Narendra Modi və Vladimir Putinin birgə fotosu da bu mesajı gücləndirmək məqsədi daşıyırdı.

Əlbəttə, Qərb analitikləri bu yaxınlaşmanı Vaşinqton və Brüsseldə narahatlıqla izləyirlər. ABŞ-ın Çinlə ticarət müharibəsi, Rusiyaya qarşı sanksiyalar və Hindistana tətbiq etdiyi tariflər bu üçlüyü müəyyən qədər bir-birinə yaxınlaşdırır. Lakin əməkdaşlıq perspektivləri ciddi məhdudiyyətlərlə üz-üzədir. Məsələn, Çin və Hindistan arasındakı hərbi toqquşmalar hələ də xatırlanır. Bundan başqa, hər iki ölkə Qərb kapitalını və texnologiyasını cəlb etməkdə bir-birinə rəqibdir. Eyni zamanda, Hindistan Qərblə, xüsusən də ABŞ-la əməkdaşlığı tam dayandırmaq niyyətində deyil, əksinə, Nyu-Dehli "balans siyasəti" yürüdür. Hindistan ABŞ, Yaponiya və Avstraliya ilə birlikdə QUAD alyansında iştirak edir. Bu alyans Çinin Asiya-Sakit okeandakı təsirini balanslaşdırmağa yönəlib.

Buna görə də, Rusiya–Hindistan–Çin əməkdaşlığı, hələ ki, simvolik xarakter daşıyır. Onların Qərbə qarşı vahid cəbhə kimi çıxış etməsi qısa müddətdə real görünmür. Bununla belə, hər üç ölkənin maraqlarının müəyyən məqamda üst-üstə düşməsi, xüsusilə də Qərbin təzyiqlərinə qarşı koordinasiyalı addımlar atması mümkündür. Əgər tərəflər ən azından münasibətləri rəqabətdən düşmənçiliyə sürükləməsələr, bu artıq böyük nailiyyət sayılacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

*Sağlamlıq*

# Buzlu su məlhəm imiş...

**Yaponların illərdir istifadə etdikləri sadə, lakin təsirli sağlamlıq üsulu eşidənlərin diqqətini çəkib. Məlum olub ki, əlləri bir neçə dəqiqə buzlu suda saxlamaq orqanizmi cavanlaşdırır və bəzi sağlamlıq problemlərini yüngülləşdirir.**

Xarici mətbuatın yazdığına görə, yaponların illərdir istifadə etdikləri bu sadə üsulun arxasında həm elmi, həm də psixoloji məntiq dayanır.

Yapon mədəniyyətində soyuq suya məruz qalmaq bədəni oyandırmaq və zehni təravətləndirmək üçün ən praktik üsullardan biri kimi tanınır.

Əslində, bir çox yaponiyalı səhər işə başlamazdan əvvəl əllərini və biləklərini qısa müddətə buzlu suda islatmağı vərdiş halına gətirib.

Soyuq suya toxunduqda bədənimizdəki qan damarları dərhal daralır. Bu, qanı mərkəzi orqanlara yönəldir və qan dövranını artırır.

Bəs əlləri buzlu suda saxlamaq orqanizmdə hansı dəyişiklikləri yaradır? Yapon alimlərinin fikrincə, bu təsir öncə özünü əllərdəki sinir uclarını stimullaşdırmaqla göstərir ki, bu da beyinə "oyanma" siqnalı verir.

Araşdırmalara görə, qısamüddətli soyuq təmas, həmçinin bədəndəki şişliyi və ödemi azaldır. Eyni zamanda, immunitet sistemini gücləndirir.

Əlləri buzlu suya qoymaq, həm də stressi aradan qaldırır və insanın əhval-ruhiyyəsini tarazlaşdırır.

Bunun üçün kiçik bir qabı buzla doldurmaq, üzərinə soyuq su əlavə etmək və əlləri bilək səviyyəsinə qədər batırmaq lazımdır. Təxminən, 0,5–1 dəqiqəyə qədər saxlamaq, sonra əlləri çıxarıb qurulamaq lazımdır.



***Z.HÜSEYNLİ***
***XQ***

*Biz deməsək...*

# Marketlər çeşid-çeşid...

## *Rahatlıq–məmnunluq, nöqsanlar–narazılıq doğurur*

**Şəhərimizin siması sürətlə dəyişir, köhnə tikililər müasir memarlıq nümunələri ilə əvəz olunur. Bu inkişaf fonunda yeni supermarket şəbəkələri də genişlənir. Ənənəvi bazarlar və kiçik dükanların yerində də yeni marketlər açılır.**



Bu geniş, işıqlı və səliqəli məkanlar həyatımızı asanlaşdırır. Marketlərin gətirdiyi ən önəmli yeniliklərdən biri isə vaxta qənaət və çeşid bolluğudur. Artıq insanlar günlərini müxtəlif bazarlarda keçirmir, daha sürətli və rahat alış-veriş edə bilirlər. Bir marketdə yüzlərlə fərqli, əvvəllər tapa bilmədiyimiz yerli və idxal məhsullarını görmək mümkündür. Marketlər xüsusi kampaniyalar və endirimlərlə də alış-verişi daha cəlbedici edir. Bu da, sözsüz ki, büdcəmizə müsbət təsir göstərir.



Lakin bu rahatlığın fonunda müəyyən uyğunsuzluqlar da ortaya çıxır. Məsələn, bəzi marketlərdə, kiçik məhəllə dükanlarında çörək, un məmulatları və digər açıq qida məhsullarının gigiyenik vəziyyəti narahatlıq yaradır. Rəflərdə yerləşdirilən yuyucu vasitələrin kəskin qoxusu ani olaraq mağazadakı çörək, un məmulatları və digər qablaşdırılmamış ərzaqlara hopur. Bu, həm məhsulun dadını və keyfiyyətini aşağı salır, həm də təhlükə yaradır.

**Bununla bağlı Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov XQ-yə bildirdi ki, ən çox rast gələnən problemlərdən biri malların sıx yığılması və qida məhsullarının kimyəvi mallarla yanaşı qoyulmasıdır:**

– Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 saylı qərarında ticarət və xidmət sahələrinin təşkili, o cümlədən marketlərdə malların qonşuluğu barədə geniş məlumat verilir. Buna baxmayaraq, marketlərdəki anormal vəziyyətlə bağlı çoxsaylı şikayətlər daxil olur. Qənd, duz və digər qoxu çəkən qida məhsullarının təmizləyici vasitələrlə eyni yerdə olması insanların sağlamlığı üçün ciddi təhlükə yaradır. Təəssüflər olsun ki, belə hallara tez-tez rast gəlinir. Bununla belə, ölkədə malların geniş və düzgün şəkildə yığıldığı nümunəvi supermarketlər də mövcuddur.

Açıq şəkildə sərgilənən məhsullara hər kəsin toxunması da sağlamlıq üçün qorxuludur. Bir məhsula neçə insanın əlinin dəyməsi mikrobların yayılmasına səbəb olur. Bu, cəmiyyətimizdə hələ də həllini tam tapmamış problemlərdir. Bunun qarşısını almaq üçün həm marketlərin, həm də alıcıların ehtiyatlı olması vacibdir. Marketlərdə açıq məhsullar xüsusi şüşə vitrinlərdə və ya qapalı səbətlərdə təqdim olunmalı, çörək və digər un məmulatları üçün isə birdəfəlik əlcək və ya xüsusi tutacaqlar qoyulmalıdır. Beləcə, müştərilərin məhsullara əllə toxunmasının qarşısı alınar. İstehlakçılar da öz növbəsində, gigiyena qaydalarına riayət etməli və məhsulları toxunmadan seçməlidirlər.

**Digər bir problem isə bəzən məhsulun üzərindəki qiymətlə kassada görünən rəqəmin uyğun gəlməməsidir. Bu da istehlakçıda narazılıq yaradır. Sabunçu rayonunda yerləşən marketlərin birində alıcı Quliyeva Tamilla bildirdi ki, bəzən alıcıları cəlb etmək üçün "endirim" adı altında aldadıcı kampaniyalar keçirirlər:**

– Marketdə alış-veriş zamanı ən çox qarşılaşdığım problem qiymət fərqidir. Məhsulu rəfdən götürürəm, üzərində bir qiymət yazılıb, kassaya gələndə isə başqa bir qiymətlə rastlaşıram. Kassirdən soruşanda isə deyir ki, "qiymət dəyişib, etiket yenilənməyib". Məsələn, bir məhsulun qiyməti 5 manatdır. Həmin gün qiymət etiketinin üzərinə 10 manat yazılır, üstündən xətt çəkilir və endirimli qiymət kimi yenə 5 manat göstərilir. Beləliklə, müştəri elə bilir ki, böyük endirimdən yararlanır, amma əslində heç nə dəyişməyib. Bu cür problemlər hər bir kəsdə haqlı narazılığa səbəb olur.

Satıcıların müştərilərlə davranışı da önəmlidir. Təbii ki, gülərüz, nəzakətli və suallara dolğun cavab verən satıcılarla rastlaşanda alış-verişdən məmnun qalırıq. Lakin bəzən satıcılar bilərəkdən köhnə məhsulları təqdim edirlər. Həmçinin kobud davranan satıcılarla da qarşılaşmaq olur. Bu cür hallar insanın əhvalını korlayır. Marketlər və alıcılar arasındakı qarşılıqlı hörmət və məsuliyyətli davranış alış-verişi hər iki tərəf üçün daha rahat və xoş edə bilər.

Artıq marketlər həyatımızın ayrılmaz hissəsinə çevrilib. Onlar bizə müasir ticarətin imkanlarını təqdim etməklə yanaşı, bəzi çatışmazlıqlarla da qarşılaşdırır. Bütün bunların aradan qaldırılması üçün məsuliyyət yalnız marketlərin üzərinə düşmür. Biz istehlakçılar hüquqlarımızı bilməli və ticarət mədəniyyətini inkişaf etdirməliyik. Ölkəmizdə kifayət qədər geniş, rahat və hər bir məhsulun xüsusi yerinin olduğu supermarketlər istənilən qədərdir. Bu da xidmət səviyyəsinin keyfiyyətindən xəbər verir. Odur ki, bu kimi məsələlərdə biz alıcılar da çox həssas davranmalıyıq. Çünki sağlamlığımız böyük önəm daşıyır. Məhsullara toxunarkən ehtiyatlı olmalı, gigiyena qaydalarına riayət etməli və yalnız keyfiyyətli məhsulları almağa çalışmalıyıq.

***Arzu ƏLİYEVA***
***XQ***


## "LUKOIL-Azərbaycan" QSC-nin tender elanı

## Hörmətli xanımlar və cənablar!

Biz bununla sizi işlərin (xidmət, təchizat) yerinə yetirilməsinə dair tenderdə iştirak etməyə dəvət edirik: "LUKOIL-Azərbaycan" QSC-nin 13 saylı yanacaqdoldurma məntəqəsində tikinti-quraşdırma işlərinin sifarişi üzrə 2 mərhələli açıq tenderdə iştirak etməyə dəvət edirik.

Keçiriləri tender barədə ümumi məlumat:
Sifarişçi – "LUKOIL-Azərbaycan" QSC
Ünvan – Bakı şəhəri. Səbail rayonu, Z.Tağıyev küçəsi 13.
Əlaqə telefonları – (012) 497-41-99/dax.4246
E-mail – rasul.aliyev@eu.lukoil.com
Əlaqələndirici şəxs – Rəsul Əliyev.

İşlərin icra müddəti: Müqavilənin imzalanma tarixindən etibarən 2 (iki) ay.

Sənədlərin tam toplusu, tenderdə iştirak etmək üçün zəruri sənədlərlə birgə təqdim etdiyiniz ərizənin,verilmiş tələblərə uyğunluq ekspertizasından sonra, Sizin ünvana göndəriləcək. Ərizə ilə birlikdə iddiaçılar mütləq qaydada kvalifikasiya anketlərini təqdim etməlidirlər.

Tenderdə iştirak etmək üçün ərizələrin təqdimi və tender sənədlərinin alınması müddəti 15 sentyabr 2025-ci il saat 18.00-dək. Ərizə ilə birlikdə mütləq şəkildə kvalifikasiya anketi təqdim olunmalıdır.

Tender təklifləri 22 sentyabr 2025–ci il saat 18.00-dək yuxarıda qeyd olunan ünvana təqdim edilməlidir.

Tender 24 sentyabr 2025–ci il saat 11.00-da yuxarda qeyd olunmuş ünvanda keçiriləcək. (1-ci mərhələ).

Tender 26 sentyabr 2025–ci il saat 11.00-da yuxarda qeyd olunmuş ünvanda keçiriləcək. (2-ci mərhələ).

Qeydə alınmış namizədlərin, tender təklifləri olan zərflərin açılmasında iştirakı mütləqdir.

Müqavilə üzrə hesablaşma nağdsız ödəniş yolu ilə, icraçının bank hesabına ödənilir

Müqavilə şərtlərini yerinə yetirmək üçün tender iştirakçılarının texniki imkani,zəruri sənədlər toplusu olmalıdır.

Tender təkliflərinin qüvvədə olma müddəti 90 təqvim günündən az olmamalıdır.

Tender təklifləri azərbaycan və ya rus dillərində təqdim olunmalıdır.

Tenderin qalibi ilə, tender başa çatdıqdan sonra, 20 təqvim günü ərzində müqavilə bağlanacaqdır

Tenderin qalibi, sifarişçinin ərizəsinə əsasən malları növbəti ünvana çatdırmalıdır: Bakı şəh., Sabunçu, 8-ci km, rayonu, Bakıxanov qəsəbəsi (18 saylı YDM)

Tenderdə iştirak üçün "ərizə" forması, habelə tender haqqında tam məlumatları yuxarıda qeyd olunan telefon və elektron poçtu vasitəsi ilə almaq olar.

***Tender komitəsi***

## "ЛУКОЙЛ-Азербайджан" ЗАО Объявление о проведении тендера

## Уважаемые Дамы и Господа!

Настоящим приглашаем вас принять участие в открытом тендере на проведение строительно-монтажных работ на автозаправочной станции №13 ЗАО "ЛУКОЙЛ-Азербайджан"

Общая информация о проводимом тендере.
Заказчик- ЗАО "ЛУКОЙЛ-Азербайджан"
Адрес- Сабаильский район, ул. З.Тагиева 13
Контактное лицо – Алиев Расул
Контактные телефоны (012) 497 41 99 / доб. 4246
E-mail: rasul.aliyev@eu.lukoil.com.

Дата начала и окончания работ: 2 (два) месяца с даты подписания договора.

комплект тендерной документации направляется в Ваш адрес после экспертизы полученной заявки на участие в тендере с приложением необходимых документов на предмет соответствия предъявляемым требованиям. Вместе с заявкой претенденты обязательно должны предоставить квалификационные анкеты.

Срок подачи заявки на участие в тендере и приобретение тендерной документации – 15 сентября 2025 г. по адресу, указанному выше.

Срок предоставления тендерных предложений до 22 сентября 2025 г. по адресу, указанному выше.

Дата проведения тендера 24 сентября 2025 г. в 11.00 по адресу, указанному выше (первый этап)

Дата проведения тендера 26 сентября 2025 г. в 11.00 по адресу, указанному выше (второй этап)

Участие представителей зарегистрированных претендентов во втором этапе тендера обязательна.

Расчеты по договору будут проводится по безналичному расчету путем перечисления на счет исполнителя.

Участники тендера должны иметь технические возможности проведения работ, набор необходимых документов для выполнения условий контракта.

Срок действия тендерных предложений должен составлять не менее 90 календарных дней, начиная с даты проведения тендера.

Тендерные предложения необходимо представить на азербайджанском и русском языках.

С победителем тендера будут заключен договор в течение 20 календарных дней с момента окончания тендерных торгов.

Форму «Заявки на участие в тендере», а также иную информацию можно получить по указанным в приглашении телефонам и адресу электронной почты.

***Тендерный комитет***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 189 (30883) 6 sentyabr 2025-ci il, şənbə

# III MDB Oyunlarının Təşkilat Komitəsinin 3-cü iclası keçirilib

**Sentyabrın 4-də Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifovun sədrliyi ilə III MDB Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsinin 3-cü iclası keçirilib.**

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə Gənclər və İdman Nazirliyinin nəzdində Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin Oyunlara hazırlıq işləri barədə təqdimatları dinlənilib.

O cümlədən hava limanı əməliyyatları, nəqliyyat, təhlükəsizlik, uniforma, akkreditasiya, brendinq, tədbirlər, mükafatlandırma, bilet sistemi, logistika, iaşə xidmətləri, təmizlik və tullantıların idarə olunması, inzibati işlər, insan resursları və işçi qüvvəsi, III MDB Oyunları könüllülər proqramı, məkanların idarə olunması, media xidmətləri və kommunikasiya, informasiya texnologiyaları və yayım, idman əməliyyatları, açılış və bağlanış mərasimlərinə hazırlıq, idman qurğularının Oyunlara hazırlığı istiqamətlərində aparılan işlər barədə məlumat verilib.

*XQ*



## İDMAN

### Əbil və Süleyman medalçı ola bilmədilər



**Slovakiyanın paytaxtı Bratislavada keçirilən cüdo üzrə gənclər arasında Avropa çempionatının ikinci yarış günündə 2 cüdoçumuz tatamiyə çıxıb. Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, 73 kq çəki dərəcəsində mübarizəyə qoşulan Əbil Yusubov qitə birinciliyində Georqios Kotsaxristos (Yunanıstan) və İsveçrə təmsilçisi Stevan Maitini məğlub edərək 1/4 finalda Bolqarıstan idmançısı Viktor Skerlevə məğlub olaraq təsəlliverici görüşdə iştirak hüququ qazanıb. Cüdoçumuz bu qarşılaşmada Lusio Tavolettaya uduzaraq yarışı 7-ci pillədə tamamlayıb.**

**81 kq çəkidə qüvvəsini sınayan Süleyman Şükürov 1/16 finalda serbiyalı Duşan Qraxovaca qalib gəlib. İkinci görüşdə ispaniyalı İnyaki Baztan Merçana məğlub olan təmsilçimiz yarışla erkən vidalaşıb.**

**Xatırladaq ki, birinci yarış günündə cüdoçularımız 2 qızıl və 1 bürünc medal qazanıblar.**

### Hədəfi sərrast nişan alanlar



**Azərbaycan Atıcılıq Federasiyasının mətbuat xidmətindən bildirilib ki, güllə atıcılığı üzrə ölkə çempionatının qalibləri müəyyənləşib.**

**Kişilər arasında 50 metr məsafəyə kiçikçaplı tapançadan atəş açma yarışında Rəsul Məmmədov qızıl, Hacı Musayev gümüş, Vladislav Kalmıkov bürünc medal qazanıb.**

**Qadınlar arasında 25 metr məsafəyə kiçikçaplı tapançadan atəş açma yarışında isə Zeynəb Sultanova fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Nilufər Səmədli ikinci, Sofiya Barxalova isə üçüncü yeri tutub.**

**Həmin məsafədə kişilər arasında Ruslan Lunyov qızıl, İmran Qarayev gümüş, Cəfər Sultanlı isə bürünc medala sahib olub.**

**Bundan əlavə 50 metr məsafəyə 3 vəziyyətdə tüfəng ilə atəş açma yarışında Nigar Ramazanova birinci, Əliməmməd Hüseynov ikinci, Üzeyir Tapdıqlı isə üçüncü yeri tutub.**

### Messinin Argentina millisində vida oyunu




**Argentina millisinin futbolçusu Lionel Messi dünya çempionatının Cənubi Amerika zonasında keçirdiyi oyunların sayına görə rekorda şərik olub.**

**Messinin Venesuela komandasına qarşı keçirdiyi görüş seçmə mərhələdə 72-ci olub. Bu göstəriciyə görə 38 yaşlı hücumçu Ekvador millisinin sabiq müdafiəçisi İvan Urtadonun rekordunu təkrarlayıb.**

**Qeyd edək ki, ötən gecə baş tutan Argentina – Venesuela matçı meydan sahiblərinin 3:0 hesablı qələbəsi ilə nəticələnib. Messi bu görüşdə iki qol vurub. Dünya şöhrətli ulduz futbolçu vida matçında göz yaşlarını saxlaya bilməyib.**

**Qabil YUSİFOĞLU**
**XQ**

# Fransada media azadlığına təhdid

## *Jurnalistlər kütləvi iğtişaşlardan kənarlaşdırılırmı?*



**Fransa Daxili İşlər Nazirliyi iyul ayında "Şəhər zorakılığı üzrə Milli Sxem" (SNVU) qəbul edib. Sənəd hüquq-mühafizə orqanlarının şəhər iğtişaşlarına qarşı fəaliyyətini tənzimləyən praktiki rəhbərlikdir. Burada resursların səfərbərliyindən tutmuş əməliyyat planlaşdırılmasına, saxlanılan şəxslərin hüquqi işlənməsindən məlumatlandırma prosesinədək çoxsaylı mexanizmlər yer alıb.**

Sənədin əsas məqsədi dövlət strukturlarının şəhər zorakılığına qarşı daha koordinasiyalı və çevik hərəkətini təmin etməkdir. Lakin sənəddə yer alan bir qeyd Fransa mediası və beynəlxalq jurnalist təşkilatlarının ciddi narahatlığına səbəb olub.

### "Jurnalistlərin statusu" məsələsi

Yeni qaydalarda açıq şəkildə qeyd olunur ki, jurnalistlərin statusunun nəzərə alınması — yəni onların xüsusi hüquqlarının və fəaliyyət azadlıqlarının qorunması — şəhər zorakılığı kontekstində əvvəlki milli asayiş sxemində (SNMO) olduğu kimi tətbiq edilmir.

Bu, praktikada o deməkdir ki, iğtişaşlar zamanı jurnalistlər artıq əvvəlki kimi hüquqi imtiyazlarla müdafiə olunmayacaq, onların hadisə yerində fəaliyyətinə məhdudiyyətlər qoyula bilər.

### Jurnalist təşkilatlarının reaksiyası

Fransa Jurnalistlər İttifaqı (SNJ) bu yanaşmanı "mətbuat azadlığı üçün açıq təhdid" sayır. "Sərhədsiz Reportyorlar" (RSF) isə bəyan edir ki, hüquq-mühafizə orqanlarının jurnalistləri digər vətəndaşlardan fərqləndirməməsi onların peşə fəaliyyətini faktiki olaraq mümkünsüz vəziyyətə gətirəcək.

Xüsusilə qeyd olunur ki, 2023-cü ildə baş vermiş genişmiqyaslı iğtişaşlarda polis ilə jurnalistlər arasında gərginlik yaşanmış, bəzi media nümayəndələri zorakılığa məruz qalmışdı. O vaxtdan bəri hakimiyyətin məqsədi asayişi möhkəmləndirmək olsa da, qəbul edilən yeni sənəd mətbuatın fəaliyyət azadlığını məhdudlaşdıran bir mexanizmə çevrilib.

### Hüquqi və siyasi nəticələr

Fransa Konstitusiyası və Avropa İnsan Hüquqları Konvensiyası mətbuat azadlığını təmin edən əsas hüquqi sənədlərdir. Bu baxımdan, SNVU-nun yeni bəndləri qanunvericilikdə mövcud olan prinsiplərlə ziddiyyət təşkil edə bilər. Ekspertlərin rəyincə sənədin məhkəmə müstəvisində mübahisələndirilməsi mümkündür.

Siyasi müstəvidə isə bu addım hakimiyyətin "təhlükəsizlik" və "azadlıq" balansını getdikcə daha çox təhlükəsizliyin xeyrinə dəyişdiyini göstərir. Bu isə Fransanı demokratik dəyərlərin qorunması ilə bağlı yeni suallar qarşısında qoyur.

### Analitik nəticə

Əgər yeni qayda bu formada qüvvədə qalarsa, Fransada jurnalistlərin hadisə yerlərinə çıxışı məhdudlaşacaq, informasiya axını ləngiyəcək və ictimaiyyətin obyektiv məlumat alma hüququ zərbə altında qalacaq. Əslində, zorakılığın qarşısını almaq adı ilə informasiya azadlığı məhdudlaşacaq.

Sənəd yalnız Fransa mediasının deyil, bütün Avropa jurnalist cəmiyyətinin diqqət mərkəzindədir. Çünki Avropa İttifaqının aparıcı ölkələrindən biri sayılan Fransada belə bir presedent yaranarsa, digər dövlətlərdə də oxşar addımların atılması ehtimalı güclənə bilər.

***Oğuz ARİF,***
***hüquqşünas***

# Azərbaycanda da batareya saxlanc sistemləri yaradılır

*Bu, MDB məkanında bərpaolunan enerji sektoru üzrə ilk layihədir*



**Azərbaycanın enerji sektoru yeni mərhələyə qədəm qoyub. Ölkədə bərpaolunan enerji mənbələrinin sürətli inkişafı üçün böyük miqyasda batareya saxlanc sistemlərinin yaradılmasına başlanılıb. Bu barədə XQ-yə "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətindən məlumat verilib.**

Bildirilib ki, paytaxta yaxın ərazidə 500 kilovoltluq "Abşeron" yarımstansiyasının və ölkənin mərkəzi hissəsində yerləşən 220 kilovoltluq "Ağdaş" yarımstansiyasının ərazisində, ümumilikdə, gücü 250 meqavat, tutumu 500 meqavat-saat olan batareya saxlanc sistemləri yaradılır. Hazırda yerlərdə lazımi tikinti işləri görülür və elementlərin sifariş əsasında istehsal edilərək sahəyə gətirilməsi üzrə işlər aparılır. Bu həcmdə sistemlərin tətbiqi təkcə Azərbaycanda deyil, bütövlükdə, MDB məkanında ilk olacaq.

Batareya saxlanc sistemlərinin yaradılması enerjisistemin dayanıqlığının yüksəldilməsi, tezliyin stabilliyi, bərpaolunan enerji mənbələrində kəsintilərinin azaldılması, aktiv güc çatışmazlığının kompensasiyası, pik yüklərin qarşılanması, günəşin batma saatlarında yük qrafikinin hamarlanması, qəza zamanı enerjisistemin sıfırdan bərpası baxımından olduqca əhəmiyyətlidir. Bu sistemlərin tətbiqi Azərbaycanın enerji müstəqilliyini möhkəmləndirməklə yanaşı, həm də enerji sistemimizin qonşu ölkənin sinxron zonası ilə paralel və ada rejimlərində etibarlı işləməsini təmin edəcək.

Qeyd edək ki, 2027-ci ilə qədər ölkədə yaradılacaq 2 qiqavat gücündə günəş və külək stansiyalarını şəbəkəyə inteqrasiya etmək məqsədilə "AzərEnerji" tərəfindən hazırda genişmiqyaslı proqram həyata keçirilir. Proqram çərçivəsində enerji saxlanc texnologiyalarının tətbiqi ilə yanaşı, əsas qovşaq yarımstansiyası funksiyasını daşımaq üçün ölkənin ən böyük yarımstansiyalarından biri – 500/330 kilovoltluq "Nəvahi" Enerji Qovşağı tikilir. Oradan ölkənin müxtəlif istiqamətlərinə 500 və 330 kilovoltluq yüksəkgərginlikli ötürmə xətləri çəkilir, rəqəmsallaşma və şəbəkə idarəetməsinin təkmilləşdirilməsi məqsədi ilə kompleks işlər görülür.

*XQ*

## Hava

# Yayın sonunda yaz yağışları



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətdən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Günün birinci yarısında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimal olunur. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 20-25, gündüz 28-31 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağışın qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcəyi ehtimal olunur. Mülayim şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-25, gündüz 32-37, dağlarda gecə 13-18, gündüz 23-28 dərəcə isti olacaq.

**Q.ƏLİYEV**
**XQ**

*✓ 2025-ci il iyunun 2-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Notariat, Qeydiyyat və Reyestr baş idarəsi tərəfindən "Uğur" Maarifçilik İctimai Birliyinə verilmiş qeyri-kommersiya hüquqi şəxsinin adında edilmiş dəyişikliyin dövlət qeydiyyatı haqqında 1106-Q11-2129 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.*

*✓ Hərbi qulluqçu Qasımov İlqar Agasəf oğlunun adına verilmiş AD seriyalı, 0036222 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3463
SİFARİŞ 1738
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00